Xalqın qəzeti!

# Xalq qəzeti

№ 179 (30873) 26 avqust 2025-ci il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti

Mehriban Əliyeva çox peşəkar, bilikli, təcrübəli, prinsipial, çox xeyirxah bir insandır. Azərbaycan xalqı ona böyük rəğbət və sevgi ilə yanaşır.

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının
Prezidenti

# Donald Tramp: İlham, siz böyük lidersiniz!

## Prezident İlham Əliyev Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Trampın hədiyyəsinə görə ona təşəkkür edib







Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Trampın hədiyyəsi ilə əlaqədar sosial media hesablarında paylaşım edib.

Paylaşımda deyilir: "Prezident Donald Trampa şəxsi imzası ilə mənə hədiyyə etdiyi tarixi fotoşəkillərə və üzərində yazdığı xoş sözlərə görə təşəkkür edirəm.

Prezident Donald Trampın Azərbaycan ilə Ermənistan arasında münasibətlərin normallaşdırılmasına, habelə Cənubi Qafqazda və dünyada sülh gündəliyinə verdiyi qətiyyətli dəstəyini yüksək qiymətləndirir və buna görə ona bir daha dərin minnətdarlığımı bildirirəm. Donald J.Trump".

## Sədaqət rəmzi və bütövlük missiyası



Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva ölkəmizdə və onun hüdudlarından kənarda, sözün yüksək mənasında, bütövlük, xeyirxahlıq və böyük ideallara xidmət nümunəsi kimi qəbul edilir. Nəsil şəcərəsindən gələn dərin sədaqət hissi qurduğu ailənin möhkəm mənəvi-siyasi dəyərləri ilə daha da inkişaf etdirilərək onu həm Azərbaycan qadınlığının müasir mərhələdəki siması, həm də müstəqil dövlətçilik prinsiplərimizin bütövlüyünün layiqli və məsuliyyətli təminatçısı kimi təqdim edir.

(ardı 5-ci səhifədə)

## Tarixi anlaşmanın müəllifi



**Ermənistan prezidentinin 8 avqustu "böyük diplomatik nailiyyət" adlandırması həqiqətən yeni bir regional mərhələnin başlanğıcıdırmı? Bu gün Ermənistan hansı siyasi və geosiyasi şərtlər nəticəsində "müharibə məntiqindən sülh məntiqinə" keçmək məcburiyyətində qaldı? Və ən vacib sual: bu tarixi şansı İrəvan özü formalaşdırdı, yoxsa Bakı tərəfindən yaradılmış sülh gündəliyinin zərurəti idi?**

Siyasi analitik baxış bu suallara cavab tapmağa çalışır. Çünki 8 avqust Azərbaycanın təşəbbüslərinin bölgədə necə "məcburi reallıq" yaratdığını göstərən bariz nümunədir.

(ardı 7-ci səhifədə)

## Azərbaycan–Rusiya: çoxtərəfli əməkdaşlıq ortaq maraqları cavablandırır



Səhifə ⇨ 4

## Şəkli dəyişdirmək zamanı, yaxud Paşinyana subliminal dəstək



Səhifə ⇨ 4

## Dahi bəstəkar ana dilimizin də himayədarı idi



Səhifə ⇨ 10

## AİB ölkəmizdə iqlimə davamlığı dəstəkləyir

Səhifə ⇨ 8

# Prezident İlham Əliyev Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının dövlət nazirini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 25-də Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Avropa, Şimali Amerika və xaricdəki ərazilər üzrə dövlət naziri Stiven Doutini qəbul edib.**

Stiven Douti Vaşinqtonda Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşması və sülh gündəliyinin irəli aparılması ilə əlaqədar əldə olunmuş tarixi nəticələr münasibətilə dövlətimizin başçısına təbriklərini çatdırdı, ölkəsinin bu prosesə dəstək verməyə hazır olduğunu bildirdi. Qonaq, həmçinin Vaşinqtonda regional nəqliyyat bağlantıları ilə bağlı əldə edilmiş nəticələrin əhəmiyyətinə toxundu.

Stiven Douti ötən il COP29-un Azərbaycanda yüksək səviyyədə keçirilməsi və qazanılmış uğurlar münasibətilə təbriklərini çatdırdı.

Dövlətimizin başçısı təbriklərə görə təşəkkürünü bildirdi. Prezident İlham Əliyev Azərbaycanın sülh gündəliyinin və Ermənistanla normallaşma prosesinin irəli aparılması üçün bundan sonra da səylərini davam etdirəcəyini dedi.

Dövlətimizin başçısı COP29 zamanı Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Baş naziri Kir Starmerin Azərbaycana səfərini və onunla keçirilmiş görüşünü xatırladı.




Söhbət zamanı Azərbaycanla Böyük Britaniya arasında əlaqələrin inkişaf perspektivlərinə dair fikir mübadiləsi aparıldı, siyasi münasibətlərimizin mövcud vəziyyətindən məmnunluq ifadə olundu. İqtisadi, ticari, informasiya-kommunikasiya texnologiyaları, təhsil və digər sahələrdə əməkdaşlıq üçün geniş perspektivlərin olduğu bildirildi. Azərbaycanla Böyük Britaniya arasında enerji sahəsində əlaqələrə toxunularaq, bu xüsusda ölkəmizlə bp arasında 30 ildən artıq davam edən səmərəli əməkdaşlıq qeyd olundu, bunun həm ənənəvi, həm də bərpaolunan enerji sahəsində uğurla həyata keçirildiyi vurğulandı. bp ilə qarşılıqlı faydalı əməkdaşlığın qarşıdan gələn onilliklər ərzində də davam edəcəyinə ümidvarlıq ifadə olundu.

Sonda qonaq dövlətimizin başçısına xatirə hədiyyəsi təqdim etdi.

***AZƏRTAC***

# Dövlət maliyyəsinin səmərəli idarə edilməsinin təşkili ilə bağlı əlavə tədbirlər haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikasında fiskal siyasətin təkmilləşdirilməsini, dövlət maliyyəsi, mühasibat uçotu, dövlət xəzinədarlığı və dövlət maliyyə nəzarəti sahəsində islahatlar aparılmasını, dövlət büdcəsi gəlirlərinin formalaşma mənbələrinin təkmilləşdirilməsini, dövlət büdcəsi xərclərinin optimallaşdırılmasını, habelə rəqəmsal texnologiyalar və innovasiyalar tətbiq edilməklə səmərəli icra və nəzarət mexanizminin yaradılmasını təmin etmək məqsədilə **qərara alıram:**

**1.** Azərbaycan Respublikası Maliyyə Nazirliyinin fəaliyyət istiqamətlərinə aid sahələrin, o cümlədən büdcə, vergi, gömrük, dövlət rüsumu, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslər və dövlət adından yaradılan publik hüquqi şəxslər üzrə dividendlərin və digər büdcə daxilolmalarının, habelə audit, mühasibat uçotu (o cümlədən dövlət maliyyə və qeyri-maliyyə aktivlərinin uçotu), dövlət maliyyə nəzarəti, dövlət xəzinədarlığı, dövlət borcu sahələrinin və maliyyə öhdəliklərinin səmərəli idarə edilməsi məqsədilə "Rəqəmsal dövlət maliyyəsi" informasiya sistemi yaradılsın.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. Azərbaycan Respublikası Maliyyə Nazirliyinin təklifləri əsasında dövlət orqanlarının (qurumlarının), dövlət büdcəsindən maliyyə vəsaiti alan dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərin, dövlət adından yaradılan publik hüquqi şəxslərin və digər təşkilatların maliyyə sənədlərinin elektron qaydada mübadiləsinin təmin edilməsi üçün üç ay müddətində zəruri tədbirlər görsün;

2.2. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

**3.** Azərbaycan Respublikasının Maliyyə Nazirliyi:

3.1. aşağıdakılarla bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin:

3.1.1. bu Fərmanın 1-ci, 3-cü, 4-cü və 6-cı hissələri nəzərə alınmaqla, Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının təkmilləşdirilməsi;

3.1.2. bu Fərmanın 1-ci hissəsi ilə yaradılan "Rəqəmsal dövlət maliyyəsi" informasiya sisteminin əsasnaməsinin layihəsi;

3.1.3. dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərin və publik hüquqi şəxslərin illik və ortamüddətli dövr üzrə büdcə layihələrinin və proqnozlarının, habelə gəlir və xərc smetalarının icra vəziyyətinin monitorinqi və icra göstəricilərinin təhlili qaydalarının layihəsi;

3.1.4. dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərin və publik hüquqi şəxslərin xalis mənfəətinin bölüşdürülməsi və dividend siyasətinin ümumi parametrləri;

3.1.5. dövlət vəsaitindən istifadə üzrə maliyyə qaydalarının pozulması və bu vəsaitdən təyinatı üzrə istifadə edilməməsi hallarına görə məsuliyyətin təkmilləşdirilməsi;

3.2. 2026-cı ildən etibarən, bu Fərmanın 3.1.3-cü yarımbəndində nəzərdə tutulan qaydalara uyğun olaraq, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərin və dövlət adından yaradılan publik hüquqi şəxslərin illik və ortamüddətli büdcə layihələrinin və proqnozlarının, habelə illik gəlir və xərclər smetalarının icra vəziyyətinin monitorinqini həyata keçirsin və icra göstəricilərini təhlil edərək nəticələri barədə rübdə bir dəfə Azərbaycan Respublikasının Prezidentinə məlumat təqdim etsin;

3.3. dövlət orqanlarına (qurumlarına), dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərə, dövlət adından yaradılan publik hüquqi şəxslərə və dövlət büdcəsindən maliyyə vəsaiti alan digər təşkilatlara dövlət büdcəsindən ayrılan vəsaitin istifadəsinin, büdcə ssudalarının, dövlət sifarişi ilə həyata keçirilən layihələrin, subsidiya və subvensiyaların dövlət xəzinədarlığı vasitəsilə ünvanlı icra edilməsi və onların bütün bank hesablarına Azərbaycan Respublikasının Maliyyə Nazirliyi yanında Dövlət Xəzinədarlıq Agentliyi tərəfindən müşahidə mexanizminin yaradılması üçün tədbirlər görsün;

3.4. dövlət vəsaiti hesabına həyata keçirilən dövlət investisiya layihələrinin və digər infrastruktur layihələrinin maliyyə ekspertizasının aparılmasını təmin etsin;

3.5. dövlət vəsaiti hesabına mal, iş və xidmətlərin satın alınmasının elektron müqavilələr əsasında həyata keçirilməsini təmin etsin və bu müqavilələrin elektron qaydada bağlanılmasını təşkil etsin;

3.6. büdcədənkənar dövlət fondlarının, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərin və dövlət adından yaradılan publik hüquqi şəxslərin vəsaitlərinin təyinatı üzrə, məqsədli və səmərəli xərclənməsi üzərində dövlət maliyyə nəzarətini həyata keçirsin;

3.7. dövlət orqanlarının (qurumlarının), dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərin, dövlət adından yaradılan publik hüquqi şəxslərin və dövlət büdcəsindən maliyyə vəsaiti alan digər təşkilatların strukturu, ştat vahidləri və əməkhaqqı sistemlərinin maliyyə ekspertizasını həyata keçirsin və onların optimallaşdırılması üzrə tədbirlər görsün;

3.8. ümumi dövlət xidmətləri, təhsil, səhiyyə, mədəniyyət, idman, nəqliyyat, rabitə, mənzil-kommunal təsərrüfatı, ətraf mühitin mühafizəsi və digər sahələr üzrə dövlət vəsaiti hesabına maliyyələşdirilən xərclərə dair normativlərin təkmilləşdirilməsi ilə bağlı aidiyyəti dövlət orqanlarının (qurumlarının) iştirakı ilə tədbirlər görsün.

**4.** Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi və Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti, bu Fərmanın 1-ci hissəsi nəzərə alınmaqla, "Dövlət informasiya ehtiyatları və sistemlərinin formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi Qaydaları"nın təsdiq edilməsi və elektron hökumətlə bağlı bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 12 sentyabr tarixli 263 nömrəli Fərmanının tələblərindən irəli gələn tədbirlərin həyata keçirilməsini təmin etsinlər.

**5.** Azərbaycan Respublikasının Mərkəzi Bankına tövsiyə edilsin ki, "Banklar haqqında" Azərbaycan Respublikası Qanununun tələbləri nəzərə alınmaqla, bu Fərmanın 3.3-cü bəndindən irəli gələn məsələlərin həlli üçün zəruri tədbirlər görsün.

**6.** Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 9 fevral tarixli 48 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 2, maddə 61 (Cild I); 2024, № 3, maddə 257, № 5 (I kitab), maddə 529; 2025, № 2, maddə 119) ilə təsdiq edilmiş Əlavə II – "Azərbaycan Respublikasının Maliyyə Nazirliyi haqqında Əsasnamə"nin 7.1-ci yarımbəndinə "vergi" sözündən sonra ", gömrük, dövlət rüsumu, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərin və dövlət adından yaradılan publik hüquqi şəxslərin dividendləri və digər büdcə daxilolmaları" sözləri əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 25 avqust 2025-ci il**

# Ukraynanın Prezidenti Zati-aliləri cənab Volodimir Zelenskiyə

**Hörmətli cənab Prezident!**

24 Avqust Müstəqillik Günü münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi və ən xoş arzularımı yetirirəm.

Azərbaycan-Ukrayna dövlətlərarası əlaqələri xalqlarımızın bir-birinə bəslədiyi dərin rəğbətdən, onlar arasında tarixən təşəkkül tapmış dostluq və qarşılıqlı hörmət ənənələrindən qaynaqlanır.

Hazırda bu möhkəm təməllər üzərində qurulmuş münasibətlər inkişaf edir və yeni məzmunla zənginləşir. Siyasi dialoqumuz, iqtisadiyyat, nəqliyyat, energetika və humanitar sahələrdə əməkdaşlığımız ikitərəfli əlaqələrimizi səciyyələndirən başlıca amillərdəndir.

Ərazi bütövlüyü və suverenlik məsələlərində ölkələrimizin beynəlxalq hüququn norma və prinsiplərinə uyğun olaraq qarşılıqlı dəstək və həmrəylik nümayiş etdirməsi təqdirəlayiqdir. Azərbaycan dost Ukrayna xalqına bundan sonra da lazımi humanitar dəstək və yardım göstərməyə davam edəcəkdir.

Əminəm ki, Azərbaycan-Ukrayna dostluq əlaqələrinin və qarşılıqlı fəaliyyətinin xalqlarımızın iradəsinə uyğun olaraq daha da möhkəmləndirilməsi və dərinləşdirilməsi yolunda birgə səylərimizi bundan sonra da ardıcıl şəkildə davam etdirəcəyik.

Bu bayram günündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə uğurlar, dost Ukrayna xalqına sülh və əmin-amanlıq diləyirəm.

**Hörmətlə,**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 21 avqust 2025-ci il**

# Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevaya

**Hörmətli Mehriban Arif qızı!**

Doğum gününüz münasibətilə təbriklərimi qəbul edin.

Sizə - təcrübəli ictimai-siyasi və dövlət xadiminə məsuliyyətli vəzifənizdə davamlı səmərəli fəaliyyət, Azərbaycan Respublikasının hərtərəfli inkişafı üzrə çoxtərəfli vəzifələrin həllində uğurlar arzulayıram. Qoy, doğma ölkəniz naminə quruculuq işləri və bütün məqsədlər üzrə qazanılan nailiyyətlər Sizə haqlı olaraq məmnunluq bəxş etsin, Azərbaycan xalqının dəstəyi Sizi yeni faydalı ideyaların, perspektiv layihələrin həyata keçirilməsinə ruhlandırsın və güc versin.

Möhkəm cansağlığı və xoşbəxtlik arzuları ilə Sizə və yaxınlarınıza ən xoş diləklərimi çatdırıram.

***Rüstəm MİNNİXANOV,***
***Rusiya Federasiyasının***
***Tatarıstan Respublikasının Rəisi***
***"Rusiya-İslam dünyası" Strateji***
***Baxış Qrupunun sədri***

# Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevaya

**Hörmətli Mehriban Arif qızı!**

Sizə olan ən yüksək ehtiramımı və doğum gününüz münasibətilə səmimi təbriklərimi qəbul edin.

Sizə möhkəm cansağlığı, tükənməz enerji, çoxtərəfli fəaliyyətinizdə uğurlar və yeni-yeni nailiyyətlər arzulayıram.

Azərbaycan Respublikası ilə Həştərxan vilayəti arasında əməkdaşlığın inkişafına göstərdiyiniz daimi diqqətə görə Sizə dərin minnətdarlığımı bildirirəm.

İnanıram ki, Həştərxan vilayəti ilə Azərbaycan Respublikasını birləşdirən işgüzar tərəfdaşlıq, dostluq və qarşılıqlı hörmət bundan sonra da hərtərəfli şəkildə möhkəmlənəcəkdir.

**Hörmətlə,**

***İqor BABUŞKİN,***
***Rusiya Federasiyasının Həştərxan***
***vilayətinin qubernatoru***

# Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevaya

**Hörmətli Mehriban Arif qızı!**

Böyük sevinc hissi ilə Sizi doğum gününüz münasibətilə təbrik edir və ən səmimi arzularımı çatdırıram.

Parlaq, çoxtərəfli ictimai və dövlət xadimi, sevimli həyat yoldaşı və ana kimi Sizə həmişə heyranam.

Siz təmiz və fədakar ürəyiniz, xeyirxah əməlləriniz ilə haqlı olaraq bütün Azərbaycan xalqının məhəbbətini, Özbəkistanda və dünyanın digər ölkələrində böyük hörmət qazanmısınız.

Bu gözəl gündə Sizə səmimi-qəlbdən möhkəm cansağlığı, ailə səadəti, mənəvi harmoniya, bütün yaxşı təşəbbüslərinizi həyata keçirmək naminə tükənməz güc və enerji arzulayıram.

Qoy, həyatınız həmişə sevinc, yaxınlarınızın qayğısı və dəstəyi ilə dolsun!

**Hörmət və ehtiramla,**

***Saida MİRZİYOYEVA,***
***Özbəkistan Respublikası Prezidenti***
***Administrasiyasının rəhbəri***

# Azərbaycan Respublikasının Birinci vitse-prezidenti xanım Mehriban Əliyevaya

**Zati-aliləri!**

Doğum gününüz münasibətilə Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin üzvləri adından səmimi təbriklərimizi və ən xoş arzularımızı qəbul etməyinizi xahiş edirik.

Sizin Azərbaycanın mədəni, humanitar və sosial inkişafına qəti sadiqliyiniz uzun müddətdir ki, təkcə xalqınızı deyil, həm də beynəlxalq ictimaiyyəti ruhlandırıb. Mədəniyyətlərarası dialoqun, təhsilin inkişafını, mədəni irsin qorunub saxlanılmasını təbliğ etməklə Siz qlobal tərəqqinin mərkəzində dayanan mərhəmət, ləyaqət və birlik dəyərlərini yüksəltməyə davam edirsiniz.

Nizami Gəncəvi Beynəlxalq Mərkəzi Zati-alinizin və cənab Prezident İlham Əliyevin sivilizasiyalararası qarşılıqlı anlaşmanın təşviqində davamlı dəstəyinizi və uzaqgörənliyinizi dərindən qiymətləndirir. Müdrikliyin və humanizmin əbədi simvolu olan Nizami Gəncəvinin irsinə sadiqliyiniz sülhün, dialoqun və sərhədlər boyu əməkdaşlığın möhkəmləndirilməsi istiqamətində birgə səylərimizin təməl daşı olaraq qalır.

Sizin üçün bu əlamətdar gündə misilsiz töhfələrinizə görə Zati-alinizə dərin minnətdarlığımızı bildirir və möhkəm cansağlığı, xoşbəxtlik, bütün işlərinizdə uğurlar arzulayırıq.

**Ən yüksək ehtiramımızla,**

**Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin üzvləri:**

***Vayra Vike-FREYBERQA,***
***Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri,***
***1999-2007-ci illərdə Latviya Respublikasının Prezidenti,***

***İsmail SERAGELDİN,***
***Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri,***
***1992-2000-ci illərdə Dünya Bankının vitse-prezidenti,***

***Mariya Fernanda ESPİNOZA,***
***BMT Baş Assambleyasının 73-cü sessiyasının sədri, 2017-2018-ci illərdə Ekvadorun xarici işlər naziri,***

***Tarya HALONEN,***
***2000-2012-ci illərdə Finlandiyanın Prezidenti,***

***Boris TADİÇ,***
***2004-2012-ci illərdə Serbiyanın Prezidenti,***

***Rosen PLEVNELİYEV,***
***2012-2017-ci illərdə Bolqarıstanın Prezidenti,***

***İv LETERME,***
***2008, 2009-2011-ci illərdə Belçika Krallığının Baş naziri,***

***Əmr MUSA,***
***2001-2011-ci illərdə Ərəb Dövlətləri Liqasının Baş katibi,***

***Zlatko LAQUMCİYA,***
***2001-2002-ci illərdə Bosniya və Herseqovinanın Baş naziri,***

***Petar STOYANOV,***
***1997-2002-ci illərdə Bolqarıstanın Prezidenti,***

***Tzipi LİVNİ,***
***2006-2009-cu illərdə İsrailin xarici işlər naziri,***

***Jan BADERŞNEYDER,***
***"Fortescue Ltd" şirkətinin Direktorlar Şurasının üzvü, "ExxonMobil" şirkətinin sabiq vitse-prezidenti,***

***Filip VUYANOVİÇ,***
***2003-2018-ci illərdə Monteneqronun Prezidenti,***

***İvo YOSİPOVİÇ,***
***2010-2015-ci illərdə Xorvatiyanın Prezidenti,***

***Eka TKEŞELAŞVİLİ,***
***2010-2012-ci illərdə Gürcüstanın Baş nazirinin müavini,***

***David PAN,***
***Çinin Tsinxua Universiteti Şvarzman kollecinin baş dekanı,***

***Suzan ELLİOT,***
***Amerika Xarici Siyasət üzrə Milli Komitəsinin prezidenti və baş icraçı direktoru***

# Azərbaycan Respublikasının Birinci vitse-prezidenti xanım Mehriban Əliyevaya

**Möhtərəm və əziz Mehriban xanım!**

Qadın gözəlliyinin və siyasi yetkinliyin zirvəsində qeyd etdiyiniz doğum günü münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Azərbaycanın tərəqqisinə, beynəlxalq mövqelərinin və suverenliyinin möhkəmlənməsinə yönəlmiş yorulmaz fəaliyyətiniz ölkənizdə və onun hüdudlarından kənarda Sizə dərin hörmət qazandırıb.

Siz Azərbaycanın indiki əmin-amanlığı və ərazi bütövlüyünün bərpası üçün inanılmaz dərəcədə çoxlu iş görmüsünüz. Görkəmli siyasi xadim kimi Siz, eyni zamanda, yaxınlarınızın isindiyi ailə ocağının qayğıkeş qoruyucusunuz və bu, ən yüksək qiymətə layiqdir.

Fürsətdən istifadə edərək bu əlamətdar hadisə münasibətilə Azərbaycan Respublikasının Prezidenti İlham Heydər oğlu Əliyevə və ailənizin bütün üzvlərinə salamlarımı çatdırmağı Sizdən xahiş edirəm.

Sizə uzun və xoşbəxt illər arzulayıram.

***Mixail ŞVIDKOY,***
***Rusiya Federasiyası Prezidentinin Beynəlxalq mədəni əməkdaşlıq üzrə xüsusi nümayəndəsi***

# Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 13 fevral tarixli 593 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə

## *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində, "Azərbaycan Respublikasında səfərbərlik hazırlığı və səfərbərlik haqqında" və "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 14 fevral tarixli 138-VIIQD nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 13 fevral tarixli 593 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 2, maddə 82 (Cild I); 2024, № 4, maddələr 375, 397, № 5 (I kitab), maddə 529, № 12 (II kitab), maddələr 1366, 1383; 2025, № 1, maddə 35, № 4 (I kitab), maddələr 325, 338, № 6, maddə 549) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti haqqında Əsasnamə"də aşağıdakı dəyişikliklər edilsin:

1. 1.1-ci bənddən "ali təhsil müəssisələri tələbələrinin zabitlər hazırlanan xüsusi proqram üzrə hərbi hazırlığı," sözləri çıxarılsın.

2. 2.0.5-ci yarımbəndə birinci halda "hərbi" sözündən əvvəl "ilkin" sözü, "keçirir" sözündən sonra "və "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 4.4-cü maddəsində nəzərdə tutulmuş hərbi vəzifəlilər istisna olmaqla digər hərbi vəzifəlilərin hərbi qeydiyyatını aparır" sözləri əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 25 avqust 2025-ci il**

# Ceyhun Bayramov Birləşmiş Krallığın dövlət naziri ilə görüşüb



**Avqustun 25-də Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Birləşmiş Krallığın Avropa, Şimali Amerika və dənizaşırı ərazilər üzrə dövlət naziri Stiven Dauti ilə görüşüb.**

Görüş zamanı Azərbaycan və Birləşmiş Krallıq arasında siyasi, iqtisadi, enerji təhlükəsizliyi, bağlantılar, iqlim dəyişmələri və ətraf mühit, humanitar, təhsil sahələri üzrə əməkdaşlıq, habelə qarşılıqlı maraq doğuran regional və beynəlxalq təhlükəsizlik məsələləri müzakirə olunub.

Ölkəmizin enerji təhlükəsizliyi sahəsində təşəbbüskarı və əsas icraçısı olduğu nəhəng layihələrlə bu istiqamətdə etibarlı tərəfdaş olduğunu sübuta yetirdiyi qeyd edilib, ənənəvi enerji növləri üzrə əməkdaşlığın bu müsbət dinamikasının alternativ enerji mənbələrinin inkişafı istiqamətində davam etdirilməsinin vacibliyi diqqətə çatdırılıb. Bu istiqamətdə, SOCAR və BP şirkətləri arasında bərpaolunan enerji üzrə əməkdaşlığın qurulmasının təqdirəlayiq olduğu vurğulanıb.

Azərbaycanın BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) sədrliyi çərçivəsində Birləşmiş Krallığın sessiyada Baş nazir və heyəti tərəfindən fəal iştirakı və töhfələri məmnunluqla qeyd edilib.

Təhsil sahəsi üzrə əməkdaşlıq çərçivəsində həyata keçirilən birgə təşəbbüslər, ali təhsil müəssisələri arasında yeni tərəfdaşlıqların qurulması, habelə dövlət proqramlarının əhəmiyyəti və bu sahədə işlərin davam etdirilməsinin vacibliyi diqqətə çatdırılıb.

Avqustun 8-də keçirilmiş tarixi Vaşinqton görüşü çərçivəsində "Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasında sülhün və dövlətlərarası münasibətlərin təsis olunması haqqında Saziş"in mətninin paraflanması, habelə ATƏT-in Minsk Prosesi və əlaqəli strukturların bağlanması ilə əlaqədar birgə müraciətin ünvanlanmasının sülh prosesi çərçivəsində əldə olunmuş əhəmiyyətli nailiyyətlərdən biri olduğu vurğulanıb.

***

Həmin gün Azərbaycanın və Birləşmiş Krallığın xarici işlər nazirlikləri arasında siyasi məsləhətləşmələr təşkil olunub. Siyasi məsləhətləşmələrə Azərbaycan tərəfindən nazir müavini Fariz Rzayev, Birləşmiş Krallıq tərəfindən isə Avropa, Şimali Amerika və dənizaşırı ərazilər üzrə dövlət naziri Stiven Dauti rəhbərlik edib.

# 2025-ci ildə Bakı şəhərində keçiriləcək Formula 1 yarışı ilə əlaqədar Azərbaycan Respublikasına gələn əcnəbilər və vətəndaşlığı olmayan şəxslər üçün viza prosedurlarının sadələşdirilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1** Müəyyən edilsin ki, 2025-ci ildə Bakı şəhərində keçiriləcək Formula 1 yarışı ilə əlaqədar Azərbaycan Respublikasına gələn və bu Sərəncamın 2-ci hissəsində qeyd edilən sənədlərdən hər hansı birini təqdim edən əcnəbilər və vətəndaşlığı olmayan şəxslər 2025-ci il avqustun 25-dən sentyabrın 30-dək Azərbaycan Respublikasının beynəlxalq hava limanlarında viza ala bilərlər.

**2** Aşağıdakı sənədlərdən biri viza verilməsi üçün əsas hesab edilsin:

2.1. Formula 1 yarışlarının beynəlxalq təşkilatçıları olan "Formula One Management Limited" Şirkətinin və Beynəlxalq Avtomobil Federasiyasının müvafiq qaydalarına uyğun olaraq akkreditasiyadan keçməni təsdiq edən akkreditasiya kartı və ya akkreditasiyadan keçməni təsdiq edən digər sənəd;

2.2. Bakı Şəhər Halqası Əməliyyat Şirkətində akkreditasiyadan keçməni təsdiq edən akkreditasiya kartı;

2.3. 2025-ci ildə Bakı şəhərində keçiriləcək Formula 1 yarışına bilet, o cümlədən elektron bilet və ya biletin əldə olunmasını təsdiq edən sənəd.

**3** Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi:

3.1. 2025-ci ildə Bakı şəhərində keçiriləcək Formula 1 yarışı ilə əlaqədar Azərbaycan Respublikasına gələn əcnəbilər və vətəndaşlığı olmayan şəxslər üçün viza prosedurlarının sadələşdirilməsi barədə "Formula One Management Limited" Şirkətinə, Beynəlxalq Avtomobil Federasiyasına və xarici ölkələrin müvafiq orqanlarına məlumat versin;

3.2. 2025-ci ildə Bakı şəhərində keçiriləcək Formula 1 yarışı ilə əlaqədar Azərbaycan Respublikasına gələn əcnəbilər və vətəndaşlığı olmayan şəxslər üçün viza prosedurlarının sadələşdirilməsi, habelə əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin "ASAN Viza" sistemi vasitəsilə elektron viza almaq imkanı barədə məlumatın Nazirliyin, eləcə də Azərbaycan Respublikasının xarici ölkələrdəki səfirliklərinin və konsulluqlarının internet informasiya ehtiyatlarında yerləşdirilməsini təmin etsin.

**4** Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti Azərbaycan Respublikasına uçuşlar həyata keçirən aviasiya şirkətlərinə 2025-ci ildə Bakı şəhərində keçiriləcək Formula 1 yarışı ilə əlaqədar Azərbaycan Respublikasına gələn əcnəbilər və vətəndaşlığı olmayan şəxslər üçün viza prosedurlarının sadələşdirilməsi barədə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 25 avqust 2025-ci il**

# Milli Məclisdə Azərbaycan–Rumıniya parlamentlərarası əməkdaşlığı müzakirə olunub



**Avqustun 25-də Milli Məclisin Rumıniya ilə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun üzvləri ölkəmizdə səfərdə olan Rumıniya Senatının Mədəniyyət və media daimi komitəsinin sədri, Azərbaycanla parlamentlərarası dostluq qrupunun üzvü Kristian-Auqustin Nikulesku-Tsıqırlaşın başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüblər.**

Milli Məclisin Rumıniya ilə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Azay Quliyev ölkəmizə səfəri çərçivəsində Nikulesku-Tsıqırlaşın Azərbaycanın işğaldan azad edilmiş ərazilərdə olmasını, "Heydər Əliyev" zirvəsinə yürüşünü yüksək dəyərləndirib.

Kristian-Auqustin Nikulesku-Tsıqırlaş Azərbaycanın Qarabağ iqtisadi rayonuna səfəri ilə bağlı təəssüratlarını bölüşüb, Prezident İlham Əliyevin rəhbərliyi ilə bölgədə aparılan bərpa və quruculuq işlərini yüksək qiymətləndirib.

Milli Məclisin Rumıniya ilə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun üzvləri Kamal Cəfərov, Aydın Mirzəzadə və Samir Vəliyev, Rumıniyanın Maramureş Vilayət Vəkillər Kollegiyasının rəhbəri Florin Andreykuts çıxış edərək ölkələrimiz arasında münasibətlərin yüksəksəviyyəli siyasi dialoq sayəsində uğurla inkişaf etdiyini bildiriblər.

***XQ***

# Azərbaycan münaqişənin "iki dövlət" prinsipi əsasında həllini dəstəkləyir

**Avqustun 25-də Azərbaycanın xarici işlər nazirinin müavini Yalçın Rəfiyev Səudiyyə Ərəbistanı Krallığının Ciddə şəhərində təşkil edilən İslam Əməkdaşlıq Təşkilatının Xarici İşlər Nazirləri Şurasının fövqəladə sessiyasında çıxış edib.**




Yalçın Rəfiyevin çıxışında Qəzza bölgəsində atəşkəsin əldə olunmasının və humanitar yardımın bölgəyə çatdırılmasına şəraitin yaradılmasının əhəmiyyəti qeyd olunub.

Azərbaycanın münaqişənin "iki dövlət" prinsipi əsasında, beynəlxalq hüququn norma və prinsipləri, BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinə uyğun həllini dəstəklədiyi bir daha qeyd olunub. Azərbaycanın İƏT-in fəal üzvü kimi Fələstin-İsrail münaqişəsinin diplomatik yolla həllinə dəstək göstərməyə hazır olduğu diqqətə çatdırılıb.

**Xuntaçıların məhkəməsi**

# Ermənistanın Şuşaya, Kəlbəcərə, Füzuliyə və Zəngilana hücumlarının qanlı faciələri

**Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, o cümlədən təcavüzkar müharibənin hazırlanması və aparılması, soyqırımı, müharibə qanunlarını və qaydalarını pozma və digər çoxsaylı cinayətlər törətməkdə təqsirləndirilən Ermənistan Respublikasının vətəndaşları Arayik Harutyunyan, Arkadi Qukasyan, Bako Sahakyan, Davit İşxanyan, David Babayan, Levon Mnatsakanyan və digərlərinin barəsində olan cinayət işləri üzrə açıq məhkəmə prosesinin baxış iclası avqustun 25-də davam etdirilib.**



Bakı Hərbi Məhkəməsində hakimlər Zeynal Ağayevin sədrliyi ilə, Camal Ramazanovdan və Anar Rzayevdən ibarət tərkibdə (ehtiyat hakim Günel Səmədova) keçirilən məhkəmə iclasında zərərçəkmiş şəxslərin ifadələri dinlənilib. Sahib Əsgərov bildirib ki, Ermənistan silahlı qüvvələrinin hücumları nəticəsində qohumlarından həyatını itirənlər və yaralananlar olub. Kəlbəcər sakinləri şəhəri tərk edərkən onlara çıxış üçün yol belə verilməyib. Zərərçəkən Kəlbəcərdə "Tunel" faciəsinin şahidi olduğunu da diqqətə çatdırıb. O, ifadəsində, həmçinin düşmən tərəfdən xaricdən gətirilmiş muzdlu döyüşçülərin də olduğunu bildirib.

Sabir Quliyev 1992-ci il mayın əvvəlində Şuşadan məcburi köçkün düşdüyünü, əmisi oğlanları Tahir və Rəfael Quliyevlərin həlak olduqlarını söyləyib. O deyib: "Şuşanın işğalı zamanı qarşı tərəf dinc əhaliyə humanitar dəhliz vermədi. Laçından keçəndə isə Gorus tərəfdən artilleriya atəşinə məruz qaldıq. Orada yaşlı qadın həlak oldu".

Almaz Ağayeva bildirib ki, ailəsi ilə Xankəndidən Şuşaya köçməyə məcbur olub. 1992-ci ildə isə Şuşadan da məcburi köçkün düşüb. Qonşusu Zöhrə Quliyeva orada qətlə yetirilib, atası yaralanıb. Sevda Həsənova deyib ki, 1993-cü ilin avqustunda Füzuli rayonunda

qonşu qızın bədəni qrad mərmisindən parça-parça olmuşdu. Araz Cəbrayılov 2023-cü il sentyabrın 19-da Xankəndi yaxınlığında meşədə yaralandığını bildirib.

Zərərçəkən Nadir Məmmədov 1993-cü il oktyabrın sonlarında Zəngilandan məcburi köçkün düşdüyünü və yaralandığı söyləyib: "Mülki əhaliyə rayondan çıxmaq üçün heç bir humanitar dəhliz verilmədi, sakinlər atəşə tutulurdu".

Nəriman Ələsgərov deyib ki, Zəngilanın işğalı zamanı poçtalyon Bəhmən artilleriya atəşi nəticəsində öz həyatında həlak olub: "Vəli dayının ailəsini qətlə yetirdilər. İsmayıl dayını ruhi xəstə oğlu ilə birlikdə tanka bağlayaraq sürüyüb öldürdülər. Əhaliyə humanitar dəhliz verilməmişdi". Nəriman Ələsgərov Zəngilan işğaldan azad olunandan sonra oraya qayıdarkən kəndlərdə daşın daş üstə qalmadığını, qəbiristanlıqların dağıdıldığını gördüyünü söyləyib.

Zərərçəkənlər təqsirləndirilən şəxslərin, onların müdafiəçilərinin və zərərçəkmiş şəxslərin nümayəndələrinin suallarını da cavablandırıblar.

Sonra məhkəmə iclasında təqsirləndirilən şəxs Arkadi Qukasyanın cinayət işi üzrə verdiyi ifadələr elan olunub.

Məhkəmə prosesi avqustun 28-də davam etdiriləcək.

***XQ***

# Azərbaycan–Rusiya: çoxtərəfli əməkdaşlıq ortaq maraqları cavablandırır

**Bu günlərdə Azərbaycan Baş nazirinin müavini Şahin Mustafayevin rəhbərlik etdiyi nümayəndə heyəti Rusiya Federasiyasının Həştərxan vilayətində səfərdə olub. Hər iki ölkənin müvafiq dövlət strukturlarının rəhbərləri və səlahiyyətli nümayəndələrinin iştirakı ilə Hökumətlərarası Komissiyanın iclası keçirilib. İclasda Azərbaycan–Rusiya iqtisadi əməkdaşlığının müxtəlif istiqamətlərdə mövcud vəziyyəti və inkişaf perspektivləri müzakirə olunub, investisiyalar, sənaye, nəqliyyat-tranzit və digər sahələrdə həyata keçirilən birgə layihələr nəzərdən keçirilib.**



İclasın yekunlarına dair Ş.Mustafayev və Rusiya Baş nazirinin müavini Aleksey Overçuk iki ölkə arasında iqtisadi əməkdaşıq üzrə Hökumətlərarası Komissiyanın 23-cü iclasının Protokolunu imzalayıblar. A.Overçuk bildirib ki, Moskva Bakının ən önəmli ticarət tərəfdaşlarından biridir və Azərbaycanın ümumi xarici ticarət dövriyyəsinin 10 faizi Rusiyanın payına düşür, 2025-ci ildə ticarət dövriyyəsinin yekun həcmi ilə bağlı hələlik qeyri-müəyyənlik qalmaqdadır. Statistik məlumatlara görə, 2025-ci ilin ilk altı ayında 16 faizdən çox artım olub. Bu, ikitərəfli iqtisadi əlaqələrin yüksələn xətlə inkişaf etdiyini göstərsə də, ilin ikinci yarısı üçün məlum səbəblərdən vəziyyət bir qədər fərqlidir. Ümumilikdə, bu iclas Rusiya–Azərbaycan münasibətlərində yeni mərhələnin başlanğıcını qoyduğunu və gələcəkdə qarşılıqlı faydalı əməkdaşlığın genişlənəcəyini deməyə əsas verir.

Onu da qeyd edək ki, iki ölkə arasında iqtisadi əməkdaşlığın prioritet istiqamətlərindən biri regionda nəqliyyat-kommunikasiya əlaqələrinin inkişafıdır. Bu xüsusda "Şimal-Cənub" beynəlxalq nəqliyyat dəhlizi xüsusi əhəmiyyət daşıyır. Bu, iclasın əsas müzakirə mövzularından biri olub. Yada salaq ki, "Şimal-Cənub" dəhlizi Hindistandan başlayan və İran, Azərbaycan, Rusiya ərazisindən keçməklə Avropaya qədər uzanan multimodal nəqliyyat xəttidir. Bu dəhliz yalnız ticari deyil, həm də regionun geostrateji mənzərəsini dəyişdirə biləcək layihədir. Rusiya bu layihənin inkişafına strateji maraq göstərir. Moskva üçün "Şimal-Cənub" marşrutu, Qərb sanksiyaları şəraitində yeni ticarət yollarına çıxış imkanı yaradır və Həştərxan, Mahaçqala və digər cənub limanlarının rolu bu kontekstdə artırılır, dəhlizin Rusiya ərazisindəki hissəsində də infrastruktur təkmilləşdirilir.

***

Protokoldan göründüyü kimi, Azərbaycan və Rusiya arasında iqtisadi əməkdaşlığın mühüm istiqamətlərindən biri də maliyyə arxitekturasının müstəqilləşdirilməsidir. Bu məsələ xüsusilə son illər beynəlxalq siyasi-iqtisadi proseslər fonunda çox aktuallaşıb. Qərbin bir sıra ölkələrə qarşı tətbiq etdiyi sanksiyalar nəticəsində ənənəvi beynəlxalq maliyyə platformalarının siyasi təzyiq vasitəsinə çevrilməsi alternativ mexanizmlərə ehtiyacı artırır.

Milli valyutalarda qarşılıqlı hesablaşmalara keçid Azərbaycanla Rusiya arasında ticarət dövriyyəsinin artmasına səbəb olacaq. Hazırda ticarət münasibətlərində ikitərəfli hesablaşmalarda milli valyutaların payı 79,8 faizə çatıb. Bu amil həm də iki ölkənin ABŞ dollarından kənarlaşaraq öz milli valyutalarında ticarət etməyə meyilli olduqlarını əks etdirir. Amma istisnalar da mövcuddur: xüsusilə karbohidrogenlər və neft məhsullarının tədarükü üzrə bağlanan müqavilələr əsasən dollarla aparılır. Bu, həmin sektorlarda dünya bazarları ilə inteqrasiyanın hələ də güclü olduğunu və dolların üstünlüyünü qoruduğunu göstərir.

Enerji sektoru da ikitərəfli əməkdaşlığın mərkəzində dayanır. Azərbaycan Cənubi Qafqazın enerji ixracatçısı kimi mühüm rol oynayır, Rusiya isə dünya üzrə ən böyük enerji resurslarına malik ölkələrdən biridir. Bərpa olunan enerji texnologiyalarının ötürülməsi və "yaşıl enerji" layihələrində tərəfdaşlıq da gündəmin əsas mövzuları sırasındadır. Bu sahədə təcrübə və texnologiya mübadiləsi, enerji təhlükəsizliyi ilə yanaşı, ekoloji məsuliyyətin bölüşdürülməsi baxımından da əhəmiyyətlidir.

Sənaye əməkdaşlığı isə geniş sektoru əhatə edir və burada xüsusilə gəmiqayırma, kənd təsərrüfatı texnikası və emal sənayesi ön plana çıxır. Xəzər dənizinin strateji mövqeyi nəzərə alınaraq, liman infrastrukturunun və gəmi istehsalı potensialının inkişaf etdirilməsi hər iki ölkə üçün prioritet olaraq qalır. Bakı və Həştərxan limanları arasında əməkdaşlığın gücləndirilməsi, eyni zamanda sənaye məhsullarının lokallaşdırılması, texnoloji avadanlıqların birgə istehsalı və istehsal zəncirlərinin koordinasiyası da gündəmdədir.

Kənd təsərrüfatı sahəsində əməkdaşlıq isə həm iqtisadi, həm də sosial əhəmiyyət kəsb edir. Rusiya Azərbaycanın kənd təsərrüfatı məhsulları, xüsusilə meyvə-tərəvəzin əsas ixrac bazarıdır. Hazırda Azərbaycanın Rusiyaya əsas ixrac məhsulları meyvə-tərəvəz, spirtli içkilər və qida sənayesi məhsullarıdır. Əvəzində isə sənaye avadanlıqları, avtomobil hissələri, tikinti materialları və kimya məhsulları idxal olunur. Həştərxan görüşü çərçivəsində bu ticarət dövriyyəsinin genişləndirilməsi məqsədilə gömrük prosedurlarının sadələşdirilməsi, logistik marşrutların optimallaşdırılması və elektron məlumat mübadiləsi sistemlərinin tətbiqi barədə razılıqlar əldə olunub.

Bütün bunlarla yanaşı, Rusiya və Azərbaycan arasında regionlararası əməkdaşlıq formatları da fəallaşır. 2025-ci ilin əvvəlindən iki ölkə arasında 12-yə yaxın regionlararası biznes forumu keçirilib. Bu tədbirlər biznes dairələri arasında birbaşa əlaqələrin qurulmasına, ticarət, investisiya və logistik sahələrdə yeni layihələrin təşviqinə xidmət edir. Həştərxan vilayəti ilə əməkdaşlığın genişləndirilməsi bu baxımdan çox önəmlidir.

Etiraf etmək lazımdır ki, son aylar iki ölkə arasında müşahidə olunan siyasi gərginlik humanitar və ictimai, o cümlədən idman sahəsində qeyri-müəyyənlik yaradıb. Bu kontekstdə xüsusilə Rusiya idmançılarının Azərbaycanda keçiriləcək beynəlxalq tədbirlərdə iştirakı sual altında idi. Söhbət, ilk növbədə, 2025-ci il sentyabrın 28-də Gəncə və Şuşa şəhərlərində start götürəcək III MDB Oyunlarından gedir. Bu nüfuzlu idman tədbiri Müstəqil Dövlətlər Birliyi çərçivəsində əməkdaşlığın mühüm platforması hesab olunur və siyasi deyil, humanitar məzmun daşıyır.

Məlumata görə, yarışlarda iştirak etmək üçün Rusiya Federasiyasından 262 idmançı rəsmi ərizə ilə müraciət edib. Lakin bölgədə və beynəlxalq səviyyədə yaranmış gərgin siyasi mühit, eləcə də qarşılıqlı münasibətlərdəki gərginlik bu iştirakın reallaşmasını sual altına salmışdı. Potensial risklər yalnız texniki və təşkilati xarakter daşımırdı, həm də siyasi amillərlə bağlı idi. Artıq bu sahədə də problem aradan qaldırılıb.

Beləliklə, çoxşaxəli və inteqrasiya olunmuş əməkdaşlıq modeli, yalnız mövcud iqtisadi əlaqələri dərinləşdirmək deyil, həm də gələcək regional və beynəlxalq çağırışlara çevik cavab vermək üçün dayanıqlı təməl formalaşdırır. Azərbaycan və Rusiya arasındakı ortaq maraqlara cavab verən bu strateji tərəfdaşlıq regionun iqtisadi xəritəsində mühüm rol oynayır.

***

Mövzu ilə bağlı politoloq **Yeganə Hacıyeva** XQ-yə bildirdi ki, Həştərxanda



keçirilən Hökumətlərarası Komissiyanın 23-cü iclası Azərbaycan və Rusiya arasında uzunmüddətli strateji əməkdaşlığın dərinləşməsi baxımından əlamətdardır: "İmzalanan protokol yalnız cari əməkdaşlıq istiqamətlərini təsdiqləməklə kifayətlənmir, həm də yeni çağırışlara uyğun çevik və funksional əməkdaşlıq formatlarının qurulmasına hüquqi və institusional əsas yaradır. Bu sənəd çərçivəsində nəqliyyat, enerji, sənaye, maliyyə və kənd təsərrüfatı kimi əsas sahələrdə planlaşdırılan birgə layihələr, təkcə ikitərəfli münasibətlərin deyil, bütövlükdə regionun iqtisadi inteqrasiyasının möhkəmlənməsinə xidmət edəcək. Eyni zamanda, maliyyə suverenliyi, ərzaq təhlükəsizliyi və innovativ texnologiyaların tətbiqi kimi sahələrdə əməkdaşlığın gücləndirilməsi, tərəflərə üçüncü tərəflərin təsirindən azad, dayanıqlı iqtisadi münasibətlər sistemi qurmağa imkan verir. Gələcək mərhələdə bu əməkdaşlığın daha da konkret nəticələr verməsi və real iqtisadi göstəricilərə çevrilməsi gözlənilir".

Ekspert onu dedi ki, hər iki ölkə üçün qarşılıqlı faydalı və sabit münasibətlərin qorunması həm siyasi iradənin möhkəmliyi, həm də texniki səviyyədə koordinasiyanın səmərəliliyi ilə birbaşa bağlıdır: "Bu baxımdan, Həştərxan iclası yalnız növbəti texniki tədbir deyil, həm də gələcəyə yönəlik ciddi siyasi və iqtisadi mesaj daşıyan platforma rolunu oynayır. Regionun iqtisadi mənzərəsində baş verən dərin transformasiyalar fonunda, Azərbaycan və Rusiya kimi iki strateji qonşu dövlətin əməkdaşlıq modelinin çevikliyi, sabitliyi və real nəticələrə əsaslanması daha da aktuallaşacaq. Bu baxımdan, Azərbaycan–Rusiya münasibətlərində bu layihələr ətrafında gedən əməkdaşlıq uzunmüddətli strateji maraqlara xidmət edir və gələcək dövrlərdə daha geniş regional çərçivəyə yayıla bilər.

Onu da qeyd etməliyəm ki, Rusiya siyasi isteblişmentində iki ölkə arasında münasibətlərin korlanması üçün sistemli fəaliyyət göstərən qruplar mövcuddur. Bu qrupların fəaliyyəti uzun müddətli hesabda məhz Rusiya dövləyinin əleyhinə çevrilmiş fəaliyyətdir. Rusiya hakimiyyətinin qonşulara qarşı belə neqativ tendensiyanın aradan qaldırılması üçün ciddi diqqət göstərməsi vacibdir. İki ölkə arasında keçən ilin sonlarından yaranmış problemlər aradan qaldırmalıdır".

***Pünhan ƏFƏNDİYEV***
***XQ***

---

**Bu şəkil Ermənistanın birinci prezidenti Levon Ter-Petrosyanın "Facebook" səhifəsindən götürülüb və erməni liderin çarəsizliyinin təsviri qismində qiymətləndirilə bilər. Yazımızda belə bir durumda olan şəxsin sosial şəbəkə hesabındakı bir paylaşımdan söz açacağıq. Ancaq, hələlik, başqa məqama diqqət yetirək.**

# Şəkli dəyişdirmək zamanı, yaxud Paşinyana subliminal dəstək

## *Levon Ter-Petrosyan Emmanuel Kantı niyə yada salır?*



1988-ci ilin fevralında Ermənistanda və Qarabağda "Miatsum" (birləşmə) şüarı altında hərəkat başladı. Hərəkatın məqsədi keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin Azərbaycan SSR-dən ayrılıb Ermənistan SSR-ə birləşdirilməsi idi. Həmin vaxt L.Ter-Petrosyan Ermənistan Elmlər Akademiyasının Şərqşünaslıq İnstitutunda çalışan alimlərdən biri, habelə Qarabağ avantürasının əsas ideya mərkəzi sayılan "Qarabağ Komitəsi"nin üzvlərindən idi. Bu komitə kütləvi etirazların təşkilində, Qarabağ məsələsinin SSRİ rəhbərliyinə çıxarılmasında əsas rol oynamışdı.

1989–1990-cı illərdə Qarabağ hərəkatı daha da radikallaşmış, Ermənistanın daxili siyasətinin hərəkətverici qüvvəsinə çevrilmişdi. 1990-cı ildə ölkə müstəqillik yoluna çıxanda Ter-Petrosyan artıq alimliyi bir kənara qoymuş, siyasətdə önəmli fiqura çevrilmiş, 1991-ci ildə isə prezident seçilmişdi. Onun fəaliyyəti dövründə, yəni, 1991–1998-ci illərdə Qarabağ məsələsi Ermənistanın siyasi prioriteti halına gəlmişdi. L.Ter-Petrosyan, həmçinin, Birinci Qarabağ müharibəsində bölgədəki separatçı qüvvələrə hərbi-siyasi də dəstək vermişdi.

Bununla yanaşı, L.Ter-Petrosyan Ermənistanın Qarabağ iddiasının avantüra olduğunu, ölkəyə heç bir fayda verməyəcəyini dərk edən ilk erməni liderlərdən olmuşdu. O, 1997-ci ildə açıq şəkildə demişdi ki, Ermənistan və Qarabağ əhalisi uzunmüddətli müharibəni davam etdirmək iqtidarında deyil, hərbi qələbələr ölkəni tam qələbəyə aparmır, əksinə, beynəlxalq iqtisadi fəlakətə sürükləyir. Habelə, Qarabağ problemində kompromisin vacibliyindən söz açan L.Ter-Petrosyan ATƏT-in Minsk qrupu çərçivəsində irəli sürülmüş "paket" və xüsusilə də "mərhələli həll" planını dəstəkləmişdi. Həmin plana görə, Ermənistan işğal olunmuş Azərbaycan rayonlarını qaytarmalı, əvəzində Qarabağın statusu barədə gələcəkdə danışıqlar aparılmalı idi. "Bu gün əldə edə biləcəyimizi sabah bizə verməyəcəklər" deyən birinci prezidentin yanaşması Ermənistanın siyasi elitasında kapitulyasiya kimi qəbul olunmuşdu.

Bundan başqa, L.Ter-Petrosyan aktiv şəkildə "Qarabağ Ermənistanı məhv edə bilər" kimi düşüncələri yayır və xəbərdarlıq edirdi ki, maksimalist mövqe ölkəni regional və beynəlxalq siyasətdə dalana dirəyəcək. Birinci prezidentin əsas arqumenti bu idi ki, Ermənistan kiçik ölkədir, iqtisadiyyatı zəifdir, resursları məhduddur, buna görə güzəştdən qaçmaq dövlətin gələcəyini təhlükəyə atır.

L.Ter-Petrosyan 1997-ci ilin sonunda "Müharibə, yaxud sülh? Ciddi müzakirələrə dair" sərlövhəli məqaləsində daha qətiyyətli şəkildə bildirmişdi ki, Qarabağ probleminin yalnız bir həlli yolu var – kompromis. "Kompromisdən başqa alternativ yoxdur və onu qəbul etməyənlər sadəcə xalqa yalan danışırlar. Kim ki, Ermənistan və Qarabağın güc və resursları hesabına məsələnin birtərəfli şəkildə həllinə inanır, ya sadəlövhdür, ya da xalqa xəyanət edir", - deyən birinci prezident Azərbaycanla savaşın davamının fəlakətə apardığını vurğulamışdı: "Heç kəs illərlə bu yükün altında əzilmədən yaşaya bilməz. Qarabağ Ermənistanın yüküdür, üstünlük deyil. Əgər biz işğal etdiyimiz əraziləri geri qaytarmaqdan imtina etsək, Ermənistan beynəlxalq təcridə məhkum olunacaq".

L.Ter-Petrosyan həqiqətləri deyirdi. Onun ölkəsi indi də təcriddən çıxa bilmir və durumun yeganə səbəbi işğalçılıq siyasətidir. O da məlumdur ki, Birinci Qarabağ müharibəsindən sonra Azərbaycanla kompromisə hesablanmış sülh danışıqlarını dəstəklədiyi üçün təzyiqlərlə üzləşmiş, 1998-ci ildə istefa vermək məcburiyyətində qalmış L.Ter-Petrosyan ötən müddətdə Ermənistanda iqtidarı zəbt etmiş "Qarabağ klanı"nın idarəçiliyinə qarşı sərt fikirlər səsləndirmişdi. Hazırkı iqtidarla münasibətdə də birinci prezidentin loyal mövqe tutmadığını görmüşük. Əslində, hər iki tərəf bir-birinə qarşı xoş münasibət bəsləməyib. Amma Ermənistanda geniş yayılmış belə bir fikir var: Baş nazir Nikol Paşinyan L.Ter-Petrosyanın ideya davamçısıdır. Elə isə keçək bilavasitə mətləbə.

***

Əlqərəz, L.Ter-Petrosyan özünün "Facebook" səhifəsində böyük alman filosofu Emmanuel Kantın erməni xalqına verdiyi qiyməti xatırladıb və bildirib ki, bu qiyməti hər bir savadlı erməni bilməlidir. Birinci prezidentin yazdığına görə, Kant "Praqmatik nöqteyi-nəzərdən antropologiya" əsərində erməniləri xüsusi "kommersiya ruhuna" malik xalq olaraq təsvir edib. "O, (yəni Kant - red) qeyd edib ki, ermənilər Çin sərhədlərindən Qvineya sahilindəki Korsoya burnuna piyada gedib, ticarətlə məşğul olublar. Kanta görə, bu onların "xarakterinin üstünlüyünə" və "müdrik və zəhmətkeş xalqın" xüsusi mənşəyinə dəlalət edir. Filosof vurğulamışdır ki, ermənilər demək olar, bütün köhnə dünyanı keçərək, qaldıqları xalqlarda özlərinə münasibətdə lütf və qonaqpərvərlik oyatmaq bacarığı nümayiş etdirmişlər".

Əlbəttə, Ter-Petrosyanın bölüşdüyü fikirlər də ermənilərin bəşəriyyət tarixindəki böyük xalqlardan biri olduğu təsviri üzərindədir. Biz bu kimi təsvirlərin hansı siyasi məqsədlərin, hansı avantürist planların reallaşmasına xidmət etməsindən xəbərdarıq. Amma ümumən, hər bir xalqın özü ilə öyünmək hüququ var. Digər tərəfdən, Kantın, həqiqətən, haylar haqqında hansısa xoş fikir bildirib-bildirmədiyi müəmmalıdır. Çünki ermənilərin zaman-zaman özləri üçün keçmiş uydurduqlarını bilirik və L.Ter-Petrosyanın da fantaziyalarını işə salmadığını söyləmək mümkündür.

Eyni zamanda onu da vurğulayaq ki, birinci prezidentin Kanta istinadən yazdıqlarında pis nə isə yoxdur. Hər halda, döyüşkən, cəsur Tiqranla bağlı hoqqabaz mifdənsə, ticarət sayəsində fərqlənmək daha realdır və ən başlıcası ziyansızdır. Belə qənaətə gələ bilərik ki, L.Ter-Petrosyanın "Facebook" paylaşımında da zərərli heç nə yoxdur. İzah edək niyə?

Hazırda Ermənistandakı revanşist və şovinist kəsim baş nazir Nikol Paşinyanı Azərbaycanla sülh xüsusunda, bir növ, çarmıxa çəkməklə məşğuldur. Bu kəsim hər vəchlə Bakı-İrəvan barış sazişini heçə endirmək, avqustun 8-də Vaşinqtonda ABŞ Prezidenti Donald Trampın şahidliyi ilə imzalanmış Birgə Bəyannamənin müddəalarını əhəmiyyətsiz saymağa çalışır. O da məlumdur ki, sözügedən kəsimin əlində imkanı olsa, Paşinyanı bir qaşıq sudaca boğar.

Hazırda belə təsəvvür də var ki, Ermənistanda reallığı duyan və dərk edən, böyük ölçüdə, yalnız baş nazir və komandasıdır. Bilavasitə L.Ter-Petrosyanın paylaşımının xeyirli tərəfinə gəlincə, birinci prezidentin, müəyyən mənada, subliminal mesaj verdiyini düşünmək olar. Təxminən belə: döyüşməyi, vuruşmağı, qan tökməyi bir kənara qoyub ticarətə girişmək lazımdır. Ermənilərin bu keyfiyyəti barədə dahi Kantın özü də fikir bildirirsə, deməli, avantüraya qapılmaq mənasızdır. Görünür, L.Ter-Petrosyan da Paşinyana dəstəyini məhz bu tərzdə ifadə edir. Axı ikincinin Azərbaycanla sülhün ermənilər üçün iqtisadi mənfəətini qabartdığı aydındır. Yəni, çarə yalnız bundadır. Deməli, yaxşı olar ki, reallığı görən L.Ter-Petrosyan heyflənməsin və tezliklə özünün "Facebook" profilindəki şəkli pozitiv bir foto ilə əvəzləsin.

***Ə.CAHANGİROĞLU***
***XQ***

# Sədaqət rəmzi və bütövlük missiyası



(əvvəli 1-ci səhifədə)

Möhkəm, bütöv və sədaqətli ailə dəyərləri ilə Azərbaycan dövlətçilik ailəsinin şərəfinin daim uca tutulması Mehriban xanım Əliyevanın qoşa qanadlarıdır. Bu qoşa qanad Mehriban xanım Əliyevanın özünəməxsus obrazını üzvi surətdə tamamlayır. Əslində ailə və dövlətçilik prinsiplərini eyni ucalıqda vəhdətdə yaşatmağın nümunəsini göstərmək Mehriban xanım Əliyevanın simasında mənəvi dəyərlərlə dövlətçilik ideallarının sintezindən yaranmış yeni bir dəyərin formalaşdırılmasını şərtləndirir. Müstəqil Azərbaycan dövlətinin yeni nəsilləri üçün bu möhtəşəm örnək həm əsil ailə ucalığına və həm də müstəqil dövlətçilik ideallarına sədaqətlə xidmət etmək örnəyidir. Bu gün Azərbaycanda yeni nəsillərin millilik, dövlətçilik, vətənpərvərlik, xeyirxahlıq ruhunda yetişib formalaşmasında bu məktəbin dərsləri müstəsna dərəcədə böyük rol oynayır. Nəhəng okean sularında bələdçi mayaklar hansı mövqeyə və əhəmiyyətə malikdirsə, 50 milyondan çox azərbaycanlının mənəvi-siyasi okeanının vahid ailədə birləşdirilməsi və istiqamətləndirilməsi baxımından bu parlaq dövlətçilik ailəsini yaradanlar və yaşadanlar həm Azərbaycanın indiki yüksəliş strategiyasına və həm də daha xoşbəxt gələcəyinə güc və qüvvət verir.

Ölkəmizin Birinci xanımı və Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın azərbaycançılıq idealları həyata, ailəyə və cəmiyyətə, müstəqil dövlətçiliyimizə şərəflə və məsuliyyətlə xidmətin parlaq nümunəsidir. Hələ XX əsrin doxsanıncı illərində Mehriban xanım Əliyevanın təşəbbüsü ilə Azərbaycan Mədəniyyətinin Dostları Fondunun təsis edilməsi və fəaliyyətinin səmərəli təşkili, habelə xalqımızın tarixi-mədəni mirasını Azərbaycan, rus və ingilis dillərində beynəlxalq aləmə təqdim edən "Azərbaycan–İrs" jurnalının çap edilməsi azərbaycançılıq amalına sədaqət xidmətinin əməli ifadəsi idi. Bu jurnalda Azərbaycan ziyalılarının və xarici müəlliflərin gözü ilə çoxəsrlik şərəfli tariximiz, tarixi şəxsiyyətlərimiz, milli mədəniyyətimizin tac damarları olan şifahi xalq ədəbiyyatımız, xalçalarımız, musiqi sənətimiz, görkəmli yazıçı və şairlərimiz haqqında verilmiş zəngin informasiyalar, tədqiqat materialları, seçilmiş fotolar və sənədlər Azərbaycanın dünyanın qədim və zəngin bir diyar olduğunu əyani şəkildə bəyan etmişdir.

Ulu öndər Heydər Əliyevin azərbaycançılıq təliminə və amalına dərin sədaqəti Mehriban xanım Əliyeva üçün geniş mənada Azərbaycan dövlətinə və ümumən müstəqil dövlətçiliyimizə sədaqətin nümunəsinə çevrilmişdir.

Mehriban xanım Əliyevanın 2004-cü ildən etibarən Heydər Əliyev Fondunun prezidenti vəzifəsində ölkəmizdə və dünyada Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin müstəqil dövlətçilik ideallarının və azərbaycançılıq ideyalarının həyata keçirilməsini şərəflə və məsuliyyətlə davam etdirməkdədir. Mehriban xanım Əliyevanın təşəbbüsü sayəsində Heydər Əliyev Fondunun xətti ilə həyata keçirilmiş "Yeniləşən Azərbaycana yeni məktəb", "Uşaq evlərinin və internat məktəblərinin inkişafı", Bakı şəhəri ətrafı kənd və qəsəbələrində məktəblərin inşası, "Diabetli uşaqlara ən yüksək qayğı", "Talassemiyasız həyat naminə", "Tibb müəssisələrinin yenidən qurulması və inkişafı" və sair kimi layihələr xalqımızın milli-mənəvi təkamülünə və sağlamlığına böyük dəstəyin ifadəsi olmuşdur. Eyni zamanda, Heydər Əliyev Fondunun dəstəyi ilə bir sıra Avropa və Asiya ölkələrində tarixi-mədəni abidələrin bərpası, yüksək səviyyəli konsertlərin, sərgilərin təşkili, məktəblərin inşa edilərək hədiyyə edilməsi layihələrinin icrası ölkəmizə böyük nüfuz qazandırmışdır. Bundan başqa, Mehriban xanım Əliyevanın təşəbbüsü ilə İçərişəhər, Şirvanşahlar sarayı, Qız Qalası, Qobustan Qayaüstü rəsmləri, Şəki Xan sarayı, "Xınalıq və Köç Yolu mədəni landşaftı", Hirkan meşələri, Kamança simli musiqi aləti, kəlağayımızın UNESCO Beynəlxalq Mədəniyyət Təşkilatının Ümumdünya İrs və Qeyri-Maddi Mədəni İrs siyahılarına daxil edilməsi onun azərbaycançılıq istiqamətində ölkəmizə bəxş etdiyi uğurlardır.

Ulu öndər Heydər Əliyevin yaratdığı Yeni Azərbaycan Partiyasının yeni tarixi mərhələdə daha da inkişaf etdirilməsi sahəsində də Mehriban xanım Əliyevanın böyük xidmətləri vardır. Onun Yeni Azərbaycan Partiyası sədrinin müavini, birinci müavini kimi səmərəli fəaliyyəti Azərbaycanın müstəqillik taleyində müstəsna xidmətləri olan bu partiyanın sıralarının genişləndirilməsinə, siyasi-ideoloji xəttinin möhkənləndirilməsinə, xüsusən qadınların partiya sıralarına qoşulmasının daha da fəallaşmasına mühüm töhfələr vermişdir. Eyni zamanda, Mehriban xanım Əliyevanın Azərbaycan Respublikası Milli Məclisinin deputatı kimi ölkəmizin ictimai-siyasi həyatında fəal iştirakı, bir sıra taleyüklü qanunların qəbul edilməsinə nail olması da azərbaycançılıq amalına xidmət etməyin əyani təzahürləridir. Dövlətçilik sferasındakı zəngin təcrübəsi, xalq arasında qazandığı yüksək ehtiram və etimad Mehriban xanım Əliyevanın Azərbaycan Respublikasının Birinci vitse-prezidenti səviyyəsinə yüksəlməsinə yol açmışdır. Beləliklə, Mehriban xanım Əliyeva ölkəmizdə müstəqil dövlətçiliyin inkişafı yollarında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sadiq silahdaşı kimi inamla addımlayaraq, dövlət və vətən qarşısında mənəvi-siyasi borcunu yerinə yetirməyin nümunələrini göstərməkdə davam edir.

Heç şübhəsiz, aydın siyasi mövqe, yüksək vətəndaşlıq borcunun məsuliyyətlə yerinə yetirilməsi və xeyirxahlıq Azərbaycan Respublikasının Birinci xanımı Mehriban Əliyevanın sədaqətinin qızıl açarıdır. Aydın və möhkəm siyasi mövqe Mehriban xanım Əliyevanın dönməz siyasi əqidəsinin ifadəsidir. Mehriban xanımın əqidə səviyyəsindəki siyasi mövqeyi müstəqil Azərbaycan dövlətçiliyi yollarında atdığı bütün addımlarda uğurla sınaqdan çıxmışdır. Mehriban Əliyeva Azərbaycan cəmiyyətində Azərbaycan xalqının müxtəlif qruplarının taleyüklü sosial-mədəni problemlərinin vaxtında və yüksək səviyyədə həyata keçirilməsi istiqamətində meydana qoyduğu mövqe ilə və atdığı nəticəyönümlü qətiyyətli addımlarla həmin sahədə cəmiyyətdəki mövcud gərginliyin aradan qaldırılmasına və real olaraq insanların həyat şəraitinin yaxşılaşdırılmasına, son nəticədə isə xalqın ümid və inam hisslərinin möhkəmləndirilməsinə xidmət etmişdir. Hələ Azərbaycan Respublikası Milli Məclisinin deputatı olduğu illərdən etibarən Azərbaycan xalqının zorla düçar edildiyi qaçqınlıq və köçkünlük problemlərinin həlli sahəsində atdığı əhəmiyyətli addımlar, qaçqın və köçkün düşərgələrində keçirdiyi çoxsaylı səmimi görüşlər, apardığı müzakirələr, əlaqədar təşkilatların probleminin həllinə cəlb edilməsi, icra prosesinin normal təşkilinə nəzarət edilməsi nəticə etibarilə müstəqil Azərbaycan dövlətinin bu sahədəki zəruri problemlərinin həllinə xidmət etməklə bərabər, ağır şəraitdə güzəran keçirən insanların ölkəmizin sabahına ümidlə baxmalarına və inamla yaşamalarına böyük stimul vermişdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müəyyən etdiyi siyasi kursun Mehriban xanım Əliyeva tərəfindən ardıcıl olaraq və uğurla həyata keçirilməsi sayəsində ölkəmiz beynəlxalq miqyasda qaçqınları olan digər dövlətlərlə müqayisədə qaçqınlıq problemini daxili imkanlar hesabına həll edən nadir ölkələrdən biri olmuşdur. Dünyanın başqa ölkələrində qaçqın düşərgələri siyasi müxalifətin sərt siyasət məkanına çevrilərək sabitliyin pozulmasına, qarşıdurmaların yaradılmasına, sosial gərginliyin süni surətdə artırılmasına nail olmaq üçün istifadə etdiyi əsas rıçaqlardan biri olduğu halda, müstəqil Azərbaycan dövlətində aparılmış düzgün və məqsədyönlü siyasət nəticəsində qaçqınlar ordusu həmişə birmənalı şəkildə dövlətçiliyin tərəfində dayanaraq ölkə rəhbərini ürəkdən müdafiə etmişlər. Çünki Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin möhkəm əsaslarını müəyyən etdiyi etibarlı və dayanıqlı təməllər, Prezident İlham Əliyevin apardığı məqsədyönlü siyasət, göstərdiyi xüsusi qayğı və diqqət və eyni zamanda, Birinci vitse-prezident Mehriban Əliyevanın qaçqınlar sferasındakı çoxcəhətli və yorulmaz fəaliyyəti siyasi cəhətdən və əməli iş baxımından bir-birini üzvi surətdə tamamladığı üçün qaçqınlar problemi dövlətin vahid proqramı səviyyəsində müvəffəqiyyətlə həll edilmişdir. Bu baxımdan Azərbaycanda qaçqınlar nə məkrli beynəlxalq təşkilatların ölkəni qarışdırmaq üçün istifadə etdikləri ələbaxan sosial qruplara, nə də siyasi müxalifətin emosional elektoratına çevrilmişdir. Hazırda Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin 30 illik erməni işğalından azad etdiyi Qarabağa Böyük Qayıdış Proqramı əsasında qaçqınların dədə-baba torpaqlarına qayıtmaları və yerləşdirilməsi prosesində Mehriban xanım Əliyevanın meydana qoyduğu ədalətli mövqe və apardığı iş, ümumiyyətlə, qaçqınlığın bir problem kimi tam aradan qaldırılmasının təmin olunmasına xidmət edir. Son yarım əsrdə dünyanın əksər ölkələrində qaçqın-miqrant axınlarının genişlənməkdə olduğu, beynəlxalq problemə çevrildiyi bir zamanda Azərbaycan Respublikasında qaçqın və köçkünlər probleminin bu cür köklü şəkildə həll edilməsi dünya təcrübəsində analoqu olmayan bir nailiyyətdir. Bu problemin yüksək şəkildə həll edilməsinə Birinci vitse-prezident Mehriban xanım Əliyevanın verdiyi konkret töhfələr isə real bir gerçəkliyin əməli ifadəsidir. Azərbaycan Respublikasının Prezidenti, silahdaşı İlham Əliyevlə birlikdə ad günlərinin uzun illərdən bəri qaçqın şəhərciklərində, son illərdə işğaldan azad olunaraq qaçqın və köçkünlərin məskunlaşdıqları yeni yaşayış məskənlərində keçirmələri bu tarixi addımları xalq ilə dövlət arasındakı qarşılıqlı etimadın danılmaz faktına çevirir.

Dünyanın əksər ölkələrində valideyn hüququndan məhrum edilmiş və ya valideynlərini itirmiş kimsəsiz uşaqlarla əlaqədar problemlər müxtəlif üsullarla həll edilir. Təəssüf ki, bir çox ölkələrdə həmin sosial təbəqə atılmışlar kateqoriyasına daxil edilərək aşağı səviyyəli, minimum diqqət göstərilməsi, onlara ən zəruri olan bəzi məsələlərin həllində kömək edilməsi ilə kifayətlənilir. Bəzən azyaşlı olmalarına baxmayaraq, həmin kateqoriyaya aid uşaqlardan ucuz işçi qüvvəsi kimi istifadə edilir. Ən dəhşətlisi də ondan ibarətdir ki, bəzi inkişaf etmiş ölkələrdə sahibsiz uşaqlarda gen dəyişikliyi edilərək hibrid nəsillər yetişdirilir. Azərbaycanda isə bütün bunların tam əksinə olaraq, kimsəsiz uşaqların sağlam şəkildə, atalı-analı uşaqlarla eyni səviyyədə bütün hüquqlara malik olmaqla və onların milli-mənəvi dəyərlər əsasında böyüyüb inkişaf etdirilməsi məqsədilə vahid dövlət proqramı həyata keçirilir. Bu humanist dövlət proqramının əsas istiqamətlərinin müəyyən olunması, sosial bazasının formalaşdırılması, maddi-texniki ehtiyaclarının həll edilməsi Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın birbaşa himayəsi ilə yerinə yetirilir. Mehriban xanım Əliyevanın uşaq evlərində, internat məktəblərində, çətin tərbiyə olunan uşaqlarla əlaqədar müəssisələrdə həyata keçirdiyi davamlı fəaliyyət proqramları kimsəsiz uşaqlar məsələsinin həll edilməsini cəmiyyətin sosial inkişafının prioritet müddəalarından biri səviyyəsinə çatdırmışdır. Mehriban xanım Əliyevanın demək olar ki, Azərbaycan təqviminin bütün əlamətdar günlərində uşaq təhsil və tərbiyə müəssisələrində mütəmadi və müntəzəm keçirdiyi tədbirlər valideyn hüquqlarından istifadə etmək imkanı olmayan bu uşaqların özlərini kimsəsiz hesab etməmələrinə, dövlətimizin onlara sahib çıxmasına şərait yaradır. Yeni il, Novruz bayramı, 8 Mart Qadınlar Bayramı, Qurban və Ramazan bayramları, Milli Qurtuluş Günü, Zəfər bayramı kimi bütün ölkə miqyasında qeyd olunan əlamətdar günlərin hamısında Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın daim "kimsəsiz" uşaqlarla bir yerdə olması, onlara dövlət səviyyəsində diqqət və qayğı göstərməsi, əsl Azərbaycan qadını və Anası kimi şəfqət bəsləməsi, necə deyərlər, "kimsəsizlərin kimsəsinin" Azərbaycan dövləti olduğunu nümayiş etdirir. Nəticədə Azərbaycan dövləti kimsəsizlərin timsalında xalqımızın layiqli milli düşüncəyə malik vətənpərvər övladlarını qazanır. Uşaq evlərində böyüyüb tərbiyə almış məktəblilərin sonradan ali təhsil alıb yüksək ixtisaslı mütəxəssisə çevrilmələri, məsul vəzifələrdə çalışmaları, Qarabağ müharibəsində iştirak edərək özlərinin Vətən borclarını vətənpərvərliklə yerinə yetirmələri, ailə qurub övlad-uşaq sahibi olmaları Mehriban xanım Əliyevanın apardığı uzaqgörən humanist siyasətin bəhrələridir. Bu, dövlət və ümumxalq işində Heydər Əliyev Fondunun xətti ilə Leyla xanım Əliyeva və Arzu xanım Əliyevanın da fəal iştirak etmələri kimsəsiz uşaqların Azərbaycanda dövlət səviyyəsində bu işin hansı səviyyədə əsaslı yer tutduğunu əyani şəkildə nümayiş etdirir.

Ölkəmizdə qədim və böyük ənənəsi olan muğam sənətinin yenidən dirçəldilməsi işi də birbaşa Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın adı və fəaliyyəti ilə bağlıdır. Zəngin ənənəsi olmasına baxmayaraq, son yarım əsrdən çox müddətdə dünyada estrada, pop-rok, caz kimi musiqi janrlarına marağın son dərəcədə böyük sürətlə artması milli mentalitetimizlə əlaqədar olan muğam sənətini gündəmdə çətin durumla üz-üzə qoymuşdur. Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə ölkə miqyasında genişmiqyaslı muğam müsabiqələrinin həyata keçirilməsinə başlanılması muğam sənətinin xilas edilib xalqımıza qaytarılmasında müstəsna dərəcədə böyük bir dönüşün yaranması ilə nəticələnmişdir. Azərbaycan Respublikasının Birinci vitse-prezidenti səviyyəsində Mehriban xanım Əliyevanın rəhbərliyi ilə böyük uğurla həyata keçirilən muğam siyasəti bu ölməz sənəti yenidən ölkəmizdə milli mədəniyyətin üzvi tərkib hissəsinə çevirmişdir. Bundan başqa, Heydər Əliyev Fondu görkəmli muğam ifaçısı olan böyük sənətkarlarımız haqqında albomlar və onların ifa etdikləri mahnılardan ibarət disklər, kasetlər hazırlatdıraraq geniş şəkildə yayması ilə də muğam sənətinə əsaslı bir qayıdışın başlanılmasını təmin etmişdir. Heydər Əliyev Fondu klassik muğam ifaçısı olan sənətkarlarımız üçün xüsusi mükafatların və təqaüdlərin verilməsini təmin etməklə muğama marağı qüvvətləndirmiş və genişləndirilmişdir. Bundan başqa, həmin zəmində iki ildən bir Azərbaycanda beynəlxalq muğam simpoziumlarının təşkil edilməsi, dünyanın muğamşünas alimlərinin Bakıda bir araya gətirilib geniş elmi diskussiyaların keçirilməsi muğam sənəti ilə əlaqədar bir çox mühüm elmi nəticələrin əldə olunması ilə nəticələnmişdir. İlk dəfə olaraq, Azərbaycan Bəstəkarlar İttifaqı tərəfindən "Azərbaycan Muğam Ensiklopediyası" yüksək elmi səviyyədə hazırlanıb nəşr edilmişdir. Azərbaycan Milli Elmlər Akademiyasının Memarlıq və İncəsənət İnstitutunda Muğamşünaslıq şöbəsi yaradılmış və respublika üzrə muğama həsr olunmuş tədqiqatların bu şöbə vasitəsi ilə koordinasiya edilməsi təmin olunmuşdur. Son illərdə muğam sənətinin tarixinə, inkişaf yoluna, ənənələrinə, görkəmli ifaçılarına həsr edilmiş monoqrafiyaların və məqalələrin çap edilməsi, dissertasiyaların müdafiə olunması, elmi konfransların təşkili muğam sənəti sahəsində aparılan siyasətin konkret elmi bəhrələridir. Geniş mənada Şərq-müsəlman ifaçılıq mədəniyyəti nümunəsi hesab edilən muğam sənətinin ən qədim vətəninin Azərbaycan ölkəsi olmasının elmi şəkildə əsaslandırılaraq sübut olunması və bu tarixi faktın beynəlxalq elmi ictimaiyyət tərəfindən rəğbətlə qarşılanması da Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın ölkəmizə qazandırdığı imic kimi mühüm əhəmiyyətə malikdir. Son illərdə Azərbaycanın müxtəlif regionlarında, o cümlədən Azad Qarabağda memarlıq abidələri səviyyəsində tikilib istifadəyə verilən muğam mərkəzi kompleksləri də bu qədim sənətin geniş yayılmasını, kütləviləşdirilməsini, təbliğini, inkişaf etdirilməsini təmin etməklə bərabər, həm də regionlarımızda yeni nəsil istedadlı gənc muğam ifaçılarının üzə çıxarılmasına da meydan açır.

Azərbaycanda idman sahəsinin köklü islahatları, idmanın kütləviləşdirilməsi, maddi-texniki bazasının yaradılması, dünya olimpiya oyunlarının Azərbaycanda keçirilməsi və sair kimi tədbirlər ölkəmizdə sağlam və vətənpərvər yeni nəsillərin yetişdirilməsi, dövlətimizin beynəlxalq səviyyədə imicinin yüksəldilməsi, nəhayət, bizə etibarlı dostlar və tərəfdaşların qazandırılması baxımından böyük və genişmiqyaslı bir siyasətin həyata keçirilməsi deməkdir. Artıq ölkəmizdə dövlət səviyyəsində qeyd edildiyi kimi Birinci Avropa Olimpiya Oyunlarının və İslam Həmrəyliyi Oyunlarının ən yüksək səviyyədə keçirilməsində Mehriban xanım Əliyeva böyük təşkilatçılıq işi aparmaq istedadını meydana qoymuşdur. Hazırda Üçüncü MDB Oyunlarının keçirilməsi ilə əlaqədar aparılan işlərə də Mehriban xanım Əliyeva böyük səy və bacarıq sərf edir. Məhz Mehriban xanım Əliyevanın yorulmaz fəaliyyəti ilə uğurla həyata keçirilən genişmiqyaslı idman hərəkatı tikilib-qurulan idman kompleksləri ilə ölkəmizin daha da abad və yaraşıqlı olmasına da şərait yaradır.

Ziyalı faktoru, ədəbiyyat və incəsənət, elm və mədəniyyət xadimlərinə dəstək və qayğı da Azərbaycan Respublikasının Birinci vitse-prezidentinin fəaliyyətində xüsusi yer tutur. Heydər Əliyev Fondunun Azərbaycanın görkəmli ziyalılarını təltif etmək üçün "Qızıl çinar" mükafatını təsis etməsi ölkəmizin ictimai-mədəni mühitinin mühüm hadisəsi olmuşdur. Respublikamızın ən tanınmış ədəbiyyat və incəsənət xadimləri: xalq rəssamı Tahir Salahov, xalq rəssamı, akademik Ömər Eldarov, dünya şöhrətli Müslüm Maqomayev, Xalq artisti, akademik Arif Məlikov, Azərbaycan Bəstəkarlar İttifaqının sədri, AMEA-nın müxbir üzvü Firəngiz Əlizadə, Xalq artisti, professor Fərhad Bədəlbəyli və başqaları haqqında yüksək poliqrafik səviyyədə çap olunmuş albom-monoqrafiyalar onların böyük sənətinin sanballı salnaməsi və dərinmənalı sənət pasportudur. Heydər Əliyev Fondunun xətti ilə ölkəmizdə və xaricdə təşkil olunan sərgilər, konsertlər, görüşlər Azərbaycanın milli mədəniyyətinin, elminin və ədəbiyyatının tanıdılması, beynəlxalq aləmə təqdim olunması baxımından xüsusi əhəmiyyətə malik olan hadisələrdir. Bütün bunlar Mehriban Əliyevanın əsl bacarıqlı dövlət xadimi və diplomat, eyni zamanda, əsl elm, mədəniyyət, idman işlərinin yorulmaz təşkilatçısı olduğunu əyani surətdə nümayiş etdirir. Mehriban xanımın Birinci vitse-prezident olaraq və Heydər Əliyev Fondunun prezidenti kimi çoxcəhətli, yorulmaz, məqsədyönlü fəaliyyəti müstəqil Azərbaycan Respublikasının hərtərəfli surətdə inkişaf etdirilməsinə və ölkəmizin adının, imicinin beynəlxalq miqyasda yüksəldilməsinə həsr edilmiş mənalı ömrün şərəfli səhifələridir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin həyata keçirdiyi çoxvektorlu siyasətin, müstəqil dövlətçilik yollarında atdığı hər bir addımın Mehriban Əliyeva tərəfindən vahid amalın ayrılmaz tərkib hissəsi kimi qəbul edilərək müdafiə olunması və davam etdirilməsi dövlətçilik baxımından çox mühüm olan siyasi bütövlüyün və harmoniyanın təmin edilməsi cəhətdən də xüsusi əhəmiyyətə malikdir. Bu çox mühüm faktor müstəqil Azərbaycan dövlətinin monolit birliyinin möhkəm əsaslarından birini təşkil edir. Məhz həmin Birlik, Bütövlük, Sədaqət və Məsuliyyət Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın özünəməxsus obrazını nümayiş etdirməklə bərabər, həm də ölkəmizdə Prezident İlham Əliyevin rəhbərliyi ilə ən müasir inkişafa, yeni-yeni nailiyyətlərin qazanılmasına, daha böyük gələcəyə doğru qətiyyətli addımların atılmasına uğurla xidmət edir.

*İsa HƏBİBBƏYLİ,*
*AMEA-nın prezidenti, akademik*

# Vətənpərvərlik və xeyirxahlığın çağdaş təcəssümü

**“Mən əminəm ki, vəzifədən asılı olmayaraq, insan öz yolunu, peşəsini seçəndə hər hansı bir işinə, əməyinə vicdanla yanaşmalı, qarşısına aydın məqsədlər qoyub, bu məqsədlərə nail olmağa çalışmalı, söz və işlərində bütöv olmalıdır.” Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyeva 2017-ci ilin 21 fevral tarixində Təhlükəsizlik Şurasının iclasında Azərbaycanın Birinci vitse-prezidenti kimi təqdim edilərkən onu da bildirmişdi ki, rəhbərlik etdiyi Heydər Əliyev Fondu öz fəaliyyətini humanizm prinsipləri əsasında qurub. Bu illər ərzində bir çox irimiqyaslı layihələr icra etmişik. Biz Azərbaycanın ictimai və siyasi həyatında fəal iştirak edirik. Biz infrastruktur layihələri icra edirik. Eyni zamanda, ayrı-ayrı insanların problemlərinə heç zaman biganə qalmamışıq. İnsanlarla ünsiyyətdə olmaq, onları dinləmək və eşitmək, köməyə ehtiyacı olana kömək etmək, mənəvi dəstək vermək Heydər Əliyev Fondunun hər bir əməkdaşının birbaşa vəzifəsidir. Bu, dövlət qurumlarında çalışan bütün insanların əsas borcu və vəzifəsidir. Gündəlik fəaliyyətimizdə insansevərlik, mərhəmət, qarşılıqlı hörmət, mehribançılıq unudulmamalıdır. Əksinə, məhz bu mənəvi dəyərləri uca tutaraq ən yüksək qələbələr əldə etmək, ən böyük zirvələrə qalxmaq olar.**

### Peşəkar, bilikli, təcrübəli, prinsipial, xeyirxah…

Dövlətimizin başçısı İlham Əliyevin sərəncamı ilə Mehriban xanım Əliyeva Azərbaycanın Birinci vitse-prezidenti təyin edilərək Onun Heydər Əliyev Fondunun prezidenti kimi gördüyü işlər xüsusi qeyd edildi. Prezident İlham Əliyev Təhlükəsizlik Şurasının iclasında bu əminliyi də ifadə etmişdir ki, Mehriban Əliyeva çox peşəkar, bilikli, təcrübəli, prinsipial, xeyirxah bir insandır. Təsadüfi deyil ki, Azərbaycan xalqı ona böyük rəğbət və sevgi ilə yanaşır. Bu gün Mehribanın həyatında yeni dövr başlayır. Əminəm ki, o, bundan sonra da ölkəmizin inkişafına öz dəyərli töhfəsini verəcəkdir.

Dövlətimizin başçısı İlham Əliyev həmin təqdimatında Mehriban xanım Əliyevanın çoxşaxəli fəaliyyətinə bütün sahələrdə yanaşaraq bu mühüm məqamı da xüsusi vurğuladı ki, Azərbaycanı dünyada tanıtmaq üçün müxtəlif təqdimatlar, sərgilər, tədbirlər keçirilmişdir. Çoxsaylı tədbirlər nəticəsində dünya ictimaiyyəti ölkəmizi daha yaxından tanımağa, öyrənməyə, görməyə başlamışdır ki, Azərbaycan müasir, dinamik inkişaf edən ölkədir. Eyni zamanda, Azərbaycan xalqı öz tarixi köklərinə çox bağlı olan xalqdır.

### Xalqın böyük sevgisinin ünvanı

Ümumilikdə, Mehriban xanım Əliyeva müsahibələrində öz həyat kredosunun formulunu “Kimsənsə, elə də olmalısan... Çünki sən də, dünyada yerin də yeganə və bənzərsizdir” fikirləri ilə bildirmiş və hər kəsin də öz formulunu müəyyən etməyi arzulamışdır. O, sadəliyi, nəcibliyi, müdrikliyi, mərhəməti, xeyirxahlığı, fədakarlığı, işgüzarlığı, gərgin əməyi ilə, eyni zamanda, təəssübkeşliyi, xeyir-duası ilə həyata keçirdiyi layihələrlə qısa zaman kəsiyində Azərbaycan xalqının böyük sevgisini və inamını qazandı. Bunun səbəbi təkcə tutduğu yüksək vəzifə və mövqe ilə bağlı deyil. O, köməyə və qayğıya ehtiyacı olan insanların yanındadır. Vətənpərvərlik, dövlətinə, xalqına bağlılıq, sevgi, müasir Azərbaycanın inkişafında, sosial məsələlərin həllində fəallıq, milli-mənəvi dəyərlərə sadiqlik, sərhəd tanımayan xeyirxahlıq, mərhəmət və şəfqət Azərbaycanın birinci xanımı, Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın həyat fəlsəfəsinin əsas qayəsini təşkil edir. O, ictimai-siyasi həyatda fəal iştirakı, vətənpərvərliyi və xeyirxahlığı ilə milyonların sevimlisinə çevrilib. Azərbaycan humanizminin simvolu kimi dəyərləndirilməsi özündə bütün məqamları ehtiva edir. Vətən müharibəsi zamanı ordumuza verdiyi mənəvi dəstək, milli həmrəyliyə xidmət edən çağırışları daim minnətdarlıq duyğuları ilə xatırlanır.

Xalqımızın sosial rifahına hesablanan bir çox layihələrin müəllifi olan Mehriban Əliyeva birinci xanım adını şərəflə daşıyır, dünyaya müasir Azərbaycan qadınının qürur doğuran obrazını təqdim edir. Azərbaycanda qadın hərəkatının yeni mərhələsindən bəhs edərkən ilk olaraq Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın çoxşaxəli fəaliyyəti göz önünə gəlir. Onun şəxsiyyətində Azərbaycan qadını üçün səciyyəvi olan yüksək humanizm və qayğıkeşlik kimi keyfiyyətlər parlaq təcəssümünü tapıb. Mehriban xanım Əliyevanın müasir dünyamıza bəxş etdiyi ən böyük dəyər - onun Sara Xatun, Tomris, Aləmşahbəyim, Natəvan, Nabat xanım kimi Azərbaycan tarixi və mədəniyyətinin görkəmli xanımlarının müstəsna keyfiyyətlərini özündə birləşdirməsi və yeni, daha mükəmməl şəkildə beynəlxalq miqyasda nümayiş etdirməsidir. Bu, dünyanı zərif çiyinlərində daşımaq qüdrətində olan bir xanımın azərbaycançılıq məfkurəsi uğrunda yorulmaz təbliğatı və dövlətçiliyimizin möhkəmlənməsi yolunda mübarizliyinin bariz nümunəsidir. Onun yerinə yetirdiyi ictimai, siyasi və mədəni missiya tarixi fenomendir.

### Mərhəmət Onun ali həyat kredosudur

O, hər zaman xalqımızın mövqeyindən çıxış edərək Azərbaycan üçün çox böyük işlər görüb və bu işlərin altına öz imzasını atıb. Hər bir dövlətin dünyaya təqdimatında milli-mənəvi dəyərlər əhəmiyyətli rol oynayır ki, bu da harada yaşamasından asılı olmayaraq hər bir Azərbaycan vətəndaşından təbliğat işinə öz töhfəsini verməyə çağırışlar edir. Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun həyata keçirdiyi layihələrin əsas istiqamətlərindən biri məhz mədəniyyətimizin, milli-mənəvi dəyərlərimizin təbliği, inkişaf etdirilməsidir.

Humanizmin başlıca prinsiplərindən olan mərhəmət anlayışı Mehriban xanım Əliyevanın ali həyat kredosudur. O, müsahibələrində bildirir ki, zənnimcə, geniş anlamda, mərhəmət ən yaxşı və ən ülvi insani keyfiyyətlərdən biridir. Həmçinin bu məqamı da xüsusi vurğulayır ki, həqiqi mərhəmət real işlər görülməsini, real məsələlərin həllini, konkret addımlar atılmasını tələb edir. Mehriban xanım Əliyevanın təşəbbüsü ilə bir neçə Amnistiya Aktının qəbul olunması da onun mərhəmət hissindən, humanizmindən irəli gəlir.

### Heydər Əliyev Fondunun genişmiqyaslı fəaliyyəti

Heydər Əliyev Fondu genişmiqyaslı fəaliyyəti ilə məhz Azərbaycanın yüksək dəyərlərinin, humanizm prinsiplərinin beynəlxalq aləmə təqdimatında əvəzsiz rola malikdir. Fondun fəaliyyəti yalnız dahi şəxsiyyətin irsinin təbliği ilə bitmir, Onun dünənimizin, bugünümüzün və gələcəyimizin əsası kimi dəyərləndirilən ideyalarının uğurla həyata keçirilməsi nəticəsində Azərbaycanın qazandığı uğurlara bələdçilik edir, eyni zamanda, bu nəticələrə öz dəstəyini müxtəlif sahələri əhatə edən layihələri ilə ifadə edir. Mehriban xanım Əliyeva müasir müstəqil Azərbaycan dövlətinin qurucusu, ümummilli lider Heydər Əliyevin dövlətimiz, xalqımız qarşısındakı xidmətlərindən bəhs edərkən bildirir ki, Heydər Əliyevin həyatı böyük bir epoxanın aynası kimi ölkəmizin sevincli-kədərli günlərini və anlarını, Azərbaycanın bu tarix yollarını özündə əks etdirir. Məhz ulu öndər Heydər Əliyevin həyatı və fəaliyyəti sübut etdi ki, əlçatmaz xəyalların və arzuların reallaşması insan fenomeninin gücü ilə mümkündür. Heydər Əliyev qalibiyyətinin nəticəsi müasir müstəqil Azərbaycan Respublikası və onun bugünkü nailiyyətləridir.

1993-cü ildən başlanan Heydər Əliyev yolu Azərbaycana davamlı uğurlar qazandırdı. Azərbaycan yenidən quruldu, dövlətçiliyimizin əsasları yaradıldı. Ümummilli lider Heydər Əliyevin müəllifi olduğu neft strategiyası Azərbaycanın bütün sahələrdə uğurlu inkişafını şərtləndirir. Hazırda yaratdığı reallıqları ilə hər birimizi qürurlandıran tarixi Zəfərimizin, suverenliyimizin tam bərpasının əsası Ümummilli liderin düşünülmüş və məqsədyönlü siyasəti nəticəsində yaradılıb. Azərbaycan dayanıqlı iqtisadi inkişafa nail oldu, ordu quruculuğu sahəsində mühüm addımlar atıldı, beynəlxalq birliyin fəal üzvünə çevrildik, vətənpərvər, xalqına, dövlətinə bağlı gənc nəsil yetişdi. Bütün bunlar tarixi Zəfərimizə gedən yolu yaxınlaşdırdı. Bu gün Qarabağımız və Şərqi Zəngəzurumuz azaddır, dirçəlir, soydaşlarımız doğma yurd-yuvalarına qayıdır.

### Reallığa çevrilən arzular

Torpaqlarımızın azad olunması uğrunda mübarizəyə siyasi-mənəvi dəstək, xalqımızı milli həmrəyliyə səsləyən, şanlı Ordumuzu Qələbəyə ruhlandıran müraciət və çağırışlar, müharibədən sonra isə dövlətimizin başçısı ilə birlikdə Qarabağa çoxsaylı səfərlər, Şuşada möhtəşəm “Xarıbülbül” Musiqi Festivalının təşkili birinci xanım Mehriban Əliyevanın xidmətləri sırasında xüsusi yer tutur. 44 günlük İkinci Qarabağ müharibəsinin getdiyi dövrdə səsləndirdiyi “Qoy Uca Tanrı hər bir azərbaycanlıya müqəddəs Qarabağ torpağını öpməyi nəsib etsin!” arzusunun reallığa çevrilməsi hər bir Azərbaycan vətəndaşını, anasını sevindirdi. Tarixi Zəfərimizdən dərhal sonra, 16 noyabr 2020-ci ildə Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev ilə birlikdə Füzuli və Cəbrayıl rayonlarına, o cümlədən Füzuli və Cəbrayıl şəhərlərinə səfər edən Mehriban xanım Əliyevanın həvəskar videoçəkilişləri xalqımız tərəfindən böyük rəğbətlə qarşılandı. Azad Qarabağa və Şərqi Zəngəzura hər səfər zamanı bu çəkilişləri səbirsizliklə gözləyən xalqımız bu təqdimatlar vasitəsilə 30 ildən sonra sahibinə qovuşan torpaqlarımızı görüntülərlə görmək imkanı qazandı. Mehriban xanım Əliyeva Prezident İlham Əliyevin ən yaxın silahdaşı kimi Azərbaycanın bugününə, gələcəyinə xidmət edən bütün addımların iştirakçısı olur, ölkəmizin davamlı inkişafına, beynəlxalq münasibətlər sistemində yeri və rolunun möhkəmlənməsinə, hazırkı mərhələdə tarixi Zəfərimizin reallıqlarının təbliğinə davamlı töhfələr verir, milli-mənəvi dəyərlərimizin, tariximizin qorunmasını daim prioritet məsələ kimi öndə saxlayır.



### Milli-mənəvi dəyərlərin qorunmasına böyük töhfələr

Mehriban Əliyeva təkcə Azərbaycanda deyil, yaxın və uzaq xaricdə də tükənməz məhəbbət qazanıb. O, həmçinin Azərbaycanda təhsilin, mədəniyyətin, səhiyyənin inkişafı, milli maraqların beynəlxalq aləmdə müdafiəsi, o cümlədən sivilizasiyalararası və mədəniyyətlərarası dialoqun təşviqi istiqamətində yorulmadan çalışır. Onun səylərinin nəticəsi olaraq İçərişəhər, o cümlədən Şirvanşahlar Sarayı və Qız qalası, Qobustan qayaüstü rəsmləri, Xan Sarayı ilə birgə Şəkinin tarixi mərkəzi, “Xınalıq və Köç yolu mədəni landşaftı”, eyni zamanda, Hirkan meşələri UNESCO-nun Ümumdünya İrs Siyahısına daxil edilib. Həmçinin muğam və aşıq sənətimiz, “Kamança simli musiqi alətinin hazırlanması və ifaçılıq sənəti”, “Dədə Qorqud irsi”, Azərbaycan kəlağayı sənəti Qeyri-Maddi Mədəni İrs üzrə Reprezentativ Siyahıya salınıb. Azərbaycan 2019-cu ildə UNESCO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyasına uğurla ev sahibliyi etməklə milli-mənəvi dəyərlərin qorunmasına və təbliğinə verdiyi töhfələri ilə diqqətdə oldu.

### Təhsil, səhiyyə sahəsində layihələr davamlıdır

Mehriban xanım Əliyevanın çoxşaxəli fəaliyyətində uşaqlara qayğı, təhsilin, səhiyyənin inkişafına töhfələri də xüsusi yer tutur. “Uşaq evləri və internat məktəblərinin inkişafı”, “Yeniləşən Azərbaycana yeni məktəb”, “Təhsilə dəstək”, “Məktəbəqədər təhsil müəssisələrinin inkişafı” və digər proqramlar təhsilin inkişafında mühüm rol oynayır. “Yeniləşən Azərbaycana yeni məktəb” proqramı çərçivəsində görülən işlər göz qabağındadır. Nəzərə alsaq ki, təhsilin inkişafında məktəblər əsas rol oynayır, bu layihənin əhəmiyyəti özünü daha aydın şəkildə nümayiş etdirir.

Əhalinin sağlamlığı məsələsinə gəldikdə isə Mehriban xanım Əliyevanın rəhbərliyi ilə Heydər Əliyev Fondunun bu istiqamətdə həyata keçirdiyi layihələr davamlıdır. Onun təşəbbüsü ilə reallaşdırılan “Diabetli uşaqlara ən yüksək qayğı”, “Talassemiyasız həyat naminə” kimi layihələr öz müsbət nəticələrini verir. Bu çərçivədə Bakıda müasir Talassemiya Mərkəzi, Daun Sindromlu Şəxslərin Reabilitasiya Mərkəzi, Xüsusi qayğıya ehtiyacı olan uşaqlar üçün reabilitasiya Mərkəzi, Psixonevroloji Uşaq Mərkəzi və digər səhiyyə ocaqları inşa olunub və ya əsaslı şəkildə yenidən qurulub.

Mehriban xanım Əliyevanın təşkilatçılığı ilə keçirilən beynəlxalq əhəmiyyətli tədbirlər dünyaya səs salır. Azərbaycanın böyük uğurla ev sahibliyi etdiyi “Eurovision” beynəlxalq mahnı müsabiqəsi, Formula 1, Birinci Avropa Oyunları, IV İslam Həmrəyliyi Oyunları Mehriban Əliyevanın yüksək təşkilatçılıq bacarığına malik olduğunu təsdiqlədi.

Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti, birinci xanım Mehriban Əliyevanın çoxşaxəli fəaliyyətini, uğurlarını bir yazıda əhatə etmək mümkün deyil. Mehriban xanım Əliyeva dövlətimizin başçısı İlham Əliyev ilə birgə Ümummilli liderin şah əsəri olan müasir müstəqil, qalib, suveren Azərbaycanın yeni-yeni hədəflərə yüksək səviyyədə nail olmasına səy göstərir. Bu birlik bütün sahələrdə özünün aydın ifadəsini tapır. Mehriban xanım Əliyevanın amalı Azərbaycanı beynəlxalq aləmdə zəngin mədəni irsə, mənəvi dəyərlərə malik ölkə kimi tanıtmaqdır.

Mehriban xanım Əliyevanın 2017-ci ilin fevralında Azərbaycanın Birinci vitse-prezidenti təyin edilməsindən bugünədək ölkəmizin keçdiyi inkişaf yoluna nəzər salsaq, Onun hər bir uğurumuzda öz payı olduğunu görərik. Birinci vitse-prezident Mehriban xanım Əliyevanın ilk müşavirəsini hazırda tarixə qovuşan Qarabağ münaqişəsi nəticəsində öz doğma yurd-yuvalarından didərgin düşmüş keçmiş qaçqın və məcburi köçkünlərin problemlərinə həsr etməsi də təsadüfi deyildi. Mehriban Əliyeva daim əhalinin bu həssas təbəqəsinin yanında oldu, onları narahat edən məsələləri birbaşa öz dillərindən dinlədi və həlli istiqamətində mühüm addımlar atdı. Artıq bu addımlar soydaşlarımızın 30 illik dövrdə yerləşdikləri müvəqqəti məkanlarda deyil, sahibinə qovuşmuş torpaqlarımızda atılır. Heydər Əliyev Fondunun maliyyə dəstəyi əsasında bu ərazilərimizdə ermənilər tərəfindən dağıdılmış dini və tarixi abidələrimizin bərpası həyata keçirilir, yeni məscidlər tikilir. Xatırlasaq, istər dövlət başçısı İlham Əliyev, istərsə də Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva qaçqın və məcburi köçkünlərlə görüşündə bu əminliyi ifadə edirdilər ki, məskunlaşdıqları ərazilərdə yaradılan şərait müvəqqəti xarakter daşıyır. Tezliklə münaqişə öz həllini tapacaq, soydaşlarımız doğma yurd-yuvalarına qayıdacaqlar.

Bu gün həmin istəyin, arzunun reallığa çevrildiyinin sevincini yaşayırıq. Artıq Böyük Qayıdışın ünvanlarının sayı günbəgün artır. Dövlət başçısı, Müzəffər Ali Baş Komandan İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın işğaldan azad edilmiş ərazilərimizə hər səfərləri, burada görülən bərpa və quruculuq işləri ilə yaxından tanış olmaları, yeni obyektlərin təməlqoyma mərasimlərində iştirak etmələri və sair kimi biri-birindən mühüm addımlar tarixin yaddaşına həkk olunur. Artıq soydaşlarımızın müvəqqəti məskunlaşdıqları yerlər deyil, doğma yurd-yuvaları əsl cənnət məkana çevrilir.

Heydər Əliyev Fondu Qarabağ ərazisində ermənilər tərəfindən dağıdılan, Azərbaycan xalqının milli sərvəti olan dini abidələrin, məscidlərin bərpası üzrə layihəni uğurla davam etdirir. Yerli və xarici mütəxəssislərin iştirakı ilə bölgədəki ziyarətgahlarımızın bərpası, konservasiyası və yenidən qurulması, 32 ildən sonra Şuşada, Cıdır düzündə fond tərəfindən təşkil olunan “Xarıbülbül” musiqi festivalı, Azərbaycan bəstəkarlıq məktəbinin görkəmli nümayəndələrinin əsərlərinin notlarından ibarət “Əbədi imzalar” toplusunun, “Qarabağın mədəni irsi” adlı nəşrlər toplusunun hazırlanması Azərbaycan xalqının mənəvi, tarixi, mədəni irsinin təşviqi və qorunması işinə dəyərli töhfələrdir.

O da məlumdur ki, Mehriban xanım Əliyevanın çoxşaxəli fəaliyyəti təkcə Azərbaycanla məhdudlaşmır, ölkəmizin hüdudlarını aşaraq yaxın və uzaq xaricdə geniş əks-səda doğurur. Onun təşəbbüsü ilə Heydər Əliyev Fondu Vatikanda, Fransa, Pakistan, Bosniya və Herseqovina, Misir, Hindistan və digər ölkələrdə bir sıra önəmli layihələr icra edib.

### Ümummilli liderin siyasi kursunun davamına dəstək

Əvvəldə də qeyd etdiyimiz kimi, Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın fəaliyyətini bir yazıda əhatə etmək mümkünsüzdür. Xalqımız hər zaman bu inamı və əminliyi ifadə edir ki, Azərbaycan hər bir çətinliyi Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın birgə səyləri nəticəsində dəf edəcək. Mehriban xanım Əliyeva həm Heydər Əliyev irsinin təbliği məqsədilə yaradılan Heydər Əliyev Fondunun prezidenti, həm də dahi şəxsiyyət Heydər Əliyevin yaratdığı Yeni Azərbaycan Partiyası Sədrinin birinci müavini kimi Ümummilli liderin siyasi kursunun uğurlu davamına mühüm addımları ilə dəstək olur. Yeni Azərbaycan Partiyasının 2021-ci ildə tarixi Zəfərimizin reallıqları əsasında keçirilən VII qurultayında yeni qərarlar qəbul olundu, yeni tərkib formalaşdı. Mehriban xanım Əliyevanın YAP Sədrinin birinci müavini vəzifəsinə təyin edilməsi hədəflərə yüksək səviyyədə nail olmağa geniş imkanlar yaradır. Partiyanın Prezident İlham Əliyevin tapşırığı ilə hazırlanan və 2021-ci ilin sonunda təsdiqlənən “Biz birlikdə güclüyük!” devizi altında yeni proqramında hədəflər öz əksini tapıb. Qarabağlı və Şərqi Zəngəzurlu Azərbaycanın daha da qüdrətlənməsinə, inkişafına xidmət edən yeni proqramın uğurlu icrası istiqamətində mühüm addımlar atılır. Bu uğurlarda Mehriban xanım Əliyevanın məxsusi rolu vardır.

### Ən böyük mükafatı xalqın sevgisi, inamı və etimadıdır

Mehriban xanım Əliyevanın fəaliyyəti daim yüksək dəyərləndirilir. Azərbaycanın ən ali dövlət mükafatı olan “Heydər Əliyev” ordeni, eləcə də “Qızıl ürək” beynəlxalq mükafatı, Avropa Olimpiya Komitələrinin Ali ordeni, Fransanın “Şərəf Legionu” ordeni, İtaliyanın “Xidmətlərə görə” Böyük Xaç Kavaleri ordeni, Polşanın “Böyük Komandor Xaçı” ordeni, Rusiyanın “Dostluq” ordeni, UNESCO-nun “Qızıl Motsart” medalı... Bu, Azərbaycanın Birinci vitse-prezidentinin layiq görüldüyü mükafatların heç də tam siyahısı deyil. Mehriban xanım Əliyeva hesab edir ki, ən böyük mükafatı xalqın ona olan sevgisi, inamı və etimadıdır. Onun qeyd etdiyi kimi, illər ötdükcə, qarşımıza yeni ideya və planlar çıxdıqca, məqsədlərimiz xaraktercə dəyişir, amma əsas amalımız - Azərbaycan xalqına xidmət etmək dəyişməz olaraq qalır və qalacaqdır. Bu amal Mehriban xanım Əliyevanın bütün təltiflərinin önündə dayanır. Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın bütün müraciətlərinin sonunda qeyd etdiyi “Sizin MEHRİBAN” ifadəsi özündə ehtiva etdiyi bütün çağırışların təqdimatıdır. Mehriban xanım Əliyeva bundan sonra da işıqlı bioqrafiyasını daha möhtəşəm uğurları ilə zənginləşdirəcək, hər zaman xalqımızın sonsuz qürur və fəxarət ünvanı olacaq.

Parlaq həyat yolu hər kəsə nümunə olan Mehriban xanım Əliyevanı doğum günü münasibətilə təbrik edir, Ona möhkəm cansağlığı arzulayırıq. Əminik ki, Mehriban xanım Əliyeva qalib, yeni dövrə qədəm qoyan Azərbaycanın yeni hədəflərə yüksək səviyyədə nail olmasına bundan sonra da mühüm töhfələr verəcək.

*Vüqar RƏHİMZADƏ,*
*Milli Məclisin deputatı*

# Prezident İlham Əliyevin üçtərəfli əməkdaşlıq platformaları

I MƏQALƏ

### Geosiyasət

İndi "geosiyasət" terminінə çox tez-tez rast gəlinir və adi səslənir. Onun mənasına varanda isə çox maraqlı incəlikləri görmək olur. Yunan mənşəli "ge" – torpaq, yer, coğrafi məkan anlamlarını verir. "Politike" isə "dövləti idarəetmə məharəti" deməkdir. Bu iki anlayışın ortaq semantik mənası "dövləti yer faktorunu (yəni coğrafi məkanı, relyefi, müxtəlif təbii resursları və s.) nəzərə alaraq məharətlə idarə etmək"dən ibarətdir.

Deməli, sadə ifadə etsək, geosiyasət elə siyasi tədqiqatlar istiqamətidir ki, siyasətlə məkan faktorlarını – coğrafi, iqtisadi, mədəni, kommunikativ, demoqrafik, sosial və s. sferaların qarşılıqlı əlaqəsini ölkə maraqları kontekstində tədqiq edir. Belə alınır ki, geosiyasət nəzəri konstruksiya kimi sintetik (yəni müxtəlif fənləri birləşdirən) xarakterli tədqiqat sahəsidir. Bu keyfiyyətdə o, coğrafiyanın, tarixin, politologiyanın, sosiologiyanın, demoqrafiyanın, etnologiyanın, iqtisadiyyatın və digər fənlərin elementlərini özündə ehtiva edir. Geosiyasətdə başlıca elmi məqsəd dövlətin tarixi-coğrafi dinamikasını araşdırmaqdır.

Buradan məntiqi olaraq alınır ki, hər hansı geosiyasi xarakterli anlayış özündə, birincisi, dövlətin dinamikasını nəzərdə tutmalıdır, ikincisi, həmin dinamikanı tarixi-coğrafi aspektdə əks etdirməlidir. O halda uğurlu geosiyasət konkret dövlətin tərəqqi etmək dinamikasına xidmət edən və bu zaman tarixi və coğrafi faktorların vəhdətini ifadə edən kursu həyata keçirmək anlamına gəlir. Hər bir dövlətin özəlliyini nəzərə alanda bu istiqamətdə siyasi fəaliyyətin nə dərəcədə mürəkkəb olduğuna şübhə yeri qalmır. Ümumi halda hər bir ölkənin lideri və dövlətin başçısı çoxlu sayda müxtəlif xarakterli faktorları vahid məntiqi sahədə uyğunlaşdıraraq, yekunda dövlətin davamlı və uğurlu transformasiyalarını təmin edən xətti müəyyən etməlidir.

Bu məqsədə çatmaq üçün liderin (həm də dövlət başçısının) yüksək nəzəri-siyasi hazırlığı ilə praktiki sahədə praqmatik diplomatik məharəti bir-birini tamamlamalı, ahəngdarlıq təşkil etməlidirlər.

### Problemin qoyuluşu

Biz "geosiyasətdə "Əliyev üçbucağı" ifadəsini bütün bunları nəzərə alaraq daxil edirik. Bu ifadənin məna yükü də məsələnin bu cür qoyuluşundan qaynaqlanır. "Əliyev üçbucağı" ciddi nəzəri məna yükü olan və praktiki-tətbiqi müstəvidə dəqiq məzmuna və məqsədə malik müasir geosiyasi anlayış kimi qəbul edilməlidir.

Bu anlayışın artıq geosiyasi nəzəriyyəyə daxil edilməsi zamanının çatması ilə bağlı səbəblər vardır. Həmin səbəblər hər şeydən öncə, Azərbaycan Prezidenti İlham Əliyevin 2003-cü ildən başlayaraq davamlı surətdə dövlətlərarası əməkdaşlıq platformaları təşəbbüslərini irəli sürməsi və eyni zamanda, onların hamısının uğurla reallaşması prosesində ehtiva olunur. Yəni biz məsələni liderin həm nəzəri olaraq müəyyən etdiyi kriteriyalara, həm də təşəbbüsün praktiki reallaşması sayəsində alınan nəticələrə görə elmi-tədqiqi gündəmə gətiririk.

Bununla yanaşı, AMEA rəhbərliyi dövlət başçısının müəyyən etdiyi strateji inkişaf kursunun mahiyyəti, məzmunu və strateji hədəflərinin azərbaycançılıq fonunda daha ətraflı və dərindən dərk edilməsini özünü yeniləşdirmə kursunun mərkəzi məqamı olaraq müəyyənləşdirmişdir. Bu da hər bir sosio-humanitar sferada tədqiqat aparan Azərbaycan aliminin üzərinə ciddi məsuliyyət qoyur. Biz bu məsuliyyəti dərk etməli və elmi fəaliyyətdə vurğulanan məqamı əsaslı surətdə nəzərə almalıyıq.

Qeyd edilən tədqiqatçı məsuliyyəti kontekstində Prezident İlham Əliyevin dövlət başçısı və lider kimi fəaliyyətinin yeni tarixi mərhələdə xüsusiyyətlərinin fəlsəfi, elmi, siyasi-nəzəri və geosiyasi araşdırmalarını dərinləşdirməli və bütöv sistemli tədqiqat halına gətirməliyik. Bunun üçün tam əsas vardır, çünki İlham Əliyev həqiqi mənada nəinki Azərbaycan və Cənubi Qafqaz miqyasında, həm də dünya səviyyəsində böyük nəzəri, siyasi, geosiyasi və praktiki-tətbiqi töhfələri olan fəaliyyət göstərir. Azərbaycan Prezidentinin irəli sürdüyü təşəbbüslərdə ideya zənginliyi mövcuddur. Artıq bu ideyaların hər kəsin bəhrələnməsi bir zərurət halına gəlmişdir!

–Nəhayət, bir məqamı vurğulamaq gərəkdir. "Əliyev üçbucağı" anlayışı Prezident İlham Əliyevin üçtərəfli əməkdaşlıq platformaları çərçivəsində irəli sürdüyü təşəbbüslərin ümumi nəzəri ifadəsidir. Yəni, birincisi, burada söhbət yalnız üçtərəfli əməkdaşlıq formatından gedir, ikincisi, "üçbucaq" termininin həndəsi anlamı ancaq rəmzi olaraq qəbul edilir. "Üçbucaq" əməkdaşlıqda həndəsi mənada üç bucağı deyil, onda iştirak edən dövlətlərin sayının məcazi elmi obrazlaşdırma özəlliyini əks etdirir. Bu izahın səbəbi İlham Əliyevin üç



dövlətin əməkdaşlığına geosiyasi aspektdə verdiyi anlamla bağlıdır və kifayət qədər dərin elmi mənaya malikdir.

Həmin bağlılıqda tədqiq edilən məsələnin bir özəl cəhətini mütləq vurğulamaq lazımdır.

### İlham Əliyevin konseptual yeniliyi

Geosiyasi təlimlərdə ümumi nəzəri və metodoloji göstərişlər kifayət qədərdir. Ancaq konkret dövlətin geosiyasi uğuru, xüsusilə bu mürəkkəb və ziddiyyətli tarixi mərhələdə davamlı nəticəverici fəaliyyəti liderin ciddi yaradıcı münasibətini tələb edir. XXI əsrin təcrübəsi göstərir ki, hətta yüksək inkişaf etmiş dövlətlərin başçıları belə bir sıra hallarda bu vəzifənin öhdəsindən gələ bilmirlər. Nümunə olaraq ABŞ kimi qüdrətli dövlətin artıq bir neçə on ildir ki, ölkənin davamlı uğurlar əldə etməsinə yararlı olan siyasi kursu axtardığını göstərmək olar. Demokratlar respublikaçıları, onlar da birinciləri kəskin ittiham edirlər, uğursuzluğu konsepsiyalarda və konkret liderin fəaliyyətində deyil, başqalarının üzərinə atmaqla izah etməyə çalışırlar.

Böyük Britaniyada da bu istiqamətdə axtarışlar davam edir. B.Consonun siyasi kursunu London bəyənmədi və onu əvəz etdilər. İndiki iqtidarın yeritdiyi siyasətin də hər hansı parlaq və ciddi uğuru gözə dəymir. Almaniyada A.Merkeldən sonra Avropa və dünya miqyasında dövlətin davamlı uğurlar qazandığını deyən yoxdur. Sanki bir zamanlar çox qüdrətli görünən Almaniya "başının milçəyini güclə qoruyan dövlət" halına gəlmişdir. İndiki kanslerin də hər hansı əsaslı yeniliyindən bəhs etmirlər.

Fransadan ayrıca danışmaq olar. Böyük Fransanın indi kiçik uğurlarını belə vurğulayan yoxdur. Prezident E.Makronun irəli sürdüyü təşəbbüslər "beşiyində ölür". Lakin Afrikadan və başqa yerlərdən fransız hərbçilərinin çıxması haqqında informasiyalar artır, Parisə etirazlar çoxalır.

Bütün bunların səbəbi nədir? Çoxlu səbəblər ola bilər, lakin bizcə, onların təməlində yeni yanaşma, yeni ideya və konsepsiya yoxsulluğu dayanır. Yüksək inkişaf etmiş sayılan ölkələrin siyasi isteblişmenti yeni səviyyəyə yüksəlməyin dayanıqlı və əsaslı konsepti müəyyən edə bilmirlər. Onlar köhnə yanaşmaların qapalı dairəsində fırlanmaqdadırlar. Yeri gəlmişkən, Qərbdə liderlik çatışmazlığı haqqında filosoflar, politoloqlar və strateqlər çoxdandır ki, ciddi surətdə bəhs edirlər.

Bütün bunların fonunda İlham Əliyevin Azərbaycan Respublikasının ərazi bütövlüyünü bərpa və suverenliyini tam təmin etməsi, bu prosesin ölkənin davamlı inkişafı fonunda baş verməsinə nail olması fövqəladə əhəmiyyətli nəticədir. Burada, təbii ki, enerji strategiyasını, müxtəlif layihələri, siyasi-diplomatik və liderlik məharətlərini vurğulamaq gərəkdir. Bütün bunlarla yanaşı, bir təməl geosiyasi-nəzəri faktor mövcuddur ki, onun işığında Azərbaycan rəhbərinin fəaliyyətinə baxanda mənzərəni daha dolğun görə bilirik.

Həmin təməl faktor İlham Əliyevin XXI əsrdə Azərbaycan ölkə olaraq coğrafi paramterləri ilə dövlət kimi geosiyasi məqsədlərə çatmanın optimal kursunu müəyyən edə bilməsi ilə bağlıdır. Bu proses 2003-cü ildə bir forma aldı, 2008-ci il qlobal maliyyə krizisi, Rusiya-Gürcüstan hərbi toqquşması və 2013-2014-cü il Rusiya-Ukrayna enerji böhranı mərhələsində yeni məna çalarları meydana gəldi, 2015-ci ildən Avropa İttifaqının xarici siyasətdə yeni konsepsiyaya keçməsi ilə Cənubi Qafqazda baş verən geosiyasi proseslərin qarşılıqlı təsiri sayəsində bir qədər fərqli məzmuna malik oldu və nəhayət, 2020-ci il II Qarabağ müharibəsinin nəticələri fonunda tamamilə yeni səviyyədə məzmunlaşdı. 2023-cü il antiterror tədbirlərinin nəticəsi də bu prosesə yeni sürət və dinamika verdi.

Deməli, İlham Əliyevin XXI əsrin tələbləri və çağırışları fonunda Azərbaycan Respublikasının coğrafi parametrləri ilə onun geosiyasi özəlliklərini reallığa uyğun sintez edə bilməsi davamlı səmərəli fəaliyyətin kökündə dayanır. Konkret olaraq, Azərbaycan Respublikasının coğrafi parametrlərinin hansı aspektlərini Prezident İlham Əliyev geosiyasi kontekstdə əsas kimi götürmüşdür?

### İlham Əliyevin coğrafi determinizminin geosiyasi konteksti

Azərbaycan Pezidenti coğrafi determinizmi yumşaq formada, lakin geosiyasi kontekstdə fəaliyyət proqramlarına daxil etmişdir. İlham Əliyev Azərbaycan Respublikasının indiki mərhələdə 86 min kvadratkilometrlik ərazidə bərqərar olmasının tarixi-siyasi aspektlərini zamanın xronologiyasında nəzərə alaraq, həmin gerçəklikdən çıxış edərək dövlət qarşısında strateji hədəfləri müəyyən etmişdir. Bu zaman İlham Əliyev ölkənin təbii resurslarından maksimum yararlanmaq xəttini rasional surətdə gözləmişdir. Azərbaycanın geosiyasi gücünün əsas parametrlərini və onun başqa dövlətlərlə münasibətinin məntiqi və siyasi sərhədlərini həmin təməl üzərində müəyyən etmişdir. Praktika göstərdi ki, Azərbaycanın dövlət başçısı bu işin öhdəsindən son dərəcə uğurla gəlmişdir.

Birincisi, Azərbaycan müstəqil dövlət kimi daxili və regional reallıqları nəzərə alaraq həmişə real həyata keçə bilən vəzifələr qoymuşdur. Bu prosesdə hər hansı şirnikdirici tendensiyaya qapılmamışdır. İlham Əliyev realpolitikanın şərtləri daxilində real addımlar atmışdır.

İkincisi, Azərbaycan lideri ölkənin təbii resurslarının geosiyasi kontekstdə maksimum faydalı olması üçün ciddi surətdə Heydər Əliyevin enerji strategiyasının şərtləri çərçivəsində yaradıcı çalışmışdır. Bu o deməkdir ki, hər bir situasiyada İlham Əliyev ölkənin coğrafi parametrlərinin imkanları ilə realpolitikanın harmoniyasına nail ola bilmişdir.

Üçüncüsü, İlham Əliyev Avrasiya məkanında nadir siyasətçilərdəndir ki, bütün situasiyalar üçün əməkdaşlıq, sülh, sabitlik, ədalətlilik, təhlükəsizlik və ümumi rifah faktorlarını ön sırada görmüşdür. Bu, olduqca mühüm məsələdir və bütövlükdə dövlətin xarici siyasətinin humanitar aspektini ifadə edir.

Dördüncüsü, üçüncü müddəadan avtomatik olaraq İlham Əliyevin dövlətlərarası əlaqələrə yanaşmasının özəlliyi alınır. Burada Prezidentin coğrafi parametrlərlə mövcud geosiyasi reallığın harmoniyasını tam olaraq əməkdaşlığa, sülhün təmininə və birgə inkişafa yönəltməsi xəttini aydın görə bilirik.

Deməli, Azərbaycanın tarixi olaraq coğrafi determinantlarının dəyişmə dinamikasının real qiymətləndirilməsi dövlət başçısı üçün əhəmiyyətli məqamdır. Bu baza üzərində indiki mərhələdə dövlət üçün müxtəlif əməkdaşlıq platformalarının qarşılıqlı əlaqəsi əsasında birgə inkişafa nail olmaq İlham Əliyevin siyasi kursunun mühüm cəhətlərindən biridir. Həmin tezisdən əməkdaşlıq platformalarının Azərbaycan Respublikasının siyasətinin əsaslarını təşkil edən faktorlar sırasına daxil olduğu nəticəsi alınır.

**(ardı var)**

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki,***
***fəlsəfə elmləri doktoru***

# Tarixi anlaşmanın müəllifi

**(əvvəli 1-ci səhifədə)**

İlk olaraq siyasi analitik kimi ən mühüm suala cavab verməklə istəyirəm ki, Ermənistan niyə məhz indi, illərlə davam edən müharibə ritorikasından sonra, "müharibə məntiqindən sülh məntiqinə" keçid etdiyini bəyan etdi? Sualın cavabı təkcə İrəvanın daxili siyasi motivlərində deyil, daha çox Bakının formalaşdırdığı regional reallıqlarda gizlidir.

Birincisi, Bakı postmüharibə mərhələsində strateji təşəbbüskar oldu. Azərbaycan Prezidenti İlham Əliyev ard-arda konkret sülh təklifləri irəli sürdü – sərhədlərin delimitasiya və demarkasiyası, nəqliyyat-kommunikasiya xətlərinin açılması, qarşılıqlı ərazi bütövlüyünün tanınması. Prezident



tərəfindən bu təkliflər beynəlxalq hüquq prinsiplərinə söykənərək təqdim edilirdi və region dövlətləri, o cümlədən vasitəçi aktorlar tərəfindən dəstəklənirdi. Beləliklə, Ermənistan özünü beynəlxalq təzyiqlərin ortasında gördü: ya Bakının təqdim etdiyi gündəliyi qəbul etmək, ya da tam təcrid riskini yaşamaq.

İkincisi, Azərbaycanın diplomatiyası hərbi qələbədən sonra sərt güc ritorikasına deyil, yumşaq güc elementlərinə əsaslandı. Bakı regiondakı bütün tərəflərə – hətta Ermənistana da – iqtisadi əməkdaşlıq, ticarət, enerji və nəqliyyat layihələrində iştirak imkanları təklif etdi. Əslində, bunlar Ermənistana ilk baxışdan "çoxvariantlılıq" kimi göründü: yəni, sülh yolu seçilərsə, regional layihələrə qoşulmaq və izolyasi-



yadan çıxmaq mümkündür. Əgər Azərbaycan bu xətti davamlı şəkildə saxlamasaydı, Ermənistanın daxili auditoriyası qarşısında 8 avqustu "sülh məntiqinin qələbəsi" kimi təqdim etməsi inandırıcı olmazdı.

Üçüncüsü, Ermənistanın öz daxili siyasi və sosial reallıqları onu seçim qarşısında qoydu. Davamlı müharibə ritorikası nə iqtisadi inkişaf, nə də ictimai legitimlik gətirirdi. Cəmiyyət yorulmuşdu, dövlət institusiyaları zəifləmişdi, iqtisadi perspektivlər daralmışdı. Belə bir şəraitdə sülh məntiqini qəbul etmək yalnız rasional çıxış yolu kimi göründü. Elə bu məqamda Azərbaycan sanki "özünəməxsus sülh" modelini təklif etmiş oldu: hərbi güclə formalaşdırılmış yeni status-kvo və ardınca diplomatik təşəbbüslər.

Nəhayət, geosiyasi mühit də Ermənistanın seçimlərini məhdudlaşdırdı. Ukrayna müharibəsindən sonra Qərb-Rusiya qarşıdurması dərinləşdi, regional kommunikasiya xətləri qlobal enerji və nəqliyyat şəbəkələri ilə daha sıx əlaqələndirilməyə başlandı. Ermənistanın bu şəbəkələrdən kənarda qalması strateji intihar olardı. Azərbaycanın təklif etdiyi gündəlik isə əksinə, İrəvanı həm Şərqə, həm də Qərbə bağlayan körpülərə çıxış imkanı verirdi.

Məhz bütün bu amillər birləşərək 8 avqustu İrəvan üçün "tarixi dönüş günü"nə çevirdi. Ermənistan prezidentinin bunu "böyük diplomatik nailiyyət" adlandırması, əslində, Ermənistan diplomatiyasının yox, Azərbaycanın sistemli və ardıcıl siyasətinin nəticəsi idi.

***

Maraqlıdır, bəs Ermənistan bu tarixi şansı özü yarada bilərdimi? Realist baxış bunu mümkün saymır. İrəvanın resursları məhdud, iqtisadiyyatı blokadaya yaxın vəziyyətdə və təhlükəsizlik vəziyyəti mürəkkəbdir. Belə bir kontekstdə sülh narrativini müstəqil şəkildə formalaşdırmaq praktiki olaraq qeyri-mümkün idi. Azərbaycan qalib tərəf olaraq regional nizamı müəyyənləşdirdi və yalnız hərbi üstünlük deyil, həm də diplomatik və iqtisadi alətlərlə bu nizamı möhkəmləndirdi. Bakı postmüharibə mərhələsində kommunikasiya xətlərini açmaq, ticarət və enerji layihələrinə inteqrasiya imkanları yaratmaq, eyni zamanda, sərhədlərin delimitasiyası və sülh müqaviləsi kimi siyasi-hüquqi mexanizmləri təqdim etməklə İrəvanın seçim imkanlarını məhdudlaşdırdı. Məhz bu reallıqlar göstərir ki, Ermənistan ya Bakının gündəliyini qəbul etməli, ya da strateji təcrid və iqtisadi daralmayla üzləşməli idi. Maraqlıdır ki, əgər İrəvan bu şansı öz təşəbbüsü ilə yaratmağa çalışsaydı, sülh narrativi indiki qədər davamlı və inandırıcı olardımı? Cavab aydındır: ehtimal çox aşağıdır, çünki bu şansın konkret icra mexanizmi və iqtisadi-dividend dəstəyi yalnız Azərbaycanın təqdim etdiyi çərçivədə mövcuddur.

***

8 avqustu şərtləndirən pozitiv amillər yalnız Azərbaycanın sülh gündəliyi ilə məhdudlaşmır; onlar həm də regional və daxili konfiqurasiyalardan irəli gəlir. Qərb–Rusiya münasibətlərindəki gərginlik Cənubi Qafqazın geosiyasi mənzərəsini dəyişdi, region dövlətləri üçün sülhün strateji əhəmiyyətini artırdı. Belə bir şəraitdə Ermənistan sülh gündəliyini qəbul etməklə yalnız qonşu ölkələrlə münasibətlərini normallaşdırmır, eyni zamanda, özünü "təhlükəsiz tərəfdaş" kimi təqdim etməyə imkan qazandı.

Bundan əlavə, Azərbaycanın iqtisadi çəkisi və regional liderliyi 8 avqustu şərtləndirən əsas amillərdən biridir. Bakı enerji, logistika və maliyyə resurslarını strateji üstünlük kimi istifadə edərək "güc vasitəsilə sülh" modelini iqtisadi dividendlərlə tamamladı. Bunlar İrəvan üçün yalnız diplomatik seçim deyil, həm də konkret iqtisadi imkanların və resursların mövcudluğu məsələsi oldu; Ermənistan bu imkanlardan kənarda qalmaq riski ilə üzləşdi. Daxili siyasi kontekst də önəmlidir. Ermənistan rəhbərliyi anlayır ki, sabitlik olmadan iqtisadi islahatlar və sosial dayanıqlılıq uğur qazana bilməz. Məhz bu baxımdan sülh yalnız xarici siyasət addımı deyil, daxili etimadın və sosial sabitliyin təminatçısıdır.

Nəhayət, Azərbaycan–Türkiyə strateji müttəfiqliyi Ermənistanın seçim imkanlarını daraltdı. Çünki Ankara ilə normallaşma yalnız Bakı ilə sülh kontekstində mümkün idi. Beləliklə, bütün bu amillər birləşərək 8 avqustu Ermənistan üçün yalnız simvolik deyil, həm də strateji və praktik baxımdan tarixi dönüş günü kimi müəyyənləşdirdi.

***

Ermənistan ptrezidenti 8 avqustu "böyük diplomatik nailiyyət" kimi təqdim edir, amma bu nailiyyətin arxasında əsas hərəkətverici qüvvə Azərbaycanın sülh gündəliyidir. Bakı postmüharibə mərhələsində diplomatik və iqtisadi vasitələrdən istifadə edərək regionda yeni nizam yaratdı. Azərbaycanın təşəbbüsləri Ermənistanı danışıqlar masasına gətirdi və onun mövqeyini "müharibə məntiqindən sülh məntiqinə" çevirməyə imkan verdi.

Azərbaycanın mövqeyi həm strateji, həm də iqtisadi baxımdan aydın idi: regionun enerji, nəqliyyat və ticarət dəhlizlərini öz təşəbbüsü ilə əlaqələndirmək, davamlı regional əməkdaşlıq mühiti yaratmaq və Ermənistanın bu prosesdə rolunu müsbət şəkildə daxil etmək. Beləliklə, Ermənistanın "sülh kəsişməsi" təşəbbüsü əslində Azərbaycanın təqdim etdiyi regional inteqrasiya çərçivəsinin bir hissəsinə çevrildi.

Tarixi şansın müəllifi açıqdır: 8 avqustda sülhün paraflanması Azərbaycanın sistemli strategiyası və Prezident İlham Əliyevin qəti siyasi iradəsi nəticəsində mümkün oldu. İlham Əliyev postmüharibə mərhələsində ardıcıl diplomatik addımlar ataraq region üçün konkret sülh və inteqrasiya təkliflərini təqdim etdi. Dövlətimizin başçısı Azərbaycanın geosiyasi və iqtisadi üstünlüklərini səmərəli şəkildə istifadə edərək Ermənistanı danışıqlar masasına gətirdi.

Əlbəttə, burada həlledici rolu Prezident İlham Əliyevin siyasi iradəsi oynadı: o, təkcə sülh modelini tətbiq etməklə kifayətlənmədi, eyni zamanda regional inteqrasiyanın praktik mexanizmini formalaşdırdı, Ermənistanın iqtisadi və siyasi maraqlarını nəzərə alaraq balanslı və davamlı reallıq yaratdı. Nəticədə, 8 avqust Azərbaycanın davamlı və məqsədyönlü siyasətinin, İlham Əliyevin siyasi liderliyinin və regionda sülh gündəliyini formalaşdırmaq bacarığının praktiki təzahürü oldu.

***Şəbnəm ZEYNALOVA,***
***XQ-nin siyasi analitiki,***
***siyasi elmlər üzrə fəlsəfə doktoru***

# AİB ölkəmizdə iqlimə davamlığı dəstəkləyir




**Asiya İnkişaf Bankının (AİB) məlumatına görə, bu maliyyə qurumu Azərbaycanla 2025-2029-cu illər üçün Tərəfdaşlıq Strategiyasına əsaslanaraq Azərbaycan infrastrukturunun iqlimə davamlığının artırılması ilə bağlı layihələr hazırlayacaq.**

Bildirilir ki, Azərbaycan davamlı iqtisadi artımı poza biləcək müxtəlif təbii təhlükələrə məruz qalır. Su ehtiyatlarının çatışmazlığı kənd təsərrüfatı istehsalı, məşğulluq, su təchizatı və su – elektrik enerjisi istehsalı üçün ciddi təhlükə yaradır. Buzlaqların əriməsi güclü daşqınlara, torpaqların deqradasiyasına və su anbarları kimi infrastrukturun zədələnməsinə səbəb olur. Bu riskləri azaltmaq üçün AİB qarşısında iqlimə davamlı infrastrukturun yaradılması, ekosistemlərin və həssas icmaların qorunması qarşıya mühüm vəzifə kimi qoyulur.

AİB-in məlumatına görə, Azərbaycan zəngin təbii ehtiyatlara və müxtəlif iqlim qurşaqlarına malikdir. Qlobal istixana qazı emissiyaları nəticəsində ölkə səhralaşma, su qıtlığının artması və dəniz səviyyəsinin aşağı düşməsi də daxil olmaqla iqlim dəyişikliyinin ciddi təsirləri ilə üzləşir. Bu çağırışlara uyğun olaraq 2024-cü ildə iqlim dəyişikliyinə uyğunlaşma üzrə hazırlanan milli proqramın icrası nəticəsində əldə edilən töhfələrin 2025-ci ildə elan olunması nəzərdə tutulur.

Azərbaycan hazırda özəl investorların fəal iştirakı ilə bərpa olunan enerjinin ümumi quraşdırılmış istehsal gücündə, o cümlədən ixracda payının artırılması istiqamətində fəal iş aparır. Eyni zamanda aşağı karbonlu regional nəqliyyat və logistika şəbəkələrinə investisiya qoymaqla gəlirləri diversifikasiya etməyi planlaşdırılır. Digər məqsəd bacarıqların inkişafı, iqlimə davamlı infrastruktur, yüksək əlavə dəyərli kənd təsərrüfatı məhsulları, eləcə də kiçik və orta biznesə dəstək proqramları vasitəsilə regionlarda məhsuldarlığı artırmaqdır.

Beynəlxalq maliyyə təşkilatı olan AİB 1966-cı ildə yaradılıb. Əsas məqsədi Asiya məkanında, bütövlükdə Şərq ölkələrində iqtisadiyyatın inkişafına yardım göstərməkdən ibarət olan bankın baş ofisi Filippinin Manila şəhərində yerləşir. AİB-ni maliyyələşdirən 67 üzv ölkə var ki, onlardan 48-i Asiya və Sakit Okeanı regionunda yerləşir.

Azərbaycan Respublikası 1999-cu il oktyabrın 20-də Asiya İnkişaf Bankına üzvlüyə qəbul olunub. 2004-cü ilin noyabr ayından etibarən isə təşkilatın ölkəmizdə nümayəndəliyi fəaliyyət göstərir. Azərbaycanın AİB-in səhmlərində payı 0,447 faiz təşkil edir.

# Dövlət satınalmaları şəffaflığa əsaslanır

## *6 ayda 1,6 milyard manatlıq elektron əməliyyat aparılıb*

**Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi dövlət satınalmalarının rəqabətlilik və əlçatanlıq prinsipləri əsasında təşkili, satınalma proseslərində qanunvericiliyə riayət olunmasına nəzarət və büdcə vəsaitlərindən səmərəli istifadənin təmin edilməsi istiqamətində ardıcıl tədbirlər həyata keçirir.**




Qurumdan verilən məlumata görə, 2025-ci ilin birinci yarısında elektron satınalmaların həcmi 1 milyard 632,7 milyon manat təşkil edib ki, bu da əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 177 milyon manat və ya 12,2 faiz artım deməkdir. Müsbət dinamika dövlət satınalmalarının "E-tender.gov.az" vahid internet portalında funksionallığın genişləndirilməsi, prosedurların sadələşdirilməsi, təchizatçıların prosesə daha rahat qoşulması və rəqabət imkanlarının artması ilə bağlıdır.

Hesabat dövründə elektron satınalmalar nəticəsində dövlət büdcəsinə qənaət edilmiş məbləğ ötən ilin müvafiq dövrünə nəzərən 38,6 faiz artaraq 329,2 milyon manat təşkil edib. Əldə olunan nəticələr dövlət vəsaitlərinin məqsədyönlü istifadəsi ilə əlavə xərclərin minimallaşdırılması və maliyyə intizamının gücləndirilməsi hesabına təmin edilib.

Bu ilin 6 ayı ərzində açılışı baş tutmuş satınalmalar üzrə orta iştirakçı sayı açıq tender metodu üzrə 4,3, kotirovka sorğusu metodu üzrə 3,4 olmaqla, ümumilikdə 3,7 təşkil edib. Ötən ilin müvafiq dövrü ilə müqayisədə açılışı baş tutmuş satınalmalarda orta iştirakçı sayı, ümumilikdə, 2,8 faiz artıb, o cümlədən açıq tender metodu üzrə 7,5 faiz artım qeydə alınıb, kotirovka sorğusu metodu üzrə isə bu göstərici ötən ilin müvafiq dövrünün göstəricisi ilə eynilik (3,4) təşkil edib. Göründüyü kimi, çoxiştirakçılığın təmin edilməsi satınalma proseslərində sahibkarların bərabər imkanlarla iştirakına və bazara çıxış imkanlarının genişlənməsinə şərait yaradır. Bu isə sahibkarlıq mühitinin inkişafına və iqtisadi fəallığın artmasına töhfə verir.

Bundan əlavə, dövlət satınalmalarında şəffaflığın təmin edilməsi və ədalətli rəqabət mühitinin qorunması, o cümlədən müraciətlərin çevik emalı istiqamətində müntəzəm tədbirlər görülüb. Satınalan təşkilatlar tərəfindən müxtəlif manelərin yaradılması ilə əlaqədar agentliyə daxil olan 789, digər məsələlərlə əlaqədar isə 239 müraciətə baxılıb. Müsabiqə zamanı qanunvericiliyin tələblərinin pozulması halları aşkar olunan 501 yekun protokol ləğv edilib.

Təchizatçıların dövlət satınalmalarında iştirakının daha da asanlaşdırılması və sənədləşmə prosesinin sürətləndirilməsi məqsədilə müxtəlif dövlət qurumlarından tələb olunan sənədlərin "E-tender.gov.az" portalı vasitəsilə real vaxt rejimində əldə olunması üçün agentlik tərəfindən Mərkəzi Bank, İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti, Ədliyyə və Daxili İşlər nazirlikləri ilə inteqrasiyalar həyata keçirilib.

Bununla yanaşı, portalda satınalma komissiyası tərəfindən şərtlər toplusunun elektron şəkildə qanunvericiliyin bütün tələbləri nəzərə alınmaqla yaradılması, uzadılmış satınalmalarda verilmiş təkliflərin avtomatik olaraq yeni versiyaya köçürülməsi, yenidən yaradılmış satınalmaların əvvəlki ləğv edilmiş versiyalarla sistem daxilində əlaqələndirilməsi və portal istifadəçiləri üçün keçid imkanının təmin edilməsi və s. kimi yeni funksionallıqlar əlavə edilməklə təkmilləşdirmələr aparılıb.

Hesabat Azərbaycan Respublikasının Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiyasının əmtəə bazarının səmərəliliyi və rəqabət işçi qrupunun Fəaliyyət Planının tələblərinə əsasən hazırlanıb. Yeri gəlmişkən, Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiya "Azərbaycan Respublikasında biznes mühitinin əlverişliliyinin artırılması və beynəlxalq reytinqlərdə ölkəmizin mövqeyinin daha da yaxşılaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında" ölkə Prezidentinin 2016-cı il 13 iyul tarixli sərəncamı ilə yaradılıb. Komissiyanın əmtəə bazarının səmərəliliyi və rəqabət işçi qrupuna rəhbərliyi Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi həyata keçirir.

# Süni intellekt şirkətimiz beynəlxalq yarışma qalibidir

**Azərbaycanlı startapçı Yaqub Rəhimovun əsasını qoyduğu "Polygraf AI" şirkəti, Silkroad İnnovasiya Mərkəzinin təşkil etdiyi beynəlxalq yarışmanın qalibi olub.**

Mərkəzi Asiya, Qafqaz və Türkiyədən qoşulmuş 400-dən çox startap arasından qalib seçilən şirkət qlobal nüfuzlu "TechCrunch 2025" yarışmasında finala birbaşa vəsiqə qazanıb. Bu uğur şirkətin cari il ərzində qazandığı ardıcıl qalibiyyətlərin davamıdır. Belə ki, bundan öncə də "Polygraf AI" ABŞ-da keçirilən "SXSW Pitch", "SummerFest Tech" kimi daha iki nüfuzlu yarışda qalib adını qazanmışdı.

"Polygraf AI" layihəsi süni intellektin sürətlə inkişaf etdiyi dövrdə təşkilatların məlumat təhlükəsizliyini qorumağa və deepfake risklərinin aşkarlanmasına yardım edir. Platforma deepfake səs və saxta məzmunu aşkar edir, həmçinin "OpenAI", "Gemini" və "Microsoft Copilot" kimi süni intellekt alətlərinə məxfi məlumatların sızmasının qarşısını alır.

Bu qalibiyyətin "Polygraf AI" komandasının fəaliyyətinin qlobal əhəmiyyətini bir daha təsdiqlədiyini bildirən azərbaycanlı intellekt sahibi Yaqub Rəhimov deyib: "Fəaliyyətimiz lokal Kiçik Dil Modeli (SLM) texnologiyası ilə kritik əməliyyat komandalarını komplayns risklərindən qorumağa, həm də süni intellekt əsaslı fırıldaqçılığın qarşısını almağa yönəlib. Bu uğur bizə San-Fransiskoda keçiriləcək "TechCrunch Disrupt" tədbirində missiyamızı daha geniş auditoriyaya çatdırmaq, eləcə də "Battlefield 200" yarışında qalib gələrək tarixi bir ilkə imza atmaq imkanı yaradır".

Yeri gəlmişkən, "Polygraf AI" – süni intellekt dövründə şəffaflıq, təhlükəsizlik və etibarlılıq üzərində qurulmuş bir platformadır. Şirkət təşkilatlara deepfake, sintetik təhlükə, məlumat itkisi və daxili




riskləri vaxtında aşkar etməyə kömək edir.

"TechCrunch" isə dünyanın ən nüfuzlu texnologiya mediası və startap ekosisteminin aparıcı platformalarından biridir. 2005-ci ildən fəaliyyət göstərən bu platforma hər il minlərlə texnologiya şirkətini və investorları bir araya gətirən "TechCrunch Disrupt" konfransını təşkil edir. "Startup Battlefield" intellekt yarışması vasitəsilə seçilən ən perspektivli startaplar qlobal səhnədə öz həllərini təqdim etmək imkanı qazanır.

# Horadiz – Ağbənd dəmir yolunun 67 faizi hazırdır



**Azərbaycan Dəmir Yolları" QSC-dən aldığımız məlumata görə, Horadiz – Ağbənd dəmir yolu xəttinin layihələndirilməsinin 84 faizi, tikinti-quraşdırma işlərinin isə 67 faizi yekunlaşıb.**

Bildirilib ki, hazırda xəttin 75 – 106 kilometr hissəsində torpaq işləri və mühəndis qurğularının inşası aparılır. Layihə çərçivəsində Yuxarı Mərcanlı, Şükürbəyli, Soltanlı, Qumlaq, Həkəri, Mincivan, Bartaz və Ağbənd stansiyalarının tikintisi nəzərdə tutulur. Bundan başqa, dəmir yolu xətti boyunca 40 körpünün, 26 avtomobil keçidinin, 4 tunelin, 3 qalereyanın, istinad divarlarının, ümumilikdə, 553 mühəndis qurğusunun tikintisinin həyata keçiriləcəyi planlaşdırılır.

# Kiçik SES-lər böyük həcmdə "təmiz" enerji verəcək



**Kəlbəcər rayonunda yeni istifadəyə verilən 3 kiçik su elektrik stansiyasında il ərzində 68 milyon kilovat-saaat elektrik enerjisi istehsal olunacaq. Bu barədə jurnalistlərə "AzərEnerji" Açıq Səhmdar Cəmiyyətinin yaşıl enerji elektrik stansiyalarının baş mühəndisi Razim Qasımov məlumat verib.**

Baş mühəndis deyib ki, "Aşağı Vəng", "Nadirxanlı" və "Çaykənd" kiçik su elektrik stansiyalarında çalışanlar Kəlbəcər sakinləridir. Onun sözlərinə görə, Kəlbəcər rayonunda inşa olunmuş 3-8,6 meqavatlıq "Aşağı Vəng" və 8,8 meqavatlıq "Nadirxanlı" kiçik su elektrik stansiyalarını su ilə təmin etmək üçün Lev çayının Tərtər çayına qovuşmasından sonra baş suqəbuledici, eyni zamanda, Tutqu çayının Tərtər çayına qovuşan hissəsində ikinci suqəbuledici yaradılıb.

Bildirilib ki, müasir avadanlıqlarla təchiz edilmiş stansiyalar ölkə enerjisisteminin mərkəzləşdirilmiş SCADA sisteminə inteqrasiya olunub. Burada istehsal edilən ekoloji təmiz yaşıl enerji ilə, təxminən, 25 min nəfər elektrik enerjisi ilə təmin olunacaq.

Xatırladaq ki, Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva avqustun 21-də Kəlbəcər rayonunun Vəng kəndində "AzərEnerji" ASC-nin "Aşağı Vəng", "Nadirxanlı" və "Çaykənd" kiçik su elektrik stansiyalarının iştirak ediblər.

# Elektrik enerjisi ixracı 4,3 dəfə artıb



**Dövlət Gömrük Komitəsinin məlumatına görə, bu ilin 7 ayında ölkəmizdən 43 milyon ABŞ dolları dəyərində 737 milyon 466 min kVt/saat elektrik enerjisi ixrac edilib. İyulda isə ölkədən 3 milyon 53 min dollarlıq 57 milyon 623 min kVt/saat (keçən ilin eyni ayına nisbətən müvafiq olaraq 4,3 dəfə çox) elektrik enerjisi ixrac olunub. Qeyri-neft məhsullarının ixracında elektrik enerjisinin payı 2,23 faiz çoxalıb.**

Qeyd edək ki, Azərbaycanın son illər ən çox elektrik enerjisi ixrac etdiyi ölkə Türkiyədir. Enerji Gürcüstan üzərindən ötürülür. Əvvəlki illərdə qardaş ölkə üzərindən Avropaya az miqdarda elektrik enerjisi ixrac olunub. Yaxın illərdə Azərbaycandan Türkiyəyə elektrik enerjisi Naxçıvan üzərindən ötürüləcək.

Bu ilin 7 ayında respublikamız xarici ölkələrlə 28 milyard 842 milyon dollar (ötən ilin eyni dövrünə nisbətən 7,25 faiz çox) dəyərində ticarət əməliyyatı aparıb. Xarici ticarət dövriyyəsinin 15 milyard 227 milyon dolları ixracın, 13 milyard 615 milyon dolları isə idxalın payına düşüb.

# Meyvə-tərəvəz məhsullarımız xarici bazarlarda

**2025-ci ilin yanvar–iyul aylarında ölkəmizdən xarici bazarlara meyvə, tərəvəz və bostan məhsullarının ixracında ciddi artım qeydə alınıb. Bu ilin 7 ayında ötən ilin müvafiq dövrü ilə müqayisədə qoz-fındıq ixracı 33,1 faiz, sitrus meyvələri ixracı 54 faiz, alma, armud və heyva ixracı 53,6 faiz, ərik, albalı, gilas, şaftalı ixracı 33 faiz, nar ixracı 37,7 faiz, digər meyvələrin ixracı isə 76,2 faiz artıb.**

Hesabat dövründə tərəvəz məhsullarının ixracında isə əvvəlki ilin eyni dövrü ilə müqayisədə 22,6 faiz artım qeydə alınıb. Cari ilin 7 ayı ərzində ölkəmizdən xarici bazarlara kartof ixracı həcm olaraq 46,8 faiz, pomidor ixracı 22,8 faiz, qarpız və qovun ixracı 2 dəfədən çox artıb.

Artım təkcə tərəvəz və bostan məhsullarının həcmində deyil, ixrac dəyərində də öz əksini tapır. Belə ki, bu ilin yanvar-iyul aylarında kartof ixracından gəlir dəyər ifadəsində (ABŞ dolları ilə) 37,5 faiz təşkil etdiyi halda, pomidor ixracı üzrə bu artım 12,4 faiz, qarpız və qovun ixracı üzrə isə 86,4 faiz olub.

**Səhifəni hazırladılar:**
**Vaqif BAYRAMOV,**
**Mirbağır YAQUBZADƏ**
**XQ**

# Haylar uyğunlaşma problemindən əziyyət çəkiblər

## Nikol Paşinyan Ermənistanı fəlakətə aparmış separatçılara "əlvida!" deməyi bacaracaqmı?

**Bu, həmin Paşinyan deyilmi? İndi Ermənistan baş nazirinin xeyirinə deyilən və yazılan sözə qarşı sadə azərbaycanlı bu məntiqi sualı qoya bilər. Həm də tam haqlı olaraq. Bugünlərdə Nikol Paşinyan sosial şəbəkələrdə Ermənistanın Müstəqillik Bəyannaməsinin qəbulunun 35-ci ildönümünə həsr olunan məqaləsində mühüm mesajlar verib, ölkənin siyasi gündəminin cari prioritetlərini müəyyən edən tezislər səsləndirib.**



"Ermənistan ilk dəfə olaraq beynəlxalq hadisələrə uyğunlaşmağa başlayıb. Ən böyük problemlərimizdən biri o olub ki, ölkəmizin yaşadığı nəzəriyyələr adətən elita tərəfindən formalaşdırılıb və ictimaiyyətə öyrədilib. İndi bunun əksinin baş verdiyi dövrdə yaşayırıq: nəzəriyyələr xalqın şüurunda mayalanır, sonra xalqın nümayəndələri onları formalaşdırır və həyata keçirirlər. Bu prosesin təbiətini tam şəkildə qoruyub saxlamağımız çox vacibdir". Bunun ardınca N.Paşinyan Ermənistanın uzun illər müasir dünyanın şərtlərinə uyğun gəlməyən siyasət yürütdüyünü dilə gətirib: "Tariximiz boyu yaşadığımız bütün fəlakətlərin xüsusiyyətlərini öyrənərkən belə qənaətə gəldik ki, biz, bir qayda olaraq, heç vaxt tariximizin tempini beynəlxalq proseslərin tempi ilə eyniləşdirə bilməmişik. Vaşinqtonda baş verənlər (Azərbaycan–Ermənistan razılaşması -red.) ona dəlalət edir ki, artıq Ermənistanın xarici siyasət taktikası müəyyən beynəlxalq proseslərə uyğunlaşıb. Bu isə son dərəcə vacib məsələdir. Beynəlxalq hadisələrə uyğunlaşmaq baxımından, bəlkə də son bir neçə əsr ərzində ilk real imkanımızdır. Bu, bizim üçün son dərəcə mühüm mərhələdir".

***

Baş nazirin məqaləsində keçmişə "səyahəti" xüsusi maraq doğurur. O, Ermənistan SSR Ali Sovetinin 1990-cı il avqustun 23-də qəbul etdiyi İstiqlal Bəyannaməsi, SSRİ-nin utopik ideologiyası və 2020-ci ilin payızında baş verən 44 günlük müharibənin səbəbləri ilə bağlı fikirlərini açıqlayıb və sonra diqqəti "Qarabağ hərəkatı"nın davam etdirilməsinin yolverilməzliyinə yönəldib. Paşinyan yazır ki, Müstəqillik Bəyannaməsi qəbul olunduğu dövrdə o sənəd Ermənistanda fəaliyyət göstərən siyasi və intellektual elitanın əhval-ruhiyyəsini əks etdirir və son nəticədə müstəqil Ermənistan Respublikasının yaranmasına təsir edən zirvəyə çatmış "Qarabağ hərəkatı"nın möhürünü daşıyır. Onun siyasi improvizəsi bununla məhdudlaşmır. Yazır: "Bəyannamənin əsas ideoloji müddəaları bir-birinə zidd idi və Sovet İttifaqının 1950-ci illərdən, "dəmir pərdə"nin qurulması və "soyuq müharibə"nin başlanğıcı şəraitində bizə tədricən, amma ardıcıl olaraq aşıladığı "kollektiv vətənpərvərlik modeli"ni əks etdirirdi". Bu model, eyni zamanda, İkinci Dünya müharibəsində qalib gələn və Şimali Atlantika Alyansı ilə münaqişəyə girmiş SSRİ-nin ambisiyalarının cənub-qərb istiqamətini əks etdirirdi. Paşinyanın qənaətincə, onilliklər boyu tətbiq edilən ideologiya "Qarabağ hərəkatı"na gətirib çıxarıb, Ermənistanın real müstəqilliyinə maneəyə çevrilib: "Qarabağ hərəkatı"nın davam etdirilməsi qəbuledilməzdir, çünki bu, Ermənistan Respublikasının müstəqilliyinin məhvi demək olardı". Əslində, Ermənistanın baş naziri bu yaxınlarda hökumətin iclasından sonra mediaya səsləndirdiyi tezisini daha da gücləndirib: "Qarabağ hərəkatı"ndan əl çəkmədən sülh nəzəri və praktik olaraq mümkün deyil".

Bu məqamda mövzudan bir qədər kənara çəkilməyimizə ehtiyac var. 1988-ci ildən başlanan Qarabağ separatizminin yaradıcılarının erməni faşizminin tərəfdarları Zori Balayan, Silva Kaputikyan, İqor Muradyan və Levon Ter-Petrosyan olduğunu xatırlamalıyıq. Sonralar Robert Koçaryan, Serj Sarkisyan, Vazgen Sarkisyan, həmçinin ASALA terror təşkilatının üzvü Monte Melkonyan bu prosesə qoşularaq dinc azərbaycanlı əhaliyə qarşı çoxsaylı qanlı əməllər törətdilər. Məgər bunları unutmaq olar? Avqustun 8-də Vaşinqtonda sülh sazişinin razılaşdırılmış mətninin paraflanması ilə təsdiqlənən yekun proses gündəmə gələndən erməni cəmiyyətində revanşist əhval-ruhiyyənin qızışdırılması üçün böyük səylər göstərənlər var. Məhz bunu nəzərə alaraq, Paşinyanın "Qarabağ hərəkatı"nın davam etdirilməsinin yolverilməzliyi ilə bağlı qətiyyətli bəyanatı Azərbaycanla növbəti hərbi qarşıdurmanın bütün tərəfdarlarına sərt mesaj kimi qiymətləndirilməlidir.

Digər tərəfdən, bu, həm də beynəlxalq ictimaiyyətə bir mesajdır ki, Qarabağı Azərbaycanın qanuni ərazisi hesab edən, "real Ermənistan" konsepsiyasının müəllifinin əsas məqsədi iki ölkə arasında və bütövlükdə regionda yekun sülhün bərqərar olması kursunu qətiyyətlə davam etdirməkdir. Açıq deməliyik ki, Paşinyanın bu səyləri regional oyunçularla mehriban qonşuluq münasibətlərinin qurulmasına yönəlib və bu, İrəvanın siyasətinin prioritet istiqamətlərindən biridir. Baş nazir bayram paylaşımında bu məqama da toxunub: "Biz Ermənistanın müstəqilliyini qoruyub saxlamaq və onu reallığa çevirmək üçün strategiya qəbul etmişik və bu strategiyanın ifadəsi "real Ermənistan" ideologiyasıdır. Onun altında Ermənistan və Azərbaycan arasında sülh mümkün olacaq, onun əsasında Türkiyə ilə real dialoq mümkün olacaq".

Baş nazir İkinci Qarabağ müharibəsi mövzusuna qayıdaraq belə bir sual verir: "44 günlük müharibədən qaçmaq üçün nəzəri imkan olduğu halda 2020-ci ilin sentyabrında Ermənistan və şəxsən mən niyə güzəştə getmədik?". Onun sözlərinə görə, bunun əsas səbəbi bu güzəştlər nəticəsində təhdid və asılılıqların qeyri-mütənasib şəkildə artacağı və bunun da ölkənin müstəqilliyini və dövlətçiliyini itirməsinə gətirib çıxaracağı idi. Nə demək olar, burada o, həqiqətən haqlıdır. Paşinyanın sələfləri Ermənistanı İrəvanın "miatsum" ideologiyasından uzaqlaşmasına imkan verməyən xarici oyunçuların əsarətində qoymuşdular.

44 günlük müddətdə sarsıdıcı məğlubiyyətə düçar olmasına baxmayaraq, Paşinyan nəinki hakimiyyətdə qalmağa, Ermənistanı ardıcıl olaraq Vaşinqton razılaşmalarına aparmağa, hətta separatçı "çete", erməni kilsəsi ilə sərt qarşıdurmaya girməyə müvəffəq oldu.

Sonda bizə onu demək qalır ki, hayların baş naziri məqsədyönlü şəkildə kütlənin beyninə yeritdiyi "real Ermənistan"a uyğun olaraq Qarabağı Azərbaycanın bir hissəsi kimi tanımaqla, onun, guya, Ermənistana məxsusluğu ilə bağlı stereotipi tamamilə qırdı.

Nikol Paşinyanın son paylaşımı Azərbaycan və Ermənistan arasında sülhün həmişəkindən daha yaxın olduğuna dair birmənalı siqnaldır. Onun Hayastan üçün dinc və firəvan həyatın başlanması ilə bağlı pozitiv sözlərini isə Bakının sülh gündəliyinə və Vaşinqton sazişlərinə sadiqlik nümayişi kimi qəbul etmək istərdik.

***İmran BƏDİRXANLI***
***XQ***

### Ekspert rəyi



**Fikrət SADIXOV,**
**Qərbi Kaspi Universitetinin professoru, politoloq**

– Bu həmin Paşinyandır ki, vaxtilə Şuşada "Artsax" parlamentinin binasını tikməyə hazırlaşır, Cıdır düzündə içkili vəziyyətdə rəqs edə-edə "Qarabağ Ermənistandır və nöqtə!" deyə bəyan edirdi. Onu da unutmamışıq ki, o, həm də 44 günlük müharibənin gedişində Qarabağdakı separatçı rejimi durmadan müdafiə edən Ermənistan hökumətinin başçısıdır. Doğrudur, indiki məqamda Paşinyanın reallığa və şəraitə uyğun sağlam, praqmatik bəyanatlar verməsi bizi müəyyən mənada qane edir. Digər vacib məqam Vaşinqtonda sülhlə bağlı konkret sənədlərin imzalanması və paraflanmasıdır. Bakı bundan sonra rəsmi İrəvandan növbəti, real və konkret addımlar atacağını gözləyir. Mənə elə gəlir ki, hazırda yaranmış vəziyyət bizi qane edə bilər. Bunun üzərinə Nikol Paşinyanın normal, məntiqi bəyanatlarını da gəlsək, hər şeyin öz axarı ilə getdiyi təəssüratı yaranır.

İntəhası, sabah, ya birisigün, yaxud yaxın gələcəkdə Ermənistan daxilində nələrin baş verəcəyini indidən deyə bilmərik. Hansı qüvvələrin baş nazirə ciddi müqavimət və təsir göstərəcəyini, onların Paşinyanı devirməyə qadir olub-olmayacaqlarını proqnozlaşdırmaq çətindir. Bəs, xarici qüvvələrin Ermənistanın daxili siyasətinə müdaxiləsi nə dərəcədə realdır? Onlar daxili müxalifəti dəstəkləyə bilərmi? Əlbəttə ki, bunlar Azərbaycan üçün ciddi əhəmiyyət kəsb edən, bizi maraqlandıran və narahat edən suallardır. Sülh sazişi imzalanana qədər bütün açıqlama və bəyanatlar ritorik və heç bir faydası olmayan ifadələrdir. Elə əsas reallıq da bundan ibarətdir.

### Ekspert rəyi



**Tofiq ABBASOV,**
**siyasi icmalçı**

– Bəli, Ermənistan baş nazirinin bu açıqlamasında həqiqət payı var. Hələ SSRİ dağılana qədər Dağlıq Qarabağda millətçilik dalğası qalxmış, hətta orada azərbaycanlıları şərləyir, haqqını tapdayır, etnik ayrı-seçkiliyə məruz qoyurdular. İndi biz gərək Paşinyanın dediklərini diqdətlə dinləyək və paralellər aparaq. Faktiki olaraq, o, sözün düzünü deyir. Şübhə yoxdur ki, balayanlar, kaputikyanlar, igityanlar sovetlər dövründə fəaliyyət göstərən müxtəlif yaradıcılıq ittifaqlarının rəhbərləri idilər. Onların millətçilik aksiyalarında ön cərgədə getmələri təsadüf deyildi. Qarabağın Azərbaycandan qoparıb Ermənistana verilməsini ən ucadan bağıran məhz onlar idilər. MKİ-nin sovet hökumətini milli evlərə parçalamaq planı baş tutdu. Elə ilk qığılcım da Qarabağda alışdırıldı. Ardınca torpaqlarımızın işğalı başlandı. Hələ 1998-ci ildə Ermənistanın ilk prezidenti Levon Ter-Petrosyan Azərbaycanla danışığa getməyin vacibliyini anlayır, sülh üçün ortaq məxrəc axtarırdı. O, millətçilik dalğasının acı aqibətini görürdü.

Birmənalı şəkildə deyə bilərəm ki, əgər üçüncü qüvvənin köməyi olmasaydı ermənilər heç vaxt Qarabağı ala bilməyəcəkdilər. 366-cı motoatıcı alay, Pskov desant qüvvələrinin birləşmələri döyüşlərə cəlb olunmasaydılar, cəbhədə fərqli vəziyyət yaranardı. Bu mənada Levon Ter-Petrosyan anlayırdı ki, onlar müharibəni deyil, döyüşü udublar. Amma Koçaryan və Sarkisyan kimi "Qarabağ quzğunları" sülh dalğasını əllərinə alıb bütün erməni xalqını aldatdılar. Bununla da erməni dövləti və xalqı üçün uçuruma gedən yolu müəyyən etdilər. Axırını da gördük.

Bəli, ermənilər "Qarabağ kartı"nın girovuna çevrildilər. Artıq Paşinyan bunu anlayıb və bu gün deyir ki, Ermənistanı inteqrasiyadan, transmilli nəqliyyat marşrutlarından məhrum edən məhz qondarma Qarabağ məsələsi olub. Yəni, özlərini strateji təkliyə məhkum etdilər. Nikol Paşinyan başa düşdü ki, bu yolun sonu yoxdur. Bu mövqeyinə görə, başladığı inqilabı başa çatdırması üçün ona dəstək verməliyik.

# Oskanyanın tükənməyən xülyaları

## *İrəvanı dalana salmış siyasətin həmmüəllifi susmaq bilmir*

**Ermənistanda Azərbaycanla münasibətlərin normallaşmasına, sülhün və dövlətlərarası münasibətlərin təsis olunması haqqında sazişə qarşı çıxanlardan biri də keçmiş xarici işlər naziri Vardan Oskanyandır. O, Nikol Paşinyan iqtidarının sülh gündəmini tez-tez kəskin tənqid edir. İddia edir ki, hazırkı hökumət Azərbaycanla danışıqlarda milli maraqları güzəştə gedir. Onun fikrincə, imzalanacaq saziş Ermənistanı daha da zəiflədib regiondakı mövqelərini itirməsinə gətirib çıxaracaq. Keçmiş nazirin ritorikasında revanşist notlar açıq şəkildə hiss olunur. Bu baxımdan Oskanyanın çıxışları müxalifət düşərgəsinin radikal qanadına əlavə stimul verir.**



Sabiq nazir bugünlərdə sosial şəbəkə hesabında yenə oxşar fikirlərlə çıxış edib. Onun sözlərinə görə, Azərbaycan öz məqsədlərinə nail olub və nə qədər ki, Paşinyan hakimiyyətdədir, Nikolun nə deyib-deməməsindən asılı olmayaraq, nail olmaqda davam edəcək. Oskanyan Paşinyanın Ermənistan SSR Ali Sovetinin 1990-cı il avqustun 23-də qəbul etdiyi Müstəqillik Bəyannaməsinin 35-ci ildönümü ilə bağlı müraciətini ziddiyyətli və absurd adlandırıb: "Nikol Paşinyan dünən yenə də "Artsax" haqqında danışdı. Özünün fəlakətli qərarlarına boş yerə haqq qazandırmağa çalışdı. Son illərin hadisələri ilə tanış olan hər kəsə aydındır ki, bizim itkilərimizin əsas səbəbi Paşinyanın tam səriştəsizliyidir. Onun 2020-ci il müharibəsinə qədər güzəştlərin Ermənistan üçün daha zərərli olacağı ilə bağlı iddiası tamamilə absurddur. Azacıq şübhə yoxdur ki, Paşinyan 2020-ci ilin sentyabrına qədər lazımi güzəştləri etsəydi, minlərlə erməni gənci bu gün sağ olardı. "Artsax" və Laçın ermənilərin olaraq qalacaq, sülh sazişi bağlanacaq, sərhədlərimiz, kommunikasiyalarımız isə açıq olacaqdı. Bunun əvəzində onun ziddiyyətli bəyanatları və ehtiyatsız diplomatiyası Ermənistanı dağıdıcı müharibəyə sürüklədi və bizi bütün cəbhələrdə məğlubiyyətə uğratdı. "Niyə 2008-ci ildə bunu etmədiniz?" sualına gəlincə, deyim ki, biz hadisələrin belə bir inkişaf perspektivini görsəydik, mütləq müvafiq tədbirlər görərdik".

Sabiq nazir yalnız Paşinyanın siyasətdən getməzdən əvvəl danışmağı dayandıracağını ümid etdiyini bildirib: "Onun sözləri uzun müddətdir ki, Ermənistan üçün ən böyük yük olub, daim milli təhlükəsizliyi sarsıdır və böyük ziyan vurur. Onun verdiyi ziddiyyətli və absurd bəyanatlar Azərbaycanın mövqeyini dönə-dönə gücləndirməklə Ermənistanı fəlakətli nəticələrə gətirib çıxarır. İndi, demək olar ki, hər şey güzəştə gedildikdən sonra onun sözləri strateji baxımdan heç bir önəm daşımır. Onun sözləri xalqın əzablarını daha da artırır, bizə daim xatırladır ki, bütün itkilərimizin qarşısını almaq olardı".

***

Ermənistanın sabiq XİN başçısının son açıqlaması bir daha göstərir ki, o, siyasi fəaliyyətində reallıqdan uzaq mövqe tutmaqda davam edir. Oskanyanın Azərbaycanla münasibətlərin normallaşması istiqamətində atılan addımları qəti şəkildə rədd edərək, bütün təqsiri Paşinyanın üzərinə yıxmağa çalışması özü absurddur. Çünki 30 ilə yaxın davam edən işğalçılıq siyasətinin və Ermənistanın regional inkişafdan təcrid olunmasının təqsirkarı yalnız indiki iqtidar deyil, məhz Oskanyanın da daxil olduğu keçmiş hakimiyyətlərdir. Onların illərlə yürütdüyü yanlış kurs nəticəsində Ermənistan həm beynəlxalq təcridə məruz qaldı, həm də müharibənin qaçılmazlığını özü üçün hazırladı. Bu baxımdan Oskanyanın bugünkü sərt çıxışları daha çox öz məsuliyyətini gizlətmək təsiri bağışlayır.

O iddia edir ki, guya, Paşinyan 2020-ci ilə qədər güzəştlərə getsəydi, Hayastan indiki vəziyyətə düşməzdi. Əslində isə məhz Oskanyanın da xarici siyasət idarəsinə rəhbərlik etdiyi dövrlərdə Ermənistan hakimiyyətləri hər dəfə danışıqlardan qaçaraq qeyri-real tələblər irəli sürürdülər. Onlar Azərbaycan torpaqlarının işğal altında saxlanılmasını əbədi etmək niyyətində idilər. Nəticədə, danışıqlar prosesi çıxılmaz vəziyyətə salındı və bölgədə hərbi toqquşmaların baş verməsi qaçılmaz oldu. Oskanyanın bu gün Paşinyana qarşı səsləndirdiyi ittihamlar, əslində, onun öz siyasi irsinin iflasını ört-basdır etmək üçündür. Çünki Ermənistanı fəlakətə aparan xətt təkcə Paşinyanın deyil, həm də ondan əvvəlki rəhbərlərin səhvlərinin nəticəsi idi.

Oskanyan bir tərəfdən danışıqlarda vaxtında güzəştə gedilmədiyindən gileylənir, digər tərəfdən isə Azərbaycanla sülh sazişinə qarşı çıxır. Bu onu göstərir ki, Vardan və onun kimi düşünənlər üçün sülh heç vaxt məqsəd olmayıb. Onların əsas qayəsi Ermənistan cəmiyyətini yenidən köhnə xülyalarla yaşatmaq, revanşist qüvvələri fəallaşdırmaq və bölgəni yeni gərginliklərə sürükləməkdir. Oskanyan "Artsax və Laçın ermənilərin olaraq qalacaqdı" kimi iddialar irəli sürür, lakin 44 günlük Vətən müharibəsi və birgünlük antiterror tədbirləri tamamilə başqa mənzərəni ortaya qoydu.

Sabiq nazirin əsas arqumenti bundan ibarətdir ki, Paşinyanın sözləri Ermənistan üçün təhlükə yaradır. Əslində, Ermənistanı təhlükəyə atan məhz Oskanyanın təmsil etdiyi köhnə siyasi elitadır. Onlar ölkəni regional əməkdaşlıqdan təcrid edib, qonşularla düşmənçilik siyasətini dövlət strategiyasına çeviriblər. Bu siyasətin nəticəsində Ermənistan iqtisadi böhranlara sürüklənib, demoqrafik itkilər yaşayıb və yüz minlərlə vətəndaşı ölkəni tərk etmək məcburiyyətində qalıb. İndi isə Oskanyan həmin səhvlərin məsuliyyətini boynundan atmaq üçün bütün diqqəti Paşinyanın üzərinə yönəldir. Bu isə heç bir ölçüyə sığmır.

Oskanyan və onun kimiləri Paşinyanı tənqid etməklə, əslində, öz məsuliyyətlərini gizlədirlər. Ancaq Ermənistan ictimaiyyəti artıq yaxşı anlayır ki, bu gün sülhün alternativi yoxdur. Kim bunu qəbul etmirsə ölkənin gələcəyini riskə atır. Oskanyanın çıxışları isə bütövlükdə, onun dedikləri, sadəcə, siyasi utopiya olmaqla yanaşı, Ermənistan cəmiyyətini reallıqdan uzaqlaşdırır.

**Politoloq İlyas Hüseynov** XQ-yə açıqlamasında bildirdi ki, Oskanyan Paşinyanın



yürütdüyü siyasətə dair tənqidi fikirlər səsləndirməklə gündəmdə qalmaq niyyətindədir. Onun sözlərinə görə, Robert Koçaryan dövrünün xarici işlər naziri kimi həmin düşərgə ilə birgə tarixin zibilliyinə atılmış, heç kəsin fikirlərinə önəm vermədiyi sabiq nazir özünü aktuallaşdırmağa çalışır: "Oskanyanın yanaşması təxminən "mən də gündəmi izləyirəm və fikir bildirə bilərəm" tipindədir. Ancaq onun mövqeyi qeyri-sağlam mövqedir və yalnız Paşinyanın mövqeyini tənqid etməyə yönəlib. Məlumdur ki, Ermənistan vaxtilə Azərbaycanın şərtlərini qəbul etsəydi, bu ölkə üçün daha münasib nəticələr ola bilərdi. Lakin Paşinyan ziddiyyətli bəyanatlar səsləndirməyə başladı. Azərbaycanın işğal edilmiş ərazilərini Ermənistana birləşdirməyə cəhd etdi. Xatırlatmaq yerinə düşər ki, Paşinyan 2020-ci ildə Vətən müharibəsindən öncə Azərbaycana müxtəlif şərtlər təqdim etmək niyyətində idi. Keçmiş qondarma separatçı rejimin tərəf kimi danışıqlarda iştirakına ümid edirdi. Lakin bu gün tamamilə başqa reallıq var. Bu gün ərazi bütövlüyümüz və Azərbaycanın bütün ərazisində suverenliyimiz təmin olunub. İşğaldan azad olunmuş ərazilərdə genişmiqyaslı bərpa-quruculuq işləri gedir. Prezident İlham Əliyev avqustun 21-də Kəlbəcər şəhərinə və Ağdərə rayonunun Vəngli və Kolatağ kəndlərinə köçən keçmiş məcburi köçkünlərlə görüşü zamanı çox mühüm mesajlar verdi".

İ.Hüseynov bildirdi ki, Vaşinqton görüşünün sülh istiqamətndə çox mühüm irəliləyiş hesab edilməsinə baxmayaraq Prezident İlham Əliyev görüş zamanı ölkəmizin təhlükəsizliyinin və müdafiə qabiliyyətinin artırılmasına diqqət çəkdi: "Dövlətimizin başçısı bildirdi ki, bizim çox güclü orduya malik olmağımız lazımdır və müasir silah-sursat, hərbi texnika alışı davam etdirilir. Azərbaycan güclü olmalıdır ki, Vardan Oskanyan kimi siyasətbazlar nə vaxtsa, hansısa situsiyada təhlükəsizliyimizə təhdid yaratmaq fikrinə düşməsinlər. Oskanyan və onun kimi şəxslər revanşizm barədə düşünməsinlər. Ermənistandakı radikal kütlələr və ölkənin reallıqlarından qopmuş, fərqli cəmiyyətlərdə yaşayan diaspor nümayəndələri Cənubi Qafqazda təhlükə törətmək niyyətində olmasınlar. Biz təhlükəsizliyimizi təmin etmək üçün güclü olmalıyıq".

Politoloq onu da bildirdi ki, V.Oskanyan xarici işlər naziri olduğu dövrdə danışıqlar prosesində Azərbaycanın şərtlərini qəbul etmişdi: "Ümid edirəm ki, ATƏT-in keçmiş Minsk qrupu çərçivəsində aparılan danışıqlar Oskanyanın yaxşı xatirindədir. Sadəcə olaraq, bu gün Ermənistan cəmiyyətində baş verən proseslər fonunda özünə dividendlər qazanmaqla siyasi hakimiyyəti tənqid edir ki, bu da tamamilə sülh prosesinin əleyhinədir. Vaşinqton razılaşmalarının və sülhün heç bir alternativi yoxdur. Bunu Ermənistandakı bütün revanşist qüvvələr, "beşinci kolon"un nümayəndələri yaxşı bilməli və yadda saxlamalıdırlar".

***Səxavət HƏMİD***
***XQ***

*Üzeyir bəy Hacıbəyli – 140*

# Dahi bəstəkar ana dilimizin də himayədarı idi



**Zaman-zaman Azərbaycanın dahi şəxsiyyətləri, böyük söz, sənət xadimlərimiz müqəddəs ana dilimizin qorunması yolunda böyük işlər görüb, mübarizə aparıblar. Belə şəxsiyyətlərdən biri də dünya şöhrətli dahi bəstəkar, mahir publisist, dramaturq, pedaqoq, alim, akademik, ictimai xadim, xeyirxah insan Üzeyir Hacıbəylidir.**

Üzeyir bəy bütün həyatı boyu ana dili məsələlərinə xüsusi diqqət yetirmiş, yorulmadan mübarizə aparmış və silsilə məqalələr yazmışdır. Böyük dühanın əqidəsincə, bir millətin varlığının əsas amili onun dilidir. Ona görə də bütün xalq və ilk növbədə də ziyalılar, alimlər doğma dilini qorumağı bacarmalı, inkişafına nail olmalı, onu yad ünsürlərdən hifz etməlidirlər.

Böyük ziyalı öz məqalələrində dəfələrlə ana dilimizin saflığı məsələsinə, bu dilin yad sözlərdən təmizlənməsinə, sırf Azərbaycan türkcəsi olmasına çalışıb. Bu xüsusda onun "Bir xanım əfəndinin bizlərə hüsni - təvəccöhi" məqaləsi maraqlıdır. 20 yaşlı mühərrir bu məqaləni 1905-ci il 10 sentyabr tarixli "Həyat" qəzetinin 62-ci sayında "Üzeyir" imzası ilə dərc etdirib. Burada gənc jurnalist "Peterburqskiye vedemosti" qəzetində Maqda Neyman adlı bir yazarın ana dilimiz əleyhinə böhtanına öz nifrətini bildirib, ona kəskin cavab verib.

Növbəti ildə ana dilinin tədrisi zərurətini irəli sürən Üzeyir bəy Hacıbəyli bir-birinin ardınca 3 məqalə yazıb. Bu məqalələr "Hansı vasitələr ilə dilimizi öyrənib kəsbi-maarif etməliyik" sərlövhəsi altında "İrşad" qəzetinin 1906-cı il 15, 16, və 20 fevral tarixli saylarında "Üzeyir bəy Hacıbəyov" imzası ilə dərc edilib. Həmin yazılarında Üzeyir bəy ana dilini bilməyənləri istehza ilə "zavallı" adlandırır və bu qisim insanlara ana dilini öyrənmək üçün yollar göstərib. Və bir daha xüsusi olaraq vurğulayıb ki, "...Avropa dillərinə vaqif olan zat, öz dilini də mükəmməl surətdə bilsə, hər bir cəhətdən millətə artıq nəf gətirər".

Təbii ki, Üzeyir bəy heç vaxt çox dil bilməyin əleyhinə olmayıb. Lakin öz doğma dilini bilməyib ərəb, fars, rus, ingilis, fransız dillərində "bülbül kimi ötənlərə" istehza ilə gülüb, buna qarşı barışmaz olub. Böyük sənətkar özü Azərbaycan dilini, təhsil aldığı rus dilini bütün incəlikləri ilə bilməklə yanaşı, bir neçə dilə – ərəb, fars, türk, tatar, gürcü, ləzgi, fransız dillərinə də bələd olub, bu dillərdə sərbəst danışıb. Ona görə də dil məsələsinə tez-tez müraciət edib, Azərbaycan türkcəsini mükəmməl öyrənmək üçün xalqına faydalı məsləhətlər verib.

Üzeyir bəy özünün "Üsuli-təbii" (Müəllim Əli cənablarına müxtəsər cavab) yazısında qeyd edirdi: "Qafqazda türk dilini mükəmməl bilənlərdən Əli bəy Hüseynzadə cənabları dəfələrlə qəti surətdə elan etmişdir ki, türk dilində "hansı ki", "hansılar ki" sözü yoxdur. Mən də deyirəm ki, bu sözü tərcümə üsulu ilə dərs verən müəllimlər rusun "kotorıy" kəlməsini tərcümə etmək üçün özlərindən çıxardıblar, onun istemalı lüzumsuz bir ağırlıqdır".

Qəribədir ki, qeyd etdiyimiz bu fikirlərin üstündən bir əsrdən çox zaman keçməsinə baxmayaraq, bu gün də həmin ifadələr işlənir. "Belə deyək" kəlməsi də o qəbildən olan bir ifadədir. Belə çıxır ki, söz sərrafları olan ustadlarımızın bizim üçün örnək ola biləcək fikirlərini qulaqardına vurmuşuq.

Üzeyir bəy Hacıbəyli "Tərəqqi", "Həqiqət" və "İqbal" qəzetlərindəki məqalələrində bu məsələlərdən geniş bəhs edib. Məsələn, "Dilimizi korlayanlar" məqaləsində dili xətalı axundla artisti bərabər qoyaraq yazırdı:

"Axund belə danışır : –Zamani ki, mən burada əklətmişəm, hərgah bir şəxs ki, onun zahiri və batini mənə məlum olmayan surətdə qapıdan daxil olub içəri girdi və mənə salam verdi, hansı ki, mənə aiddir və yainki, aid dögül, onda yəqinlik hasil etmək xaric əz məkandır, mənə fərzdir ki, mən onun salamının cavabında deyəm ki, əleykəssalam!

Axund belə demək istəyir ki, tanımadığın bir adam sənə salam versə, salam almaq sənə borcdur. Amma farsdan tərcümə eləyir, dilimizin sərf-nəhvini bilmir, ona görə də mətləb dolaşıq düşür...

Artistlər də bizim dilimizi bu sayaq korlayırlar: "Bu gün Tağıyevin teatrında oynanılacaqdır suznaq bir faciə " Gaveyi - ahəngər ". Fasilələrdə çalacaq tarzən və oxuyacaq xanəndə, filanın rolunu oynayacaq məşhur filan artist"...

Uşaq bazara gedib qoz alır və evə qayıdıb anasına deyir ki, "Ana, bazardan qoz aldım". Amma artist bazardan qoz alıb qayıtsa, anasına belə deyər: "– Ana , bazardan aldım qoz". Teatrlar üçün yazılan elanları savadlı bir adama həvalə etsəydilər, çox əcəb olardı".

Üzeyir bəy Hacıbəyli fəaliyyəti boyu dilimizin təmizliyi, səlistliyi, sadəliyi, yad sözlərdən qorunması yolunda mübarizə aparmış, müxtəlif üsullardan istifadə edərək onu xalqa çatdırmışdır. Böyük mütəfəkkir yazırdı: "Dilimizin firəng dili Yevropada olan kimi, bütün Qafqazda ümumi bir dil olduğunu, məsələn, bir ləzgi ilə bir erməninin və ya bir malakan ilə bir aysorun bir-biri ilə türk – Azərbaycan dili ilə danışmağa məcbur olduğunu (Yevropaya və müttəfiq dövlətlərə ) isbat etməliyik. ("Azərbaycan" qəzeti, 1 dekabr 1918-ci il).

Böyük ziyalı olan Üzeyir bəy 1920-ci ildə "Azərbaycan" qəzetində "Çı" imzası ilə dərc etdirdiyi "Zurna" adlı felyetonunda ana dili məsələsinə belə toxunurdu: "Anama dedim ki, gəl səni aparım parlamana. Dedi: Parlaman nədir? Dedim: Parlaman, yəni məclisi-məbusan. Dedi: Məclisi-məbusan nədir? Dedim: O bir məclisdir ki, orada məmləkətimiz üçün qanunlar düzəldirlər və ondan başqa hər nə böyük və kiçik qulluqçularımız var, hamısının əməllərinə baxırlar. Dedi: Ona bizdə divanxana deyirlər. Dedim: Sən deyən olsun, getdik və arvadlara məxsus olan lojalardan tamaşaya başladıq".

Dialoq bu qaydada xeyli davam edir və suallarının cavabından heç nə anlamayan ana eşitdiyi qəliz söz və ifadələrin öz doğma dilində sadə və daha anlaşıqlı qarşılığını misal gətirir. Müəllif sonda yazır: "Gördüm ki, anam çox bilicidir, dedim, ay ana, kaş ki, sən mənimlə bütün idarələrimizin hamısını gəzib, hər kəsə özünə görə ad qoyaydın və bizə ana dili öyrədə idin..."

Üzeyir bəy öz bədii əsərlərində – istər "Ər və arvad", "O olmasın, bu olsun", "Arşın mal alan" operettalarında, istər operalarına yazdığı librettolarda, istərsə də publisistik yazılarında ana dilimizin bütün qanunlarına riayət etmiş, onun gözəlliyini, zərifliyini qoruyub saxlamış, hətta bəzi kəlmələrlə, məsələn "Heç hənanın yeridir!", "Tarixi-Nadiri yarıya qədər oxumuşam", "O olmasın, bu olsun", "Bir nəfər molla, üç manat pul, bir kəllə qənd", "Pulun var, gələrəm", "Bəs mənim bir abbasım?", "Əşi, siz gəlini gətirəndə bir baxmadınız görək, bu kişidir, yoxsa arvaddır?", "Mən dul, sən dul" və sair bu kimi zərb-məsələ dönmüş ifadələrlə dilimizi zənginləşdirib.

1977-ci ildə Almaniyada yaşayan Cənubi Azərbaycandan olan soydaşımız Eldost tərəfindən Üzeyir bəy Hacıbəylinin həyat və fəaliyyətindən bəhs edən kitab işıq üzü görüb. Orada Eldost yazır ki, "Məşədi İbad" əsəri Azərbaycan dilinin şirin, mənalı, gözəl ifadələri və məsəlləri məcmuəsidir. Bu ifadələr bir tərəfdən dilimizin zəngin, mükəmməl bir dil, o biri tərəfdən isə Üzeyir Hacıbəylinin xalq dilinə bağlı və yüksək qələm sahibi olmasını nümayiş etdirir.

Ümumiyyətlə, böyük sənətkarımız, eyni zamanda, Azərbaycan dilinin sərrafı olan qüdrətli bir dilçi idi. Sankt-Peterburq İncəsənət Tarixi İnstitutunun professoru Yevgeni Braudo Üzeyir bəy Hacıbəylini "xalq musiqisinin böyük dilçisi" adlandırıb.

Üzeyir bəy həm də ədəbiyyatımızın azman dilçisi idi. Ana dilimizi müqəddəs bilərək onun keşiyində ayıq-sayıq dururdu. Dilimizlə bağlı bütün yazıları oxuyurdu. Ona xələl gətirə biləcək mətləblərin qarşısını vaxtında alırdı.

Bu barədə akademik Məmməd Arif Dadaşzadənin dediklərindən: "Bir dəfə S. Rəhimovun dilini tənqid etmişdim. Məqalə çıxandan sonra mənə dedilər ki, Üzeyir bəy səni axtarır, ona zəng elə. Mən bir qədər təşvişə düşdüm. Görəsən, Üzeyir bəy məni nə üçün axtarır? – deyə düşündüm. Zəng vurdum, dedi ki, Arif, bir mənim yanıma gələrsən. Getdim, içəri girəndə gördüm ki, mənim məqaləm onun stolunun üstündədir. S.Rəhimovun dilindən gətirdiyim sözlərin altından qırmızı qələmlə xətt çəkmişdi. Salamlaşdıq, oturdum. Dedi ki, məqalən pis deyil, xoşuma gəldi. Amma S. Rəhimovun dilindən gətirdiyin sözlərlə səninlə razılaşmaq çətindir. Əgər sən Bakıda və onun ətraf kəndlərində az işlənən, lakin rayonların bir çoxu üçün xarakterik olan bu sözlərin əleyhinə gedirsənsə, bununla da ədəbi dilimizi yoxsullaşdırmırsanmı? Bəs az işlənən və işlənilməyən bu sözləri yazıçılarımız bədii əsərlərdə işlətməsələr, necə olar? Mən razılaşdım və səhvimi başa düşdüm" (Ələkbər Məmmədov, "Nur karvanı" kitabı, Bakı - 2003, səh. 138).

Bəzən Üzeyir bəy Hacıbəylinin həyat fəlsəfəsi insanı yaxşı mənada heyrətləndirir. 63 il yaşamış bir şəxs bu qədər işin öhdəsindən necə gəlmişdir? –deyə düşünürsən. Və belə qənaətə gəlirsən ki, doğrudan da, onda peyğəmbər qüdrəti varmış. Əks halda adi insan onların öhdəsindən gələ bilməzdi. Dahi insan dahiyanə işlər görmüş, məşğul olduğu bütün sahələrə olduğu kimi, dilçilik elmimizə də öz əvəzsiz töhfələrini vermişdir.

***Səadət QARABAĞLI,***
***üzeyirşünas***

*Fikrət Qoca – 90*

**Məlum olduğu kimi, Prezident İlham Əliyev Xalq şairi, Dövlət mükafatı laureatı Fikrət Qocanın anadan olmasının 90 illiyi haqqında sərəncam imzalayıb. Ötən əsrin 60-cı illərində Azərbaycan poeziyasına yeni ovqat gətirmiş novator şair kimi tanınan Fikrət Qoca yaradıcılığında milli şeir ənənələrinə və dünya bədii fikrinin nailiyyətlərinə söykənən söz ustalarındandır.**

# Məna dərinliyinin poeziyası

Çağdaş Azərbaycan poeziyasının parlaq simalarından biri, geniş fəlsəfi dünyagörüşünə, milli və bəşəri özünədərki, sənətkarlıq xüsusiyyətləri ilə seçilən şair



Fikrət Qocanı 5 il əvvəl cismən itirsək də, o mənəvi olaraq daim bizim aramızdadır. Çünki bir mütəfəkkir kimi hədəfi düz nişan alan söz sərrafı, saf insani duyğu və düşüncələrin şəffaf tərcümanı kimi özünə könüllərdə işıqlı abidə ucaldıb.

Fikrət Qoca 1935-ci il avqustun 25-də Ağdaş rayonunun Kotanarx kəndində anadan olub. Ədəbi yaradıcılığa kiçik yaşlarından meyil göstərib. Moskvada Maksim Qorki adına Dünya Ədəbiyyatı İnstitutunu bitirib. Şeirləri 1956-cı ildən mətbuatda çap edilməyə başlanıb. Azərbaycan Radio və Televiziya Verilişləri Komitəsində, "Azərbaycan gəncləri" qəzetində, "Azərbaycan" jurnalında, Yazıçılar Birliyində fəaliyyət göstərib, qurumun 1-ci katibi olub. "Əməkdar incəsənət xadimi" və "Xalq şairi" fəxri adlarına, "Şöhrət", "Şərəf" və "İstiqlal" ordenlərinə, Dövlət mükafatına və "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu"na layiq görülüb.

Şairin məhəbbət mövzulu şeirlərinin hər biri sirlə dolu qönçə təsiri bağışlayır:

**Məhəbbətdə taleyin öz nuru var,**
**Gözəl arzu, saf niyyətdi məhəbbət!**
**Var-dövləti neyləyirsən, bəxtəvər,**
**Tükənməyən var-dövlətdi məhəbbət!**

Onun çap olunmuş kitablarında vətənpərvərlik duyğuları, insan və zaman haqqında düşüncələri fəlsəfi-poetik vəhdətdə öz əksini tapıb. Dünyanın bir çox ölkəsində yaradıcılıq səfərlərində olub, həmin ölkələrdə gedən milli azadlıq hərəkatlarına şeirlər həsr edib və üstüörtülü də olsa, milli azadlıqla bağlı arzularını ifadə edib. Nəhayət, 1990-cı illərdə yazdığı "Oddan keçənlər", "İnsan səviyyəsi", "Adi həqiqətlər" və s. poemalarında Azərbaycanda gedən azadlıq mübarizəsindən, necə deyərlər, açıq mətnlə bəhs edib. Onun bir sıra nəsr əsərləri də var. "Ölüm ayrılıq deyil", "Hələlik, – qiyamətədək" povestlərində 1990-cı ilin 20 Yanvar hadisələri öz əksini tapıb.

Fikrət Qocanın M.Lermontov, T.Şevçenko, E.Mejelaytis, İ.Volker, X.Risal, İ.Taufer və başqalarından tərcümələri var. Əsərləri bir sıra xarici dillərə tərcümə olunub.

Şairin duru və axıcı şeirlərinə bəstəkarlar gözəl musiqilər bəstələyiblər. Bu gün də dillər əzbəri olan "Anacan, dostum evlənir", "Könlüm", "Günay", "Gəl ey səhər", "Çiçək tapa bilmədim", "Gecə yaman uzundur", "Payız gəldi" və sair mahnıları yada salmaq kifayətdir. Həmısını da xalqın sevimlisi olan tanınmış müğənnilər öz repertuarlarına daxil ediblər.

Fikrət Qocanın "Qağayı", "Hamıya borcluyam", "Stixi", "Dənizdə ay çiməndə", "Od gəlini", "Yatmadığım gecələrdə", "Günlərin bir günü", "Gül ömrü", "İnsan xasiyyəti", "Ömürdən səhifələr", "Mavi dünyanın adamları", "Taleyin ağır taleyi", "Seçilmiş əsərləri", "Eldən elə – dildən dilə", "Sükutun səsi" və s. kitabları oxucuların ixtiyarına verilib və sevə-sevə oxunub.

...Onunla ilk görüşümüz, səhv etmirəmsə, 1981-ci ildə "Azərbaycan" nəşriyyatında – Vaqif İbrahimin rəhbərlik etdiyi Gənc Yazıçıların Respublika Ədəbi Birliyində keçirilən müzakirələr zamanı olub. Gənclərin şeirlərini səbrlə dinləyən şair dəyərli fikirlərini söyləyib, tövsiyələr verib. Növbəti görüşümüz 1 il sonra Fikrət Qocanın "İnsan xasiyyəti" kitabının Dövlət mükafatına təqdim olunması ilə əlaqədar Sumqayıtda, Kimya Sənayesi İstehsalat Birliyində baş tutub. Xatırlayıram ki, qələmdaş və dostları Salam Qədirzadə, İshaq İbrahimov, Pənah Xəlilov, Vaqif İbrahim çözəl çıxışlar etdilər. Çoxtirajlı "Kimyaçı" qəzetinin əməkdaşı və gənc şair kimi mənə də söz verildi və şairin kitabı haqqında təəssüratlarımı bölüşdüm. Şairin baxışlarında hiss etdim ki, çıxışımdan razı qalıb. Görüşdən sonrakı çay süfrəsi arxasında söhbətdə də bunu məxsusi qeyd etdi.

Fikrət Qocanın yaradıcılığının əsasında dayanan yeni fikir, yeni ahəng uğrunda apardığı mübarizə diqqəti cəlb edir. Bu, o deməkdir ki, onun yaradıcılığında ənənə və novatorluq məxsusi çaları ilə üzə çıxıb. F.Qoca şeirləri heca vəznində yaratsa da, onun sərbəst düşüncələrində qafiyə axtarışı kənarda qalıb. Bu keyfiyyətlər yaradıcılığında təbii və səmimi şəkildə üzə çıxdığı üçün diqqətəlayiqdir.



Xalq şairi Fikrət Qoca 2021-ci il mayın 5-də, 85 yaşında vəfat edib və Fəxri xiyabanda dəfn olunub. Çətin şair taleyi yaşamış istedad sahibi bir zaman bu barədə belə yazmışdı:

**Dünyanın ən ağır yolu gecədir,**
**Dünyanın ən böyük sevinci səhər.**
**Mənim çətinliyim mən ölüncədir,**
**Sonrası? ...sonrası hər şey düzələr.**

Bir qədər bədbin ruhlu olsa da, düşünürük ki, çətin sınaqlarla dolu olan ömür ləyaqətli insanlar üçün ölümdən sonrakı xatirələr adasında davam edir. Bu mənada Fikrət Qoca əsərlərində və xatirələrdə yaşayır, müasirimiz olmaqda davam edir.

***Ə.DOSTƏLİ***
***XQ***

# Azad Qarabağda əks-səda verən muğam





**Heydər Əliyev Fondunun dəstəyi, Mədəniyyət Nazirliyinin və Azərbaycan Televiziyasının təşkilatçılığı ilə ərsəyə gələn IX "Muğam" Televiziya Müsabiqəsinin final mərhələsi Laçın şəhərində keçirilib.**

Tədbirdə Azərbaycan Prezidentinin köməkçisi Anar Ələkbərov, Prezident Administrasiyasının humanitar siyasət məsələləri şöbəsinin müdiri Fərəh Əliyeva, Prezidentin Laçın rayonunda xüsusi nümayəndəsi Məsim Məmmədovla yanaşı, ölkənin ədəbi-ictimai xadimləri, incəsənət nümayəndələri və Laçın rayon sakinləri iştirak ediblər. Müsabiqənin final mərhələsində öz məharətini göstərmək üçün 12 iştirakçı seçilib. Onlar yaşı 8-dən 30-a qədər olan yeniyetmə və gənclər arasından 11 mərhələ keçərək finala yüksəliblər.

Münsiflər heyətinin üzvləri arasında Mələkxanım Əyyubova, Mənsum İbrahimov, Nəzakət Teymurova, Sərdar Fərəcov, Vamiq Məmmədəliyev, Əməkdar mədəniyyət işçisi İlqar Fəhmi təmsil olunurlar.

İlk təəssüratlar zəngindir. Xalq artisti Mələkxanım Əyyubova: "Belə müsabiqələrin işğaldan azad olunmuş torpaqlarımızda keçirilməsi olduqca qürurvericidir. Təşkilatçıların səyi ilə ərsəyə gələn muğam müsabiqəsi muğam ifaçıları, gənclərimiz üçün bir cığır, gözəl bir yol açır. Gənclərimiz muğamları doğru-düzgün mənimsəyir, ustadlardan dərs alırlar, klassik muğamlarımıza yiyələnirlər. Müsabiqədə iştirak edən gənclər bizim gələcəyimizdir"

Xalq artisti Mənsum İbrahimov: " Allah bütün şəhidlərimizə rəhmət eləsin. Bu gün biz həqiqətən o qələbənin hissini yaşayırıq. Müsabiqə iştirakçıları ələnə-ələnə gəlib, ən yaxşıları finala çıxıb. Heydər Əliyev Fonduna, xüsusi olaraq Mehriban xanım Əliyevaya təşəkkür edirəm. Gənclərimiz, bütövlükdə mədəniyyətimiz üçün xeyirli, uğurlu olsun!".

Bir-birindən gözəl səslərin dağlarda əks-səda verdiyi yarışmada müxtəlif muğam və təsniflər ifa edilib. Final mərhələsinin ən həyəcanlı anları qaliblərin adları açıqlanan zaman yaşanıb. 8–16 yaşlı yeniyetmələr arasında 3-cü yerə Kənan Tağızadə, 2-ci yerə Murad Nəbizadə, 1-ci yerə isə Əhəd Ağayev layiq görülüb. 16–30 yaşlı gənclər arasında isə 3-cü yeri Rəis Niftəliyev, 2-ci yeri Nərmin Mirzəyeva, 1-ci yeri isə Aytac Bəybalayeva qazanıb. Fərqlənənlərin hamlısı mükafatlandırılıb.

Qeyd edək ki, "Muğam" Televiziya Müsabiqəsi Heydər Əliyev Fondunun dəstəyi ilə 2005-ci ildən keçirilir. Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın təşəbbüsü və dəstəyi ilə keçirilən muğam müsabiqələri gənc ifaçıların yaradıcılıq potensialının üzə çıxarılmasına, xalq musiqisinin yaşadılaraq yeni nəsillərə ötürülməsinə və Azərbaycanın muğam sənətinin beynəlxalq aləmdə tanıdılmasına mühüm töhfə verib.

***XQ***

*Zəfər yolçuları*

**...Vətən uğrunda canını qurban vermiş şəhid Arzu Əliyevin həyat yoldaşı Rəfiqə xanımla söhbət edirik. "Bir quş kimi uçub getdi" – deyir, bu gün kimi yadımdadır. Axşamüstü evə gəldi. Sabah Əsgəran rayonunun Cəmilli kəndinə gedəcəyik, – dedi. Başqa söz söyləmədi. Mən də heç nə soruşmadım. Bir də nə soruşmalıydım? Birinci dəfə deyildi ki...**

# Döyüşün 13-cü günü...




Qızımız təzə doğulmuşdu. Dörd aylıq idi. Adını özü qoymuşdu – Aynur. Güləgülə deyirdi ki, indən sonra evimizdən ayın nuru heç vaxt əskik olmayacaq.

Elə səhər onu yola salanda da bir neçə addım atıb geriyə döndü. Bir kəlmə "Balamdan muğayat ol", – dedi.

1990-cı il, dekabr ayının 2-si idi. Bu tarixi yaddan çıxarmaq olarmı? Təbii ki, yox.

Çox istiqanlı, mehriban insan idi.

Rəfiqə xanım kövrəlir. Söhbətinə davam edir. Təsadüfən tanış olmuşuq. Şəki – Oğuz avtobusunda. Mən Şəkidə tibb məktəbində təhsil almışam. Bir dəfə avtobusla evə qayıdanda yanaşı oturmuşuq. Bilmişik ki, eyni kənddənik. O da Şəkidə polis şöbəsində işləyirdi.

Bu təsadüfi tanışlıq evliliyin bünövrəsini qoyub. Arzu istəyini anası Firuzə xanıma deyib. Uzun illər tütünçülük briqadiri işləyən Yaqub Əliyev həmkəndlisi Osman kişinin qapısını döyüb. Qızı Rəfiqəni oğlu Arzuya istəyib. 1989-cu ilin avqust ayının birində toy mağarı qurulub. Qol götürüb oynayıblar. Ömrün bu gözəl günü hələ də Rəfiqə xanımın yaddaşından silinməyib. Söhbətimiz zamanı dönə-dönə o günə qayıdır. Gözlərini uzaqlara dikir. Lap yavaşdan dediyi sözü isə mən aydın eşidirəm: "Elə bil göz dəydi".



Nə deyəsən. Taleyin işidir. Dekabr ayının 2-də cəbhəyə yollanan Arzu Əliyev ürəyində vətən sevgisi soyuq qış günlərində xidmət etdiyi polis postunda ləyaqətlə dayanır. Aradan cəmi 13 gün keçmiş "Zil-130" markalı maşında Əsgəran rayonunun Cəmilli kəndindən Kosalar kəndinə gedən zaman yolda erməni işğalçıları ilə qeyri-bərabər döyüşdə həyatını itirir. Ömrünün 27-ci ilində şəhidlik zirvəsinə ucalır. Doğulduğu Padar kəndində torpağa tapşırılır. Bu gün Oğuz rayonunun ilk şəhidi olan Arzu Əliyevi böyük ehtiramla xatırlayır, xatirəsini əziz tuturlar. Oxuduğu kənd məktəbinə onun adı verilib. Oğuz şəhərinin küçələrindən biri bu torpağın qəhrəman oğlunun adını daşıyır. Ailəsi rayon mərkəzində mənzillə təmin olunub.

Bugünlərdə Oğuz Rayon Polis Şöbəsi şəhidin məzarına yeni qəbirüstü abidə qoyub. Onun doğum günündə anım tədbiri keçirilib. Oğuz Rayon Polis Şöbəsinin rəisi, polis polkovnik-leytenantı Fərid Fətəliyev iftixar hissi ilə danışır. Bildirir ki, cəsur polis işçisi, rayonun ilk şəhidi olan Arzu Əliyevin xatirəsi bizim üçün çox əzizdir. Anım günündə ziyalılar, şəhid valideynləri çıxış edib, səmimi, isti sözlər söyləyəndə, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunun 44 gün ərzində ölkəmizin ərazi bütövlüyünü bərpa etdiyini bildirəndə, şəhid və qazilərin göstərdiyi qəhrəmanlığın gənc nəsil üçün örnək olduğunu vurğulayanda dövlətimizin yenilməzliyinin bir daha şahidi olduq.

... Yazıya nöqtə qoymazdan əvvəl ürəyimdən keçdi ki, bir gün Oğuzda olanda mütləq Arzu Əliyevin adını daşıyan həmin küçəyə gedim. Onlarla görüşüb arzu və istəklərinə qulaq asacam. Mənə elə gəlir ki, bu yazı sizi daha da duyğulandıracaq...

***İlqar HƏSƏNOV,***
***XQ-nin bölgə müxbiri***

*26 Avqust Laçın Şəhəri Günüdür*

# Dağlar qoynunda gerçək cənnətdir Laçın!



**Artıq 3 ildir ki, gözəl təbiəti göz oxşayan, laçın kimi vüqalı Laçın şəhəri azadlığın bəxş etdiyi xoşbəxt günlərini yaşayır. 3 ildir doğma yurd nisgilli nəğməkar Məhəbbət Kazımovun, köçkünlükdə əbədi dincliyə qovuşmuş laçınlıların ruhu qartal olub səması aydın Laçının dağlarında süzür. Bir vaxtlar qəzəblə coşan, "qisas!" hayqıran Həkərinin hirsi-hikkəsi soyuyub, nazlı gəlin kimi cilvələnir, əzizlərinə, Laçının geri dönmüş əzəli sakinlərinə həzin-həzin laylay çalır...**

Bu gün Prezident, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin bütün Azərbaycan xalqını sevincə qərq edən, laçınlıların həsrətinə son qoyan növbəti qələbə müjdəsindən 3 il ötür: "Bu gün, avqustun 26-da biz – azərbaycanlılar Laçın şəhərinə qayıtmışıq. Azərbaycan Ordusu Laçın şəhərinə yerləşdi. Zabux və Sus kəndləri nəzarətə götürüldü. Bütün laçınlıları və Azərbaycan xalqını bu münasibətlə təbrik edirəm. Yaşasın Laçın! Yaşasın Azərbaycan!"

Avqustun 26-sı həm də Laçının rəsmi bayram günüdür. Prezident İlham Əliyevin 31 iyul 2023-cü il tarixli "Azərbaycan Respublikasının işğaldan azad edilmiş əraziləri üzrə şəhər günlərinin təsis edilməsi haqqında" sərəncamına əsasən, artıq 3-cü ildir ki, bu gün ölkəmizin hər yerində Laçın Şəhəri Günü kimi təntənəli şəkildə qeyd edilir. Bu tarix təkcə 30 il sonra doğma Laçın həsrəti sona çatmış 80 mindən artıq laçınlı üçün deyil, bütün Azərbaycan xalqı üçün, bütün dünya azərbaycanlıları üçün zəfər dastanının şanlı səhifəsinin yazıldığı bayram ab-havalı, sevinc növraqlı bir gündür.

Azərbaycanın füsunkar guşələrindən olan Laçın rayonu ölkəmizin cənub-qərbində, Kiçik Qafqazda yerləşir. Ərazisi şimaldan Kəlbəcər, cənubdan Qubadlı, şərqdən Xocalı, Şuşa və Xocavənd rayonları, qərbdən isə Ermənistanla həmsərhəddir, 1 şəhər, 1 qəsəbə, 125 kəndi var. Ümumi sahəsi 1835 km metr olan Laçın rayonu 72 min hektar yaylaq sahəsinə və 34 min hektar zəngin meşə massivinə malikdir. Bol su ehtiyatlarına malik rayonun ərazisindən axan Şəlvə və Minkənd çayları birləşərək uzunluğu 113 km olan Həkəri çayını yaradır. 1930-cu il avqustun 8-də təşkil edilən Laçın rayonunun mərkəzi Laçın şəhəridir. 1923-cü ildə Abdallar kənd yaşayış məntəqəsi Laçın adlandırılıb və şəhər statusu alıb.

Böyük strateji əhəmiyyətə malik Laçın rayonu 1992-ci il mayın 18-də Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunmuşdu. Laçının işğalını şərtləndirən təkcə torpaqlarımıza göz dikmiş, havadarlarına arxalanaraq "dənizdən dənizə böyük Ermənistan" xülyası ilə bir-birinin ardınca yaşayış məntəqələrimizə qanlı hücumlar edən, dinc, silahsız mülki insanları qətlə yetirən erməni sepratçılarının məkrli niyyətləri deyildi. Bu işğal həm də həmin vaxt Azərbaycanda hakimiyyət davası aparan, iqtidarı zorla ələ keçirmiş təcrübəsiz, siyasi savadı olmayan, şəxsi mənafeləri naminə, vəzifə üçün hər şeyi, hətta Vətən torpaqlarını qurban verməyə hazır bir dəstənin xəyanətkar əməllərinin nəticəsi idi...

İşğal zamanı Laçın rayonunun əhalisi etnik təmizləməyə məruz qaldı, 300-dən artıq hərbi və mülki şəxs həlak oldu və ya itkin düşdu. Ermənistan silahlı qüvvələri tərəfindən Laçının işğal edilməsi nəticəsində 217 mədəniyyət, 101 təhsil, 142 səhiyyə müəssisəsi, 462 ticarət, 30 rabitə, 133 idarə və müəssisə, 5 musiqi məktəbi, 1 internat məktəbi, 1 orta texniki peşə məktəbi, 2 avtonəqliyyat və müxtəlif təyinatlı istehsal müəssisəsi erməni quldurları tərəfindən talan və məhv edildi, 54 dünya, 200-dən çox yerli əhəmiyyətli tarixi abidə vandalizmə məruz qaldı.



İşğalçı Ermənistan 30 il ərzində Cenevrə konvensiyaları ilə üzərinə düşən öhdəliklərini kobud şəkildə pozaraq, Laçında coğrafi adların dəyişdirilməsi, rayonun təbii resurslarının talan edilməsi, müxtəlif xarici ölkələrdən, əsasən də Suriyadan olan erməniəsilli ailələrin burada məqsədyönlü məskunlaşdırılması və bununla demoqrafik tərkibin dəyişdirilməsi siyasəti aparırdı. Bu kimi əməllər bütün beynəlxalq konvensiyalarda hərbi cinayət kimi təsbit edilir və bu cinayətlər dünya ictimaiyyətinin gözü qarşısında baş verirdi. Ancaq dünya onillər boyu ermənilərin bu insanlıqdan kənar vəhşiliklərini görməzdən gəldiyi üçün tarixi ədaləti Azərbaycan özü öz gücünə bərpa etməli oldu.

Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunun 2020-ci il sentyabrın 27-də Ermənistan silahlı qüvvələrinə qarşı başladığı əks-hücum əməliyyatı cəmi 44 gün sonra ölkəmizin tam qələbəsi və düşmənin rüsvayçı kapitulyasiyası ilə nəticələndi. Beləliklə, Vətən müharibəsində qazandığımız tarixi zəfər sayəsində xalqımızın Qarabağ, Şərqi Zəngəzur həsrəti başa çatdı.

Döyüş meydanlarında ağır məğlubiyyətlə üzləşən mənfur düşmən 2020-ci il 10 noyabr tarixli üçtərəfli Bəyanatı imzalamağa məcbur oldu. Bununla da, dövlət başçımızın diplomatik məharəti, prinsipiallığı, dəmir iradəsi sayəsində Laçın şəhəri, həmçinin rayonun Zabux və Sus kəndləri heç bir güllə atılmadan Azərbaycana təhvil verildi. Sözügedən bəyanata əsasən, Ermənistan silahlı qüvvələrinin birləşmələri 2022-ci il avqustun 26-da Laçın şəhərini həmişəlik tərk etdilər.

Tarixi qələbəmizin ardınca azad edilən torpaqlarda başladılmış misli görülməmiş bərpa-quruculuq işləri, düşmənin xarabalığa çevirdiyi yurd yerlərinin dirçəldilməsi, genişmiqyaslı infrastrukturun qurulması layihələri uğurla reallığa çevrilməkdədir. Bütün bu işlər işğaldan azad olunmuş ərazilərimizin inkişafını daim xüsusi diqqətdə saxlayan Prezident İlham Əliyev birbaşa rəhbərliyi sayəsində reallaşır. Fəxrlə, qürurla söyləmək olar ki, dövlət başçısının tapşırığına əsasən, Qarabağın və Şərqi Zəngəzurun işğaldan azad edilmiş digər ərazilərində olduğu kimi, Laçında da bərpa, yenidənqurma, inkişaf, çiçəklənmə dövrü davam edir, Böyük Qayıdışa dair I Dövlət Proqramına uyğun olaraq geri qayıdan sakinlərinin sayı artıqca Laçın yenidən öz xoşbəxt günlərinə dönür.

Qeyd edək ki, indiyədək Laçın şəhərində 2090 nəfərdən ibarət 570 ailənin, Zabux kəndində 823 (217 ailə), Susda 215 nəfərin (59 ailə) və Bəylik kəndində 316 nəfərdən ibarət 79 ailənin daimi məskunlaşması təmin edilib, bu proses müntəzəm şəkildə davam etdirilir. Öz doğma yurdlarına dönmüş sakinlərin işlə təminatı, onların sosial-məişət qayğılarının həlli hər zaman diqqət mərkəzində saxlanılır, yeni müxtəlif təyinatlı müəssisələr yaradılır, şəhər infrastrukturu daha da yaxşılaşdırılır, Laçın gündən-günə gözəlləşir.

Bölgəyə dəfələrlə səfərlər etmiş Prezident İlham Əliyevin 2023-cü il may ayının 28-də Laçın şəhərinə qayıdan əhali ilə görüşü zamanı aparılan quruculuq işlərindən bəhs edərkən dediyi kimi: "Biz öz doğma torpaqlarımızı işğalçılardan azad edəndən sonra mən demişdim ki, Qarabağı və Şərqi Zəngəzuru cənnətə çevirəcəyik. Cənnətin əgər təsviri varsa, bu gün bax, budur. Gözəl təbiət, əzəmətl dağlar, gözəl binalar, evlər – hər şey çox böyük zövqlə yaradılır ki, həm insanlar burada rahat yaşasınlar, həm də Laçın şəhərinin müasir siması Azərbaycanın əldə etdiyi uğurları ilə eyni səviyyədə olsun".

Məhz bu sonsuz diqqət və qayğı Şəhər Gününü qeyd etdiyimiz Laçını dünyanın cənnətinə çevirir, laçınlıların xoş arzularına, xoşbəxt gələcəklərinə qol-qanad verir. Hər zaman bax beləcə, gözəllik saç, əziz Laçın, Günün mübarək!

***Mahir RƏSULOĞLU,***
***XQ-nin Qarabağ müxbiri***

**Laçın**

"Azərbaycan Hava Yolları" QSC

*Azərbaycan Respublikası üzrə mövcud olan özünün tibb məntəqələrinin fəaliyyətininin ixtisaslaşmış kənar tibb müəssisələri vasitəsilə təmin edilməsi xidmətinin satın alınması məqsədilə*

AÇIQ TENDER ELAN EDİR

"Azərbaycan Hava Yolları" QSC Azərbaycan Respublikası üzrə mövcud olan özünün tibb məntəqələrinin fəaliyyətinin ixtisaslaşmış kənar tibb müəssisələri vasitəsilə təmin edilməsi xidmətinin satın alınması üçün açıq tenderində iştirakçılar veronika.oborskaya@azal.az elektron poçt ünvanına yazılı müraciət etməklə prosedurun şərtlər toplusunu əldə edə bilərlər.

Təkliflərin təqdim olunması üçün son tarix 17 sentyabr 2025-ci il saat 15.00-dəkdir.

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

Prosedur üzrə əlaqələndirici şəxs – Veronika Oborskaya, İnnovativ və marketinq məhsullarının təchizatı şöbəsinin layihə rəhbəri, veronika.oborskaya@azal.az, iş – (+99412) 4972600 daxili 4258.

"Suraxanı Avtomotoservis" ASC səhmdarlarının nəzərinə!

11 oktyabr 2025-ci il saat 12.00 – da cəmiyyətin səhmdarlarının növbədənkənar ümumi yığıncağı keçiriləcəkdir.

İclasda bütün səhmdarların iştirakı vacibdir.

İclasın gündəliyi:

1. Baş direktorun təyin edilməsi.

Ünvan- Bakı şəhəri, Suraxanı rayonu, Qaraçuxur qəsəbəsi, E.Bəkirli küçəsi 4041.

***Rəhbərlik***

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 179 (30873) 26 avqust 2025-ci il, çərşənbə axşamı

İDMAN

## Yunan-Roma güləşçilərimiz Dünya üçüncüsü oldu




**Bolqarıstanın Samokov şəhərində keçirilən U-20 Dünya çempionatı başa çatıb.**

Yunan-Roma güləşi üzrə Azərbaycan millisi mötəbər yarışda 3 medal qazanıb. Çempionatda 90 xal toplayan güləşçilərimiz komanda hesabında dünya üçüncüsü olub. Millimiz həm medalların sayına, həm əyarına, həm toplanan xallara, həm də sıralamadakı komanda mövqeyinə görə, son 3 ildə özünün ən yaxşı nəticəsinə nail olub.

Xatırladaq ki, komandamızın heyətində Ayxan Cavadov (60 kq) qızıl, Turan Daşdəmirov (55 kq) gümüş, Fəraim Mustafayev (67 kq) isə bürünc medal qazanıb.

## "Sabah" yeni mövsümə qələbə ilə başlayıb



**Futbol üzrə Misli Premyer Liqasında II turun oyunları başa çatıb.**

İlk turda "Qarabağ"la oyunu təxirə salınan "Sabah" səfərdə "Şamaxı"nın qonağı olub. Görüş Bakı klubunun 2:1 hesablı qələbəsi ilə yekunlaşıb.

Günün digər matçında "Turan Tovuz" evdə "Araz-Naxçıvan"a uduzub–1:2.

Qeyd edək ki, turun əvvəlki oyunlarında "Neftçi" səfərdə "İmişli" ilə heç-heçə edib–0:0, "Qarabağ" evdə "Sumqayıt"a 0:1, "Kəpəz" "Karvan-Yevlax"a 2:3 hesabı ilə uduzub.

Tura dünən keçirilən "Qəbələ" – "Zirə" matçı ilə yekun vurulub. Gərgin keçən oyun bakılıların qələbəsi ilə başa çatıb – 2:1.

## "Qarabağ" Bakıda oynayacaq



**Avqustun 27-də Bakıda Tofiq Bəhramov adına Respublika stadionunda "Qarabağ" və "Ferentsvaroş" komandaları arasında keçiriləcək UEFA Çempionlar Liqasının pley-off mərhələsinin cavab oyununun təyinatları açıqlanıb.**

Saat 20:45-də start götürəcək qarşılaşma Fransadan olan hakimlər briqadasına həvalə edilib. Görüşü FIFA referisi Kleman Tyurpen idarə edəcək. Ona həmyerliləri Nikolya Danos və Aleksis Auqer kömək göstərəcəklər. Dördüncü hakim funksiyasını Romen Lissorq yerinə yetirəcək.

VAR-da Jerom Brizar, AVAR-da Nikolya Renvil əyləşəcək.

*Qabil YUSİFOĞLU*
*XQ*

*"Sosial İş" İctimai Birliyinin nizamnaməsinin və qeydiyyat haqqında şəhadətnaməsinin əsilləri itdiyi üçün etibarsız sayılır. (VÖEN-1601779161).*

# Azərbaycan güləşinin yeni ulduzu

**Azərbaycan güləşində yeni bir ulduz parlayır. Onun adı Ayxan Cavadovdur, 18 yaşı hələ gələn ay tamam olacaq.**




Yunan-Roma güləşçisi son 2 ildə ard-arda qazandığı qızıl medallarla hamımızı sevindirib. Ötən həftəsonu Bolqarıstanın Samokov şəhərində başa çatan güləş üzrə U-20 Dünya çempionatında Azərbaycan adına yeganə çempionluğa da məhz o, imza atıb.

Ayxanın yüksəlişi 2024-cü ildə Serbiyada keçirilən U-17 Avropa çempionatı ilə başlayıb. 60 kq çəki dərəcəsində çıxış edən idmançımız finalda Ermənistan təmsilçisi Aleks Marqaryana 9:4 hesabı ilə qalib gəlib. Qarşılaşmanın gedişində hesabda geri olsa da (1:4), fasilədə məşqçilərinin verdiyi tapşırıqları uğurla yerinə yetirərək geridönüş etməyi bacarıb. Bu qələbə onun təkcə texniki deyil, eyni zamanda, psixoloji üstünlüyünün də sübutu idi.

"Məşqçilərimin dəstəyi və inam hissi məni çempion etdi", – deyə Ayxan görüşdən sonra bildirmişdi.

Avropa titulundan sonra qarşıda İordaniyanın paytaxtı Əmman şəhərində keçirilən U-17 dünya çempionatı vardı. Bu dəfə də final, bu dəfə də qələbə! Həlledici qarşılaşmada gürcüstanlı Vaxtanq Loluaya 4:1 hesabı ilə qalib gələn Ayxan karyerasında ilk dəfə dünya çempionu adını da qazandı.

O, fəxrlə deyir: "Bu titulu əldə etmək üçün aylardır məşqçilərimlə birlikdə əzmlə çalışırıq. Əziyyətimiz yerdə qalmadı, bəhrəsini gördük".

Ayxan sübut etdi ki, bunlar yalnız başlanğıcdır. 2025-ci ildə güləş aləmi onu U-20 yaş qrupunda izləməyə başladı. İtaliyanın Kaorle şəhərində keçirilən Avropa çempionatında o, isveçli Adam Silverinə qarşı çətin final görüşündə 1:1 hesabına rəğmən, keyfiyyətli xal üstünlüyü hesabına fəxri kürsünün ən yüksək pilləsinə qalxdı.

Ardınca Bolqarıstanın Samokov şəhərində baş tutan U-20 dünya çempionatında hamıdan güclü oldu. Bu dəfə finaldakı rəqib ermənistanlı Yurik Mxitaryan idi. Ayxan 12:5 hesabı ilə əzmkar qələbə qazanaraq yenə Azərbaycan bayrağını ən uca zirvədə dalğalandırdı.

Finaldan öncə həyəcanın olduğunu etiraf edən gənc idmançı hisslərini belə ifadə etməyə çalışıb: "Bu hissləri sözlə bildirmək çətindir. Ermənistan idmançılarına qarşı hər zaman görüşlərimiz prinsipial əhəmiyyət daşıyıb. Rəqibə qalib gələrək Azərbaycan bayrağını ən yüksəyə qaldırdığım üçün fəxr edirəm".

Abşeron güləş məktəbinin yetirməsi olan Ayxan Cavadov Azərbaycan güləş tarixində həm U-17, həm də U20 yaş qruplarında Avropa və Dünya çempionu olan sayca üçüncü yunan-Roma güləşçisidir. Ondan əvvəl bu uğura yalnız Murad Məmmədov və İslam Abbasov imza atıblar.

Dörd böyük turnir – 4 qızıl medal. Ayxan güləşdə daha böyük uğurları hədəfləyib. Özünə də inanır: "Heç nə mümkünsüz deyil. Bunun üçün sadəcə, inanmaq və sona kimi mübarizə aparmaq lazımdır".

Hələ ki, 60 kq-da güləşməyi, fiziki hazırlığını daha da gücləndirməyi düşünür. Daim öz üzərində işləmək onun əsas prioritetidir. Güləşdə Olimpiya və ikiqat dünya çempionu Keniçiro Fumitanı özünə kumir seçib. Ayxan onun səviyyəsinə çatmağı qarşısına məqsəd qoyub.

Onun uğurları minlərlə gəncə nümunə olacaq, güləş tariximizin yeni səhifələrini yazacaq. Qarşıda isə hələ çox sınaqlar var – Olimpiya Oyunları, böyüklər arasında dünya və Avropa çempionatları...

*Rasim MÖVSÜMOV*

# Naxçıvan xəbərləri

## Zəfər qartalları – unudulmaz xüsusi təyinatlılar

**Naxçıvanda "Xüsusi Təyinatlı Qüvvələr (XTQ) veteranları, şəhid ailələri ilə işin gücləndirilməsi" adlı yeni vətənpərvərlik layihəsinin icrasına başlanılıb. Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin dəstəyi ilə həyata keçirilən aksiyada Zəfər qartalları olan xüsusi təyinatlıların döyüş hünərinin təbliği, onların şəhid yoldaşlarının xatirələrinin yad edilməsi, ailələrinə diqqət və qayğı göstərilməsi kimi tədbirlər nəzərdə tutulur.**




İlk olaraq "Naxçıvan" sarayında xüsusisitəyinatlı qazilərin və XTQ şəhidləri ailələlərinin iştirakı ilə keçirilən forumda "Xüsusi Təyinatlıların Qaziləri, Şəhid Ailələri və Veteranları İctimai Birliyi"nin sədri Bəhruz Məmmədzadə, Milli Məclisin deputatları Vüqar Rəhimzadə, Elçin Mirzəbəyli, Türkiyənin Naxçıvandakı baş konsulu Asip Kaya, Naxçıvan MR Ali Məclisinin deputatları qazi Təbriz Zeynalov, Üzeyir Məmmədov və rəsmi qurumların nümayəndələri 5 il əvvəl Vətən müharibəsində qazandığımız tarixi Zəfərdən, savaş zamanı qardaş Türkiyənin Azərbaycana mənəvi-siyasi dəstəyindən, dövlətin və ictimai qurumların şəhid ailələrinə, qazilərə göstərdiyi diqqət və qayğıdan söhbət açıblar.

Forumda XTQ şəhidlərinin ailələrinə və qazilərinə xatirə hədiyyələri təqdim edilib.

Məclisin bədii hissəsində Naxçıvan Flarmoniyasının mahnı və rəqs ansamblı iştirakçılara Qarabağ Zəfərini, ordumuzun rəşadətini tərənnüm edən konsert proqramı təqdim edib.

Layihə çərçivəsində forum iştirakçıları üçün Naxçıvan şəhərinə infotur proqramı da planlaşdırılıb. Layihənin məqsədi Azərbaycan və Türkiyə arasında mədəni və sosial əlaqələrin möhkəmləndirilməsi, eləcə də xüsusi təyinatlı qazilər və şəhid ailələri arasında əməkdaşlıq və şəbəkələşmənin gücləndirilməsidir.

## Kikboksçular Qarsdan 23 medalla qayıdıblar

**Qarsda Ani şəhərinin fəthinə həsr olunmuş kikboks turnirində Türkiyə, Azərbaycan, İran, Gürcüstan, Əfqanıstan və Ermənistan komandaları iştirak ediblər.**



Yarışda ölkəmizi "Naxçıvan Araz" Kikboksinq Klubundan baş məşqçi Elvin Qoçəliyevin rəhbərliyi ilə 23 idmançı təmsil edib. Naxçıvanlı idmançılardan 16-sı kəmər döyüşlərində qalib gələrək qızıl medala layiq görülüb. Klubun daha 7 üzvü isə yarışı gümüş medalla tamamlayıb.

Nəsir Əliyev, Rüzgar İbrahimli, Mövlan Seyidov, Oğuz Cavadlı, Ülvü Əliyev, Qurban Kəngərli, İlham Şükürlü, Polad Həsənli, Həsən İsmayılov, Turan Həziyev, Emin Məmmədli, Ziya Məmmədzadə, Ələmdar Nəcəfov, Müşfiq Hüseynov, Adəm Cəfərov və Onur Qafarov kəmər döyüşlərinin qalibi olublar. Mərdan Nağılı, Əli Vəliyev, Eldar Namazov, Ağababa Həsənov, Yusif Qafarov, Əmir Məmmədov və Hüseyn Mehdizadə gümüş medala layiq görülüblər.

*S.HƏSƏNOV*
*XQ*

HAVA

## Bakıda yağmursuz, şərq rayonlarında yağış, şimşək və dolu

**Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən verilən məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Mülayim şimal-qərb küləyi əsəcək.**



Havanın temperaturu gecə 21-25, gündüz 29-34 dərəcə isti olacaq. Atmosfer təzyiqi 759 millimetr civə sütunundan 756 millimetr civə sütununa enəcək. Nisbi rütubət gecə 70-80, gündüz 45-55 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarında havanın əsasən yağmursuz keçəcəyi proqnozlaşdırılır. Lakin gündüz bəzi şərq rayonlarında qısamüddətli leysan xarakterli yağış yağacağı, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Gecə və səhər bəzi dağlıq ərazilərdə duman olacaq. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 20-25, gündüz 33-38, dağlarda gecə 15-20, gündüz 25-30 dərəcə isti olacağı ehtimal edilir.

*XQ*

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
Email: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3581
SİFARİŞ 1730
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Mirbağır YAQUBZADƏ
Çapa imzalanmışdır 00:00